# 9 MAY FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏ GÜNÜDÜR!


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 81 (31050) 9 may 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


## Azərbaycan xalqına qənim kəsilmiş erməni faşizminin də başı əzilib



Biz 2020-ci ilin payızında 44 gün ərzində erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızın 30 il ərzində işğal altında olmasını heç kim yaddan çıxarmamalıdır.

Tamamilə dağılmış Ağdamı xarici ekspertlər, jurnalistlər Xirosimaya bənzədirlər. Bəli, Xirosima atom bombası nəticəsində məhv edildi. Ağdam və digər şəhərlər erməni vandallığı nəticəsində məhv edildi.

30 il ərzində binaları daş-daş söküb, daşıyıb satmışdılar. Qəbirləri qazırdılar, ölülərin qızıl dişlərini çıxarırdılar. Ermənistan və erməni xalqı bu vəhşiliyə görə dünya miqyasında rəzil oldu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Roma Papası XIV Leo Həzrətlərinə

**Zati-müqəddəsləri!**

Tacqoyma Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün həmməzhəblərinizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında qarşılıqlı hörmət və anlaşmaya əsaslanan əlaqələrin yüksələn xətt üzrə inkişaf etməsi və gündən-günə yeni məzmun qazanması məmnunluq doğurur. Bu əlaqələr dünyada dinlərarası harmoniya və mədəni müxtəlifliyin təşviqinə, sivilizasiyalar arasında qarşılıqlı etimad mühitinin yaradılması kimi xoşməramlı niyyətlərə xidmət edir.

Dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan Azərbaycanda etnik və dini müxtəliflik milli sərvət kimi qorunur, bütün konfessiyalar üçün bərabər şərait yaradılır. Fəxr edirik ki, Azərbaycan müxtəlif din və etiqadlara mənsub insanların mehribanlıq və qarşılıqlı anlaşma şəraitində yaşadığı məkandır. Bakı şəhərində yeni katolik kilsəsinin təməlinin qoyulması ölkəmizdə dinlərarası harmoniyanın, multikulturalizm və tolerantlıq ənənələrinin növbəti əyani nümunəsidir.

Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında illərdən bəri təşəkkül tapmış səmərəli əməkdaşlığı xüsusi qeyd etmək istərdim. Fondun dəstəyi ilə Vatikanda aparılan bərpa işləri mədəniyyətlərarası dialoqa, dini və mədəni irsin qorunub saxlanmasına töhfə verməklə yanaşı Azərbaycanın ümumbəşəri dəyərlərə sadiqliyinin göstəricisidir.

Zati-müqəddəsləri,

Azərbaycanla Müqəddəs Taxt-Tac arasında səmimi dialoqun və əməkdaşlığın inkişafına Sizin töhfənizi yüksək qiymətləndirirəm. Əminəm ki, ikitərəfli əlaqələrimiz ümumbəşəri dəyərlərin təbliği və sivilizasiyalararası anlaşmanın təşviqi naminə bundan sonra da möhkəmlənəcək və daha da dərinləşəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, ali və müqəddəs missiyanızda daim uğurlar diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 may 2026-cı il**

## “16” və sülh ritorikası: şovinist bağırtılardan “Hamıya qarşı”yadək



Səhifə ⇨ 3

## “Metrodan taksiyə” xidmət modeli




Səhifə ⇨ 13

## TDT keçən əsrin 90-cı illərində səpilən toxumların bəhrəsidir




Səhifə ⇨ 4

## İkinci Dünya müharibəsi: qlobal faciə, siyasi dönüş və insanlıq dərsləri




Səhifə ⇨ 14

## Qərb ilə Rusiya arasında qalan Ermənistan nə etməlidir?



Səhifə ⇨ 4

## Səngəçal terminalı elektrikləşdirilir



Səhifə ⇨ 13

## Şərqdən Qərbə mötəbər marşrut



Səhifə ⇨ 15

## WUF13 öncəsi “Bakı şəhərsalma həftəsi”




Səhifə ⇨ 15

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 395-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 395-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; 2025, № 4 (I kitab), maddə 340, № 6, maddə 561, № 7, maddə 633, № 11, maddələr 1036, 1038; 2026, № 1, maddələr 24, 41; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 633 nömrəli Fərmanı) 3-cü hissəsinin üçüncü abzasında "214, 214-1, 214-2, 214-3" rəqəmləri, "214 – 214-4" rəqəmləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 395-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 may 2026-cı il**

# Azərbaycan Venesiya İncəsənət Biennalesində





**Azərbaycan bu il də dünyanın ən nüfuzlu incəsənət platformalarından biri olan Venesiya Biennalesində öz zəngin mədəni kimliyini və müasir bədii düşüncəsini təqdim edir.**

Mayın 7-də Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Azərbaycanın İtaliyadakı səfirliyinin dəstəyi ilə Beynəlxalq İncəsənət Sərgisi - Venesiya Biennalesində Azərbaycan pavilyonunun açılışı olub.  Pavilyon Venesiyada XVI əsrin memarlıq abidələrindən olan Campo della Tanada yerləşir və bu dəfə Əməkdar rəssam Faiq Əhmədin "Diqqət" layihəsi ilə təmsil olunur. "Diqqət" müasir incəsənətin əhəmiyyətli beynəlxalq platformalarından birinə Azərbaycanın töhfəsidir. Pavilyonun mərkəzində rəssamın bədii təcrübəsində əsas və təkrarlanan element olan xalça təqdim edilir.

Pavilyon Azərbaycanın yalnız bədii-estetik dünyasını deyil, həm də onun fəlsəfi düşüncə ənənəsini, mədəni yaddaşını və müasir texnoloji baxışını qlobal auditoriyaya təqdim edir.

Açılış mərasimində çıxış edən Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov bildirib ki, Azərbaycanın artıq 19 ildir Venesiya Biennalesində uğurla təmsil olunması ölkəmizin beynəlxalq mədəniyyət siyasətinin mühüm nailiyyətlərindən biridir. O vurğulayıb ki, bu uğurun əsasında Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin dünyada tanıdılması istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü fəaliyyət dayanır. "Venesiya Biennalesi kimi prestijli platformada iştirak ölkəmizin zəngin mədəni irsini və müasir incəsənət potensialını beynəlxalq auditoriyaya çatdırmaq üçün nadir fürsətdir", – deyə Anar Ələkbərov qeyd edib.

Venesiya Biennalesinin prezidenti Pyetrancelo Buttafuoko çıxışında Azərbaycan pavilyonunun yalnız incəsənət hadisəsi deyil, həm də dərin mənəvi-estetik təcrübə olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan xalçalarında əks olunan rənglər və işarələr vasitəsilə sənətin universal dili insanı daxili aləminə doğru yönəldir. P.Buttafuokonun sözlərinə görə, sənət insanlığın ortaq mənəvi ehtiyacıdır və bu gözəllik sərhədləri, dilləri və nəsilləri aşaraq xalqları birləşdirmək gücünə malikdir. O, Azərbaycanı Venesiya Biennalesinin ayrılmaz və mühüm tərəfdaşlarından biri kimi qiymətləndirib.

Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov vurğulayıb ki, milli pavilyon yalnız sənət nümunələrinin sərgiləndiyi məkan deyil, həm də Azərbaycanın ruhunu, tarixini və mədəni kimliyini dünyaya təqdim edən mühüm platformadır. Səfir bu layihənin beynəlxalq mədəni əməkdaşlıq və sivilizasiyalararası dialoq baxımından xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Azərbaycanın 61-ci Venesiya Biennalesindəki milli pavilyonunun kuratoru Qvendolin Kollaço bu işdə əməyi olan hər kəsə təşəkkür edib və təqdim olunan layihədən danışıb.

"Diqqət" layihəsinin müəllifi, Əməkdar rəssam Faiq Əhməd müasir incəsənətdə özünəməxsus vizual dili ilə seçilən sənətkarlardandır.

Layihənin konseptual əsasını böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin fəlsəfi irsi təşkil edir. Hürufi düşüncə sistemindən ilhamlanan ekspozisiya immersiv və multimodal məkan həlli vasitəsilə tamaşaçını daxili düşüncə səyahətinə dəvət edir. Burada hərf, işarə və simvollar kainatın gizli kodları kimi təqdim olunur.

"Diqqət" layihəsinin ən diqqətçəkən xüsusiyyətlərindən biri isə ənənəvi incəsənətlə qabaqcıl texnologiyaların sintezidir. Ekspozisiyada kvant əsaslı sistemlər, neyroreaktiv və dataəsaslı texnologiyalar inteqrasiya olunaraq, yeni estetik və fəlsəfi təcrübə yaradılıb.

Beləliklə, "Diqqət" yalnız bir sərgi deyil, həm də insan şüuru, informasiya, yaddaş və reallıq haqqında çağdaş fəlsəfi düşüncənin bədii manifestinə çevrilir.

1895-ci ildən keçirilən Venesiya Biennalesi dünya incəsənətinin təqdim olunduğu nəhəng bir platformadır. İki ildən bir keçirilən Venesiya İncəsənət Biennalesində ölkəmiz 2007-ci ildən iştirak edir.  2025-ci ildə isə Azərbaycan ilk dəfə Venesiya Arxitektura Biennalesində təmsil olunub.

Mayın 9-dan ziyarətçiləri qəbul edəcək 61-ci Venesiya İncəsənət Biennalesi noyabrın 22-dək davam edəcək.

***XQ***

# Heydər Əliyev Fondu çinli uşaqları sevindirib

**Heydər Əliyev Fondu və Azərbaycanın Çindəki səfirliyi Pekin Uşaq Rifah İnstitutunda müalicə alan, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün xeyriyyə aksiyası keçirib.**



Layihə çərçivəsində fiziki və zehni cəhətdən qüsurlu uşaqların tədrisinə dəstək məqsədilə süni intellekt əsasında hazırlanmış xüsusi tədris avadanlıqları hədiyə olunub.

Tədbirdə Heydər Əliyev Fondunun öz fəaliyyətini Ümummilli liderin sadiq olduğu humanizm prinsipləri əsasında qurduğu, fondun prezidenti Mehriban Əliyevanın xeyriyyəçilik təşəbbüslərinin təkcə Azərbaycanı deyil, dünyanın bir çox ölkəsini əhatə etdiyi bildirilib.



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ərəfəsində təşkil olunan tədbirdə çıxış edən səfir Bünyad Hüseynov görkəmli dövlət xadimi Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətlərindən danışıb. Həm ulu öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin Azərbaycan-Çin münasibətlərinin inkişafına böyük diqqət yetirdiklərini vurğulayan diplomat əlavə edib ki, məhz həmin yanaşmanın nəticəsində Azərbaycan–Çin münasibətləri hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

***XQ***

# İqtisadi Şuranın iclası



**Mayın 8-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın iclası keçirilib.**

İclasın gündəliyində Azərbaycanda turizm sahəsində mövcud vəziyyət, problemlər və inkişaf perspektivləri, turizm bazarının genişləndirilməsi və turizmin inkişafı istiqamətində əsas prioritet tədbirlər, həmçinin cari iqtisadi məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələ üzrə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin təqdimatı dinlənilib. Təqdim edilən məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər.

İclasın yekununda turizm sahəsinin inkişafı ilə bağlı qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

***XQ***

# "Italiana Petroli" şirkətinin səhmləri ölkəmizə məxsusdur



**Azərbaycan Dövlət Neft Şirkəti "Italiana Petroli" (IP) şirkətinin səhm paketinin 99,82 faizinin "API Holding"dən satın alınması prosedurunu yekunlaşdırıb. Müqavilə bütün lazımi tənzimləyici icazələr əldə edildikdən sonra başa çatdırılıb.**

Bu kontekstdə İtaliya SOCAR-ın Avropa qitəsindəki əsas bazarlarından biri olaraq xüsusi önəm kəsb edir. Belə ki, SOCAR Bakı–Tbilisi–Ceyhan boru xətti vasitəsilə İtaliyaya xam neftin aparıcı təchizatçılarından biri qismində çıxış edir, bununla yanaşı, Cənub Qaz Dəhlizi vasitəsilə həmin ölkəyə təbii qaz ixracının diversifikasiyasına öz töhfəsini verir. Bu prizimadan, sövdələşmə dəyişən bazar mühiti və dayanıqlılıq hədəflərinə müvafiq olaraq SOCAR-ın inteqrasiya olunmuş və davamlı beynəlxalq əməliyyatlarının daha da genişləndirilməsi strategiyasına xidmət göstərir.

SOCAR-ın prezidenti Rövşən Nəcəf qeyd edib: "Satınalma prosesinin başa çatması Azərbaycan ilə İtaliya arasında enerji sahəsində uzun illər boyu formalaşmış tərəfdaşlığın əlamətdar mərhələsidir. Bu, qarşılıqlı inam və davamlı iqtisadi kooperasiyaya söykənən strateji partnyorluğun məntiqi davamıdır. Bu çərçivədə SOCAR-ın İtaliya istiqamətindəki yanaşması dayanıqlılıq, əməliyyat sabitliyi və uzunmüddətli inkişaf prinsiplərinə əsaslanır. IP-nin geniş infrastrukturunu və təcrübəsini öz fəaliyyətimizə inteqrasiya edərək şirkətin müvəffəqiyyətini şərtləndirən üstünlükləri qoruyur və Avropa bazarındakı pozisiyamızı daha da möhkəmləndiririk. Bu inteqrasiya yolu ilə beynəlxalq portfelimiz üzrə dayanıqlı inkişafı, sənaye etibarlılığını və uzunmüddətli dəyər yaradılmasını stimullaşdırırıq".

SOCAR IP-nin bazardakı güclü mövqeyinin, brend reputasiyasının və əməliyyat potensialının qorunmasına və daha da inkişaf etdirilməsi prinsipinə sadiq qalır. Eyni zamanda, şirkət əməkdaşların peşəkarlığının və təcrübəsinin dəstəklənməsini, müştərilər və tərəfdaşlar üçün fasiləsiz fəaliyyətin təmin edilməsini prioritet istiqamət olaraq təyin edib.

Qeyd edək ki, 90 ildən çox fəaliyyət tarixinə sahib olan "IP Qrup" İtaliyada mobillik və enerji təhlükəsizliyi sahələrində əhəmiyyətli yer tutur. Şirkət iki neft emalı müəssisəsi, anbar təsərrüfatları və ölkə miqyasında geniş pərakəndə satış şəbəkəsini əhatə edən inteqrasiya olunmuş sənaye logistika infrastrukturu əsasında iş aparır.

***XQ***

# Heydər Əliyev mərkəzlərinin Şəki müşavirəsi

**Ümummilli lider Heydər Əliyev xalqa və Vətənə sonsuz sevgisi, dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi, ölkəmizin davamlı inkişafının uzunömürlüyünü təmin edən təkmil irs, siyasi məktəb miras qoyub.**

Bu fikirlər Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə mayın 8-də Şəki şəhərində keçirilən Heydər Əliyev mərkəzlərinin "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın mədəni dəyərləri" mövzusunda ümumrespublika müşavirəsində səsləndirilib. Müşavirə ümummilli lider Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunub.

Mədəniyyət naziri Adil Kərimli çıxış edərək, bütün həyatını və fəaliyyətini öz xalqının xoşbəxtliyinə həsr etmiş Ümummilli Liderin Azərbaycanın inkişafı və tərəqqisi naminə misilsiz xidmətlərindən danışıb. Bildirilib ki, Ulu öndər Azərbaycan tarixində müstəqil və suveren dövlətin simvolu, cəsur insan, ən böyük vətəndaş kimi qalıb. Bu gün ölkəmizin əldə etdiyi bütün uğurlar bu böyük şəxsiyyətin adı ilə bağlıdır.

Nazir bildirib ki, Ümummilli liderin doğum günü ərəfəsində Heydər Əliyev mərkəzlərinin ümumrespublika müşavirələrinin keçirilməsi artıq ənənə halını alıb. Ulu öndərin irsinin, dövlətçilik fəlsəfəsinin, onun siyasi fəaliyyətinin, həyatının dərindən öyrənilməsi, geniş araşdırılması və təbliği baxımından belə tədbirlərin keçirilməsi olduqca önəmlidir. Mədəniyyət Nazirliyinin nəzdində olan Heydər Əliyev mərkəzləri də Ulu öndərin həyat və fəaliyyətinin, onun siyasi fəaliyyətinin, dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin geniş öyrənilməsi, tədqiqi, təbliği və gənclər arasında daha geniş təbliğ edilməsi istiqamətində vahid bir fəaliyyət həyata keçirirlər.

Müşavirədə dövlət xadimi, diplomat və tarixçi Həsən Həsənov, BDU-nun kafedra müdiri, tarix elmləri doktoru İradə Hüseynova çıxış edərək Ulu öndərlə görüşləri ilə bağlı xatirələrini bölüşüblər.

Müşavirədə, həmçinin Heydər Əliyev Mərkəzinin Heydər Əliyev irsinin tədqiqi və təbliği departamentinin direktoru Mehbarə Fətullayeva və "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası Rəyasət Heyətinin sədri Fuad Məmmədov çıxış ediblər.

Sonra Heydər Əliyev mərkəzlərinin çoxşaxəli fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub. Səmərəli fəaliyyətinə görə Heydər Əliyev mərkəzlərinin bir qrup əməkdaşı nazirliyin təşəkkürnaməsi ilə təltif edilib.

Sonda iştirakçılar Ulu öndərin sevdiyi musiqilərdən ibarət konsert proqramını izləyiblər.

***XQ***

# Baş Prokurorluqda Ulu öndərin xatirəsinə ehtiram

**Mayın 8-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.**




Baş prokuror Kamran Əliyev çıxışında bildirib ki, ümummilli lider Heydər Əliyevin zəngin siyasi irsi müasir Azərbaycan dövlətçiliyinin əsas ideoloji dayaqlarından biri olmaqla ölkənin inkişaf strategiyasını müəyyən edən fundamental prinsipləri özündə ehtiva edir. Qeyd olunub ki, Ulu öndərin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü dövlət siyasəti nəticəsində ölkədə sabitlik, qanunçuluq və milli maraqlara əsaslanan idarəetmə sistemi formalaşıb, iqtisadi, sosial və mədəni inkişafın möhkəm təməli yaradılıb.

Baş prokuror qeyd edib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə Ulu öndərin müəyyən etdiyi inkişaf strategiyası bu gün uğurla davam etdirilir, xüsusilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri icra olunur.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə tikinti, şəhərsalma və memarlıq sahələrində həyata keçirilmiş genişmiqyaslı quruculuq işləri, ölkənin sosial və infrastruktur inkişafına xidmət edən layihələr, həmçinin Azərbaycanın memarlıq simasının formalaşdırılması istiqamətində görülmüş tədbirlər barədə ətraflı məlumat verib.

Sonda Ümummilli liderin həyat və fəaliyyətinə həsr olunan "Qurulan gələcək" sənədli filmi nümayiş etdirilib.

*XQ*

# Millət qurucusu olan dahi



**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ulu öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş elmi sessiya keçirilib.**

Mərasimi giriş sözü ilə açan muzeyin direktoru, akademik Rafael Hüseynov Ulu öndərin həyatını bütövlükdə xalqına, dövlətinə və milli maraqlara xidmət nümunəsi adlandırıb. Onun yalnız siyasi lider deyil, həm də müasir Azərbaycan dövlətçiliyinin memarı, strateji düşüncənin və uzaqgörən siyasətin simvolu olduğu bildirib.

Akademik Rafael Hüseynov vurğulayıb ki, Heydər Əliyev bütün mahiyyəti ilə millət qurucusu olan dahi insandır. Ulu öndərin uzaqgörən siyasəti müstəqil Azərbaycanın möhkəm əsaslar üzərində formalaşmasında həlledici rol oynayıb. O, Heydər Əliyevin Azərbaycanın müstəqilliyini, istiqlalını məhv olmaqdan xilas etməsini, onu möhkəmləndirməsini dahi liderin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən olduğunu diqqətə çatdırıb.

Muzey direktoru ümummilli lider Heydər Əliyevin yüksək natiqlik qabiliyyəti, siyasi uzaqgörənliyi, cəsarəti və dövlət rəhbəri kimi müstəsna keyfiyyətlərindən başqa, həm də böyük mədəniyyət adamı olduğunu söyləyib. Vurğulayıb ki, Heydər Əliyev yaradıcı insanlara daim diqqət və qayğı ilə yanaşıb, milli mədəniyyətin inkişafına böyük töhfələr verib.

Akademik Rafael Hüseynov respublikamızda qazanılan bütün nailiyyətlərin Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu vurğulayıb. Əlavə edib ki, dahi liderin qurduğu yol, açdığı xətt davam etdirilir. O, Ulu öndərin quruculuq missiyasının, strateji inkişaf kursunun bu gün onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi deyib. Natiq vurğulayıb ki, bu gün Heydər Əliyevin ideyaları yaşayır və onun müəyyən etdiyi yol ölkəmizi daha böyük uğurlara, daha güclü Azərbaycana aparır. O, gələcəklər içərisində də Ulu öndərin həmişə Azərbaycan xalqı ilə birgə olacağını, Heydər Əliyevin xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını qeyd edib.

Daha sonra muzeyin digər əməkdaşları – filologiya üzrə fəlsəfə doktoru Sevinc Heydərova, filologiya üzrə fəlsəfə doktoru Nəzmiyyə Yigitoğlu, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülsəba Həsənova məruzə ilə çıxış ediblər.

*Q.YUSİFOĞLU*
*XQ*

# Ümummilli lider və milli səhiyyə



**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş fotosərgi və tədbir təşkil edilib. Sərgidə Ulu öndərin səhiyyə və tibb müəssisələrinə ziyarətlərini, səhiyyə işçiləri ilə görüşlərini əks etdirən 50-yə yaxın foto nümayiş olunub.**

Mərkəzin direktoru Səbinə Babazadə bildirib ki, Ulu öndərin rəhbərliyi ilə ölkənin səhiyyə sistemində ardıcıl və məqsədyönlü islahatlar aparılıb, xəstəliklərin yayılmasının qarşısını almaq üçün milli proqramlar işlənib hazırlanıb. Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin təşəkkülü, xilası və inkişafı prosesindəki əvəzsiz xidmətlərindən söz açıb.

Əməkdar incəsənət xadimi, tanınmış şair Baba Vəziroğlu Ulu öndərin Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafındakı əvəzsiz rolundan söz açaraq, sənət adamlarına göstərdiyi xüsusi qayğını xatırladıb.

Əməkdar jurnalist, "Ulduz" jurnalının baş redaktoru, şair Qulu Ağsəs Heydər Əliyevin gənc nəslin yaradıcılığına hər zaman böyük həssaslıqla yanaşdığını vurğulayıb.

*M.HACIXANLI*
*XQ*

## Şərafət

*Qamətinə, qüruruna baxıram –*
*Dəyanətdi, dəyanətdi, dəyanət!*
*Bu vüqarı, əzəməti görməmək,*
*Xəyanətdi, xəyanətdi, xəyanət!*

*İz qoymusan, tarix boyu qalan iz,*
*Yolun olub haqqa doğru, haqqa, düz.*
*Söylədiyin hər bir kəlmə, hər bir söz,*
*Bəyanatdı, bəyanatdı, bəyanat!*

*Sönməz günəş, dərin zəka, nur dühа,*
*Gəlməyəcək bu dünyaya bir daha.*
*Yaratdığın səndən sonra sabaha,*
*Əmanətdi, əmanətdi, əmanət!*

*Sarsılmayan, əyilməyən uca dağ,*
*Peşən oldu el yükünü daşımaq.*
*Ulu Öndər, sənin kimi yaşamaq,*
*Şərafətdi, şərafətdi, şərafət!*

*Kamandar EYVAZLI*
*(Prezident təqaüdçüsü)*

# Süni intellekt və maliyyə sektoru

**Dünən Azərbaycan Maliyyə-İqtisad Kollecində ulu öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan "Süni intellekt və maliyyə: sabaha baxış" mövzusunda kolleclərarası tələbə konfransı keçirilib.**

Kollecin prorektoru dosent Şaiq Əsgərov bildirib ki, konfransın əhəmiyyəti süni intellektin maliyyə sektoruna təsirinin müzakirə olunmasıdır. Ulu öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilən elmi məclis bu iki mühüm məqamı bir araya gətirir. Ümummilli lider Azərbaycan dövlətçiliyinin inkişafında silinməz izlər qoymuş dahi şəxsiyyətdir. O, milli təhsilin inkişafına böyük önəm verərək gənclərin bilikli və peşəkar yetişməsini dövlət siyasətinin isə prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Bugünkü tələbələr gələcəyin memarlarıdırlar.

İqtisadiyyat və Humanitar Kollecin direktoru Hicran Əyyubova qeyd edib ki, ümummilli lider gənc nəslin vətənpərvər ruhda böyüməsinə, ümumtəhsil məktəblərinin, peşə və orta ixtisas təhsili müəssisələrinin, ali təhsilin inkişafına diqqət və qayğı ilə yanaşmışdır.

Sonra paytaxt kolleclərinin tələbələri süni intellektin mühasibat və iqtisadiyyat sahələrinə töhfələri ilə bağlı təqdimatlar ediblər.

**UNEC nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecinin direktoru Davud Davudov XQ-yə açıqlamasında bildirib ki, bugünkü tədbirimiz ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunub:**

– Süni intellekt bu gün həm dünyada, həm də ölkəmizdə ən aktual və həssas mövzulardan biridir. Kollecimiz orta ixtisas iqtisadi təhsilin inkişafı istiqamətində əmək bazarının tələblərini daim diqqətdə saxlayır. Bu məqsədlə bank sektoru, mühasibatlıq sahəsində fəaliyyət göstərən müəssisələr,



beynəlxalq sertifikatlaşdırma qurumları və Maliyyə Nazirliyinin qeydiyyata aldığı mühasibatlıq şirkətləri ilə əməkdaşlıq edirik.

Cəmiyyətin peşəkar mütəxəssislərə böyük ehtiyacı var. Bu baxımdan orta ixtisas təhsili mühüm rol oynayır. Bu istiqamətdə əmək bazarından gələn sifarişləri və təklifləri diqqətlə izləyirik.

*Ləman TƏHMƏZ*
*XQ*

# "16" və sülh ritorikası: şovinist bağırtılardan "Hamıya qarşı"yadək

## *Ermənistanda seçkiyə start verildi*

**Ermənistanda iyunun 7-də keçiriləcək parlament seçkilərinin seçkiqabağı kampaniya dövrünə rəsmən start verildi. Yazımız bu başlanğıcdakı diqqətçəkən məqamlar barədədir. Amma əvvəlcə bir nüansın üzərində dayanaq. Məlum olduğu kimi, 2026-cı il başlayandan Ermənistanda seçki ab-havası müşahidə edilməkdədir və bunun müxtəlif təzahürləri var. Ən böyük təzahürü isə ölkə tarixində ilk dəfə olaraq seçkiyə "Qarabağ kartı", ümumən münaqişə məntiqi ilə qoşulmayan qüvvənin qeydə alınmasıdır. Söhbət hakim "Vətəndaş sazişi" partiyasından gedir. Hərçənd, qurumun istər 2021-ci ilin növbədənkənar parlament seçkiləri, istərsə də 2018-ci ildəki qələbəsi zamanı bu bədnam kart aktivliyini qorumuşdu.**

Bəli, Ermənistanda "Vətəndaş sazişi"indən başqa, demək olar, bütün digər aparıcı qüvvələrin hər biri üçün Qarabağ amili ön plandadır. Bu qüvvələr Azərbaycanla müharibə ritorikasını açıq şəkildə dilə gətirməsələr də, aydındır ki, zamanla barış əleyhinə sərt mövqe tutacaq, həmçinin, əllərinə düşən ilk imkandaca savaşa başlayacaqlar. Baş nazir Nikol Paşinyanın və onun tərəfdarlarının xeyli müddətdir vurğuladıqları əsas məqam da elə budur.



Əlqərəz, "Vətəndaş sazişi" seçkiqabağı kampaniya dövrünə sülh egidası ilə start verdi. Təşkilatın başlıca şüarı isə bu oldu: Ermənistan artıq sağ qalmaq dövründən çıxıb, indi yaşamaq vaxtıdır. Hər halda, Paşinyan Sünik vilayətindəki çıxışıda belə dedi. Dedi və çağırış motivli növbəti fikrini səsləndirdi: "Sülhün keşiyində durun". Əlbəttə, Paşinyan özünün ənənəvi ampluasına uyğun pafosu da unutmur: "Biz istəyirik ki, siz sülhün tərəfində olasınız. Çünki bu sizin sülhünüzdür! Çünki məhz bu yolla biz müstəqilliyimizi, kimliyimizi və gələcəyimizi qoruyuruq! Gələcək artıq gəlib və biz onu müdafiə etməliyik".

Barışla bağlı fikirlərini genişləndirən Paşinyan onu da bildirdi ki, müharibədə həlak olanların xatirəsinə ən təsirli abidə azad, xoşbəxt və suveren Ermənistan Respublikasıdır. Baş nazir bukletlərin paylanmasından sonra vətəndaşlarla birlikdə belə bir şüar da səsləndirdi: "2026-cı il seçkilərində biz 16-ya səs veririk". Məlum olduğu kimi, "16" rəqəmi seçki bülletenində "Vətəndaş sazişi"nin sıra nömrəsini ifadə edir. Yəni Ermənistan Mərkəzi Seçki Komissiyasının açıqladığı siyahıya əsasən, partiya seçki bülletenində 16 nömrəsi ilə qeyd olunub.

Onu da bildirək ki, bu gün "Vətəndaş sazişi"nin Qaregin Njde meydanında böyük mitinqi keçiriləcək. Nikol aksiyanın barışla bağlılığını vurğulasa da, Njde kimi terrorçunun adını daşıyan meydanda tədbirin təşkili sülh baxımından heç də uğurlu rəmzi anlam daşıya bilməz. Hərçənd, Zəngəzurun timsalında Sünik başlanğıcını müsbət qiymətləndirmək olar. Həm də o səbəbdən ki, Zəngəzur adlı özündə sülhü, sabitliyi, inkişafı və rifahı birləşdirəcək qlobal dəhliz və o dəhlizin TRIPP kimi beynəlxalq təminat komponenti var.

Amma Ermənistanda uğursuzlar çoxdur. Onlardan biri də Edmon Marukyandır. O Marukyan ki, "İşıqlı Ermənistan" adlı partiya yaradıb və parlament seçkilərində qələbəyə inamlı olduğunu açıqlayıb. Bu şəxsin ritorikasının sülhyönümlü olmadığı isə seçki kampaniyasının ilk günündən özünü göstərib. Marukyan Yerasxda seçicilərlə təmas zamanı bildirib ki, Azərbaycanla sülh müqaviləsi hazırkı formada imzalana bilməz. Sən demə, rəsmi Bakı indiyədək Ermənistanın ərazi bütövlüyünü kvadratkilometrlərlə tanımayıbmış və bu səbəbdən sülh müqaviləsinə ən azı xəritə əlavə olunmalıdır.

Görəsən, uşaq məntiqli boşboğaz Marukyan başqa nə istəyir? Demək çətindir, ancaq onun ölkə iqtidarına qarşı primitiv tezislərlə "silahlandığı" ortadadır. Amma Marukyan özünü erməni cəmiyyətinə təcrübəli diplomat qiyafəsində sırımaqda israrlıdır: "Hakimiyyət bizi aldadır və deyir ki, tərəflər Alma-Atı Bəyannaməsinə əsasən əraziləri qarşılıqlı şəkildə tanıyıblar. Bəyannamədə xəritələr yoxdur, orada müəyyən prinsiplər əks olunub. Müqaviləyə xəritə əlavə edilməlidir. Bu xəritə olmayanadək heç kimin sazişi imzalamağa haqqı yoxdur".

Türkiyə ilə münasibətlər baxımından Ankaraya subliminal ittiham yağdıran, sərhədin Ermənistan yox, Türkiyə tərəfindən bağlandığını və bu ölkə tərəfindən də açılmalı olduğunu deyən Marukyan Qarabağ avantürasını qabartmağı yaddan çıxarmayıb. Daha doğrusu, o, bölgənin Azərbaycan tərəfindən, guya, işğal edildiyi fikirini yayıb və bildirib ki, vaxtilə Baş nazir Paşinyana Qaçqınlar Nazirliyinin yaradılmasını təklif edibmiş, lakin ikinci bununla razılaşmayıb və bu, onların arasındakı son görüş imiş. Marukyan, həmçinin, Qarabağ ermənilərinin geri qayıdışı ilə bağlı sərsəmləməyindən də qalmayıb.

Ermənistanda seçki kampaniyasına start verdiyini göstərən siyasi təşkilatdardan biri də hazırda ev dustaqlığında olan erməni əsilli rusiyalı iş adamı Samvel Karapetyanın "Güclü Ermənistan" partiyasıdır. Partiya ölkə parlamentinin binası önündə aksiya təşkil edib. Qurumun koordinatoru Narek Karapetyan bildirib ki, 8 il əvvəl məhz bu gün bu binada Paşinyan baş nazir seçilmiş və ədalətli sistem, təhlükəsizlik və rifahla bağlı yüzlərlə vəd vermişdi. Lakin 8 il sonra məlum olur ki, heç nə dəyişməyib. "O, sülh vəd etmişdi, amma müharibə gətirdi. Rifah vəd etmişdi, amma insanlar böyük borclar və kreditlərlə üz-üzə qaldılar, yoxsulluq aradan qalxmadı. Halbuki onlar (Paşinyan və tərəfdarları – red.) özlərinə milyardlarla mükafat payladılar və adamlarını işlə təmin etdilər. Nəticədə, kiçik bir qrup qazandı, 600 min erməni isə güclə dolanır", - deyən partiya funksioneri ölkədəki bütün müxalif qüvvələri hakimiyyət dəyişikliyinə nail olmaq üçün birgə fəaliyyətə çağırıb.

Ermənistanda "Hamıya qarşı" adlanan partiya da seçki marafonuna start verdiyini açıqlayıb və özünün baş nazir postuna namizədini elan edib. Qurumun "Facebook" səhifəsində yayılan məlumata görə, bu siyasi qüvvə seçkilərdə qalib gələcəyi təqdirdə, hökumətə 100 gün Nina Karapetyants rəhbərlik edəcək. Amma "Hamıya qarşı" ilə bağlı qəribə sayılacaq bir məqam var. Sən demə, partiyanın müəyyən edilmiş proqramına əsasən, qələbə qazanacağı təqdirdə, onun namizədi növbəti 10 il ərzində siyasi fəaliyyətlə məşğul olmamağı öhdəsinə götürübmüş. Sual olunur: "Hamıya qarşı"nın namizədi siyasi fəaliyyətlə məşğul olmayacaqsa, bəs nə iş görəcək? Həqiqətən, ortada qəribə olduğu qədər də, gülməli durum var.

Əlbəttə, Ermənistanın ikinci prezidenti Robert Koçaryanın da seçkidə iştirak edəcəyi məlumdur. Yada salaq ki, bir müddət əvvəl Koçaryan özü də baş nazirliyə iddiasını açıqlamışdı. Ancaq seçki kampaniyasının ilk günündə ondan səs-səmir gəlmədi. Elə gəlməməyi yaxşıdır. Daha yaxşı olar ki, Robert ümumiyyətlə sussun və daşnak zəhərini tökməsin. Hərçənd, buna şübhə ilə yanaşırıq.

*Ə.RÜSTƏMOV*
*XQ*

# TDT keçən əsrin 90-cı illərində səpilən toxumların bəhrəsidir

**Bakı Dövlət Universitetinin ev sahibliyi, Türkiyənin Ankara Hacı Bayram Veli Universiteti, Şimali Kipr Türk Cümhuriyyətinin Girne Amerika Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti və Qarabağ Universitetinin tərəfdaşlığı ilə "Türk dünyasında transformasiya və inteqrasiya: iqtisadiyyat, siyasət və texnologiya" adlı beynəlxalq konfrans keçirilib. Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətindən elm nümayəndələrinin, ekspertlərin qatıldığı konfransda Türk dünyasının gələcəyə yönəlik planları ilə bağlı çıxışlar edilib, panel müzakirələrdə maraqlı məruzələr dinlənilib.**



Tədbirdən sonra redaksiyamızın qonağı olan **Türkiyənin Ankara Hacı Bayram Veli Universitetinin müəllimi, beynəlxalq münasibətlər üzrə ekspert Kadir Ercan Çeliklə** söhbətimiz əsasən dünyanın yeni düzəni, Türk dünyasının inidiki vacib dönəmdə tutduğu mövqeyi, eləcə də digər qlobal mövzular ətrafında oldu.

**– Kadir bəy, bu gün Türk dünyasının yeni intibahına şahidlik edirik. TDT isə texnologiya istehsal edən, qlobal dəyər zəncirinə istiqamət verən və innovasiya yaradan güclü mərkəzə çevrilməkdədir...**

– Keçən əsrin 90-cı illərindən etibarən Türk dünyası beynəlxalq münasibətlər sistemində mərkəzi rollardan birinə iddia etməyə başladı. Bunun əsas səbəbi dünyada gedən siyasi və texnoloji dəyişikliklər və bu zaman yaşadığımız bölgənin beynəlxalq əhəmiyyətinin durmadan artması idi. Yəni bölgənin belə deyək, qan-damar sistemini qidalandıran təbii ehtiyatlar və onların dünya bazarlarına nəqli baxımından, təbii ki, Türk dünyası böyük əhəmiyyət daşıyırdı. Buraya Mərkəzi Asiya respublikalarının və Azərbaycanın sahib olduğu neft, təbii qaz, qızıl, uran mədənləri kimi strateji yataqları, təxminən 170 milyonluq əhalisi və Avropaya uzanan nəqliyyat şəbəkəsinə malik böyük coğrafiya daxildir. Bu böyük potensial məhz həmin illərdə müstəqilliklərini qazanmış türkdilli respublikalar arasında əməkdaşlığın təməlini formalaşdırdı. 2000-ci illərdə bütün dünyada yaşanan sosial-iqtisadi böhran və Amerika Birləşmiş Ştatlarının təkqütblü hegemonluğunun sarsılmağa başlaması yeni düzəni şərtləndirən amillər oldu.

**– Bu yeni düzəndə TDT-nin qlobal gücə çevrilmək yolunda atdığı addımları necə dəyərləndirərdiniz?**

– Beynəlxalq nizamın pozulduğu o dönəmdə Türkiyə uzun illər "böyük güclər"in idarəçiliyində olmuş sistem daxilində çoxmərkəzli güc rolunu oynamağa başladı. 2001-ci ildə Rusiya ilə beynəlxalq əməkdaşlıq müqaviləsi imzalayan, 2005-ci ildə Çinlə strateji əlaqələrə start verən Türkiyə türk dilində danışan ölkələri tədricən öz ətrafına toplamağa başladı. 2009-cu ildə Naxçıvan razılaşması ilə təşkilatlanan bu ölkələr Azərbaycanın Zəfəri ilə bitən 44 günlük Vətən savaşından sonra İstanbul Zirvəsində yeni qurumun adını Türk Dövlətləri Təşkilatı olaraq təsdiqlədilər. TDT ortaq ticari-iqtisadi əlaqələrdən siyasi qərarların birgə qəbul olunduğu regional gücə çevrilmə mərhələsini də arxada qoydu. Bu, Türk dövlətlərinin siyasi rəhbərlərinin və xalqlarının ortaq tarixə və milli dəyərlərə hörmət və səmimiyyətin nümayişidir. Azərbaycanın Qarabağ savaşında qələbəsi bu ölkələr arasında hərbi əlaqələrin güclənməsinə ciddi təkan verdi. İndi TRIPP adlandırılan Zəngəzur dəhlizi isə tarixi və sosial layihə olmaqla yanaşı, Türk dünyasını Turan birliyinə aparan yol olacaq. Bunun siyasi birliyə çevrilməsi avtomatik olaraq baş verəcək. Yəni biz Avropa İttifaqına bənzəyən bir modeldən danışırıq. Amma onun özünəməxsus cizgiləri olacaq. Qısası, 90-cı illərdə səpilən toxumların bu gün barını görməkdəyik.

**– ABŞ–Mərkəzi Asiya münasibətləri gündəmdədir. Keçən il Mərkəzi Asiyanın 5 dövlətinin başçılarının Ağ Evdə prezident Donald Trampla görüşü oldu. Ardınca Azərbaycanın da bu formata qatılacağı barədə tezisler səsləndi. Yəni "5+1"-in "6+1" formatına keçidinin perspektivini necə görürsünüz?**

– Əvvəlcə, onu deyək ki, Birləşmiş Ştatların bu bölgəyə marağının artmasını şərtləndirən iki vacib məqam var. Birinci məqam dünya hegemonluğunu davam etdirmək planı, ikincisi isə onun bu planını poza biləcək digər gücün – Çinin Qərbə inteqrasiyasının qarşını almaqdır. Dənizlərə çıxışı olmayan Mərkəzi Asiyanın körfəz üzərindən çəkdiyi dəmir yolları Şimal–Cənub, Şərq–Qərb marşrutları vasitəsilə qurudan dənizə çıxışı təmin edən qollardır. ABŞ-ın Əfqanıstana yürüşü ilə başlayan Mərkəzi Asiya planı bir tərəfdən Rusiyanı, digər tərəfdən Çini bu qovşaqlardan məhrum etməklə, özünün bölgədə iştirakını gücləndirməyə hesablanıb. Çünki Sovet İttifaqı dağılandan sonra Mərkəzi Asiyaya kənardan axın getdikcə güclənməkdə idi. Məhz bu axının qarşını almaqdan ötrü Rusiya Müstəqil Dövlətlər Birliyi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi bir sıra qurumlar yaratmağa nail oldu. Şanxay Əməkdaşlıq Təşkilatı isə Çinin iştirak etdiyi regional platforma olsa da, Pekin o dövrdə iqtisadi cəhətdən zəifləmiş bölgəyə müdaxilədə o qədər də həvəsli görünmürdü. Deməli, ABŞ Qərbin nüfuzunun zəiflədiyi və Şərqin artan müdaxiləsi fonunda Mərkəzi Asiyada maraqlarını yeritməyə qərar verdi. Bu maraqlar isə bölgədəki hidrogen qaynaqları, uran yataqları, eləcə də digər nadir minerallara sahib olmaq üzərində qurulub. Qərbin inkişaf etmiş sənayesinin Azərbaycan neftinə və qazına ehtiyacı var. Rəsmi Vaşinqton məhz bu sərvəti nəzarət altına almağa çalışır. Amma bu zaman Çin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Amerikanın iqtisadi qüdrətini sarsıdacaq köhnə ticarət şəbəkələrini, ilk növbədə, İpək Yolunu fəallaşdırmağı hədəfləyir. ABŞ məhz bu layihəyə mane olmaqdan ötrü Mərkəzi Asiya ölkələri ilə dediyiniz formatda əməkdaşlığa start verib. Burada Türkiyə üzərindən keçəcək quru nəqliyyat şəbəkəsinin, Orta Dəhlizin, xüsusilə Zəngəzur koridorunun önəmi artır.

**– "İbrahim sazişləri" ideyası Vaşinqtonun planının tərkib hissəsi kimi nəzərdən keçirilə bilərmi?**

– Bəli, "İbrahim sazişləri" həm Mərkəzi Asiya, həm də Yaxın Şərqdə ABŞ-ın öz təhlükəsizliyinə təminat verəcək strateji layihə kimi düşünülüb. Yəqin sualınızın davamı Azərbaycanın bu müstəvidə harada qərar tutması ilə bağlı olacaq. Azərbaycan Türk dünyasına açılan qapıdır. Azərbaycan Türk dünyasının enerji ehtiyatlarını Qərbə daşıyan tranzit körpüsüdür. Mərkəzi Asiya ölklərindən fərqli olaraq, Azərbaycan Avropaya daha yaxındır. Burada ticari-iqtisadi əlaqələrlə yanaşı, siyasi yanaşmalar, beynəlxalq münasibətlər kontekstində də ortaq nöqtələr mövcuddur. Yəni bu amillərə görə ABŞ Azərbaycanın regional maraqlarını nəzərə almaq məcburiyytindədir. Əgər Mərkəzi Asiya dövlətləri Azərbaycanla eyni platformadan çıxış etmək istəyirlərsə, ən doğru variant Bakı kimi balanslı yanaşma diplomatiyasını rəhbər tutmalarıdır. Bir yandan Rusiya, digər tərəfdən Avropa, o yandan isə ABŞ-la əməkdaşlıq siyasətini yürütmək diplomatiyasını deyirik. İntəhası, bu zaman Vaşinqton üçün Yaxın Şərq və Mərkəzi Asiya layihələrinin Şimali Atlantika Alyansından da irəli çıxdığı nəzərə alınmalıdır...




**– Sonuncu sualımızı Türkiyə üzərinə gətirmək istərdik. Türkiyə iki coğrafiyada davam edən savaş tərəfləri arasında qlobal barış gücü kimi statusunu təsdiqləmiş ölkədir. Siz bu statusun davamını necə təsəvvür edirsinz?**

– "Soyuq müharibə"nin davam etdiyi 1946-1990-cı illərdə Türkiyə orta miqyaslı neytral ölkə idi. Amma keçən əsrin sonlarında onun rolu dəyişdi. Türkiyə "oyun pozucu" aktora çevrildi. Bu o deməkdir ki, ölkəmizin yaxın çevrəsində Ankaradan yan keçən oyun qurmaq mümkün deyildi. İndi isə Türkiyə daha da irəli gedərək "oyun quran" güc statusuna malikdir. Yəni bölgədən kənarda baş verən hadisələrə də geosiyasi cəhətdən yön verməyə qadir ölkədir. Bu, olduqca müsbət və dəyərli inkişafdır. Məhz bunun nəticəsidir ki, Rusiya–Ukrayna savaşında tərəflər Türkiyəyə müraciət etdilər. Sadəcə, onlar deyil, ABŞ da Ankaranın vasitəçiliyini dəstəkləyir. Eləcə də Yaxın Şərq münaqişəsində Türkiyənin barışa yönəlik fəaliyyəti hamı tərəfindən qəbul edilir. Suriyanı buna misal göstərə bilərik. Afrikada yaşanan hərbi böhranların tənzimlənməsində Türkiyənin rolu danılmazdır. Hörmüz böhranı isə bunların hamısını geridə qoyur. Bu qarşıdurmanın bitməsi, sülhün əldə olunması üçün Ankara kənar güclərin bu coğrafiyaya hərbi müdaxiləsinin qarşısına sipər çəkən dövlətdir. Türkiyə NATO üzvü və müsəlman ölkəsi olaraq hətta ABŞ–Rusiya–Çin qarşıdurmalarına qarşı beynəlxalq güc formalaşdırmağı bacarır.

**– Kadir bəy, dəvətimizi qəbul edib redaksiyamıza gəldiyinizə, maraqlı cavablarınıza görə sizə minnətdarıq.**

– Göstərdiyi iltifata görə mən də "Xalq qəzeti"nə təşəkkürümü bildirirəm.

***Qələmə aldı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# Qərb ilə Rusiya arasında qalan Ermənistan nə etməlidir?

## *Yaxud Cənubi Qafqaza "qıcanan dişlər" barədə*



**"Rusiyanın mövqeyi sadə və dürüstdür: biz öz siyasətini müstəqil şəkildə qura və inkişaf istiqamətini özü müəyyən edə bilən güclü, sabit və həqiqi suveren Ermənistanın olmasında maraqlıyıq". Bu fikirlər Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin "İzvestiya" qəzetinin sorğusuna cavabında yer alıb.**

Əvvəlcə onu bildirək ki, hələlik bir cümləsini diqqətə çatdırdığımız bu açıqlama Rusiya XİN-nin rəsmi nümayəndəsi Mariya Zaxarovanın Ermənistanı diplomat yox, sanki, "qanuni oğrular" kimi, tənbeh etməsindən daha məntiqlidir. Hərçənd, Zaxarovanın tonu ilə hazırkı mövqe arasında oxşarlıq birmənalıdır.

Bəli, tam aydındır ki, "Avropa Siyasi Birliyi"nin İrəvanda keçirilmiş VIII Zirvə toplantısı, xüsusən, tədbir əsnasında yaşananlar Rusiyada ciddi qıcıq doğurub. Amma qıcığın heç də elə-belədən yaranmadığı aydındır. Məlum oldu ki, Fransa Prezidenti Emmanuel Makron başda olmaqla, Avropa liderləri Ermənistanı Cənubi Qafqazda anti-Rusiya qalası kimi göstərmək üçün əllərindən gələni etdilər. Rəsmi İrəvan təmsilçiləri, o cümlədən Baş nazir Nikol Paşinyan bütün yerli və beynəlxalq platformalarda ölkənin müstəqil siyasət kursu yeritdiyini, qonşularla bərabərtərəfli mehriban qonşuluq münasibətlərinə üstünlük verdiyini, ümumən, balanslı xətt seçdiyini vurğulasa da, həmin liderlər bəyanat və çıxışları ilə bunun tam əksini göstərdilər, Ermənistanın, övladlığa götürülmüş yetim uşaq obrazını canlandırdılar. Yetimə isə "gəl-gəl" deyən çox, çörək verən az olur.

...İrəvanda "Avropa Siyasi Birliyi"nin VIII Zirvə toplantısı çərçivəsində yaşanmış ən böyük qəbuledilməzlik Ukrayna Prezidenti Volodimir Zelenskinin Moskvada keçiriləcək 9 May paradına PUA-larla hücum anonsu idi. Ermənistan rəhbərliyi, ev sahibi kimi, ilk növbədə, belə bir bəyanatın səslənməsinə imkan tanımalı deyildi. Bu hal yaşanırsa, deməli, Paşinyan iqtidarının zəifliyi var. Axı siyasi-diplomatik ritorika baxımından da anti-Rusiya köklənişi "Avropa Siyasi Birliyi"nin məram və məqsədlərinə zidd təmayüldür. Yəni, Nikol və tərəfdarları sırf bu məqamın prinsipiallığına söykənib fərqli, işgüzar gündəlik formalaşdırmaq imkanına malik idilər. Belə bir gündəlik Cənubi Qafqazın əməkdaşlıq məkanı statusunu vurğulayardı. İndiki halda məlum Zirvə toplantısı regionun qarşıdurma müstəvisi potensialını ortaya qoyur. Bu isə son dərəcə zərərlidir...

Haşiyə çıxaraq bildirək ki, "Avropa Siyasi Birliyi"nin VIII Zirvə toplantısının hayları himayə platsdarmına çevrilməsi ölkənin qonşuları – Azərbaycan, Türkiyə və Gürcüstan üçün də qəbuledilməz mənzərədir. Bir halda ki, ortada daim Ermənistanla manipulyasiya etmək istəyən qüvvələr var, kim təminat verə bilər ki, sabah həmin qüvvələr İrəvanın əli ilə regionda yeni gündəm yaratmaq istəməyəcəklər? Axı indiyədək onlar mövcud istiqamətdə çox çalışıblar. Deməli, seçki qalibi olacaq erməni iqtidarının üzərinə bu baxımdan daha ciddi siyasi sərmayə yatırmağa cəhd göstərmələri mümkündür...

Yeri gəlmişkən, Rusiya XİN-in haqqında söz açdığımız açıqlamasının mahiyyətində elə seçki dayanır. Qurumdan o da bildirilib ki, Avropa İttifaqı Ermənistanda seçki prosesinə müdaxilə edir və əvvəllər Moldovada sınaqdan keçirilmiş mexanizm və texnologiyaları təkrarlayır: "Biz Aİ-nin Ermənistan istiqamətindəki israrlı fəallığını məhz belə qiymətləndiririk. Ermənistana qondarma tərəfdaşlıq missiyasının, eləcə də hibrid təhdidlərə qarşı mübarizə üzrə çevik reaksiya qrupunun göndərilməsi — 7 iyun parlament seçkiləri ərəfəsində Brüsselin atdığı bu addımlar ölkənin daxili işlərinə müdaxilə cəhdindən başqa bir şey deyil. Bunun üçün Aİ əvvəlki seçki kampaniyaları zamanı eynilə Moldovada tətbiq olunmuş mexanizm və texnologiyalardan yararlanır".

Ən başlıcası isə Rusiya XİN İrəvanın avropalıların dəstəyini həvəslə qəbul etdiyi qənaətindədir: "Ümid edirik ki, Ermənistan rəhbərliyi Brüsseldə hər şeyin öz qiymətinin olduğunu unutmur. Digər ölkələrin təcrübəsi göstərir ki, Qərblə bu cür yaxınlaşma həmin proseslərə cəlb olunan dövlətlər üçün nadir hallarda yaxşı nəticələnir".

Əlbəttə, müstəqil siyasət yürütdüyünü bəyan edən Ermənistan heç bir yana əyilməməli, sırf ölkənin maraq və mənafeləri kontekstində davranmalıdır. Bir sözlə, İrəvan Bakının illərlə getdiyi yolda addımlamağı öyrənməlidir. Axı Rusiya və ya Qərblə hansısa ziddiyyətə gedilirsə, bu trayektoriya son dərəcə dəqiq izah edilməli, arqumentləşdirilməlidir. Elə bir formada arqumentləşdirilməlidir ki, Ermənistanın timsalında Cənubi Qafqazda əlahiddə maraqlar güdən beynəlxalq aləm durumla hesablaşmaq məcburiyyətində qalsın. İstər Rusiya XİN-in hazırkı açıqlaması, istərsə də qurumun rəsmi nümayəndəsi M.Zaxarovanın bir neçə gün əvvəlki "diplomatik bozarması" onu göstərir ki, erməni iqtidarının tutduğu yolda ciddi yanlışlıq var. Ayrı-ayrı detallar bir yana, Ermənistan rəhbərliyi həssas davranıb Rusiya siyasi industriyasına bəhanə verməli deyildi.

Bəli, Ermənistan Rusiyanın da, Qərbin də forpostuna çevrilməməlidir. Ən əsası ona görə çevrilməməlidir ki, hər iki qütbün baxışlarındakı Cənubi Qafqaz, yekun nəticə etibarilə, sülh, əməkdaşlıq və rifah məkanına çevrilməkdən uzaqdır. Tarixən də belə olub. Durumun cəzasını isə region xalqları yaşadıqları acılarla çəkiblər. Ermənistan Rusiyanın yox, Qərbin forpostluğunu seçəcəksə, sadə ermənilər 38 il əvvəlki ab-havanın təsirindən xilas ola bilməyəcəklər.

Bu yerdə onu da bildirək ki, Rusiyanın da, Qərbin də obrazlı desək, həbsxananın boz boşqabında haylara yedizdirmək istədikləri ancaq avantüradır. Söhbət Qarabağ avantürasından gedir. Hər iki cinah qondarma iddianı özünün baxış bucağına uyğun qabardır. Rusiyada bildirilir ki, "Qarabağ hərəkatı" bitməyib, Avropada Qarabağ ermənilərinin təhlükəsiz və ləyaqətsiz şəkildə geri dönüşü məsələsindən dəm vurulur. Necə deyərlər, toplananların yerini dəyişəndə cəm dəyişmir.

Sonda daha bir məqamın üzərində dayanaq. Rusiya XİN açıqlamasında onu da bildirib ki, "bəzi Qərb həmkarlarından fərqli olaraq, Rusiya İrəvana hazır "gələcək ssenariləri" gətirmir və münasibətlərin perspektiv inkişafını seçkilərin nəticələri ilə şərtləndirmir". Bu fikir qurumun yazımızın lap əvvəlində diqqətə çatdırdığımız mövqeyinin davamıdır. Problem isə ondadır ki, Rusiyanın nəinki Ermənistana, bütövlükdə Cənubi Qafqaza yanaşması heç vaxt sadə və dürüst olmayıb. Məsələn, Moskvada həmişə istəyiblər ki, bu coğrafiyanın xalqları müstəqil siyasət qurmağı bacarmasınlar və ya müstəqil siyasətdən anlayışları olmasın. Ümumiyyətlə, rus ictimai təfəkkür tərzinə görə, ölkənin özündən başqa müstəqil heç bir dövlət ola bilməz. Bu baxış Azərbaycanı, Ermənistanı və Gürcüstanı həqiqi suveren ölkə qismində təsəvvürə gətirə bilərmi? Əlbəttə ki, yox.

Digər tərəfdən, müvafiq olaraq, Kremldə heç vaxt arzulamayıblar ki, region xalqları inkişaflarını özləri müəyyənləşdirsinlər. Bu mənada Rusiya XİN-in əvvəldə diqqətə çatdırdığımız "güclü, sabit və həqiqi suveren Ermənistanda maraqlıyıq" fikri ancaq acı gülüş doğura bilər. Bu gün Ermənistanda qatı ruspərəst şovinist və revanşistlər varsa, onlar 30 ilə yaxın davam etmiş rus forpostluğundan başqa heç bir müqəddəslik tapa bilmirlərsə və Moskvadan hansısa formada onlara dəstək ifadə olunursa, deməli, Rusiyanın Ermənistanı öz yolunda addımlayan məmləkət qiyafəsində görməsi mümkünsüzdür.

Belə bir durumda Ermənistan iqtidarının üzərinə böyük missiya düşür. Paşinyan administrasiyası tutduğu yolda inamlı və qətiyyətli davranmalı, sülh sadiqliyində hansısa sapmaların qeydə alınmasına imkan və şərait yaratmamalı, tarixi şans əldən verilməməlidir. Yalnız bu şəkildə müstəqil və suveren Ermənistan formalaşdırmaq, keçmişin çürük klişelərini tarixin zibilliyinə göndərmək mümkündür. Rəsmi İrəvan erməni cəmiyyəti ilə birgə reallığı görməli, adekvat reaksiya verməlidir. Elə bir reaksiya ki, davamlı və dayanıqlı barış naminə ciddi və sarsılmaz müqavimət doğursun.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ataların oğullara şöhrət ərməğanı

**...Əlindəki baltanı neçə illər əvvəl ömrünü başa vursa da, “göz dağı” kimi qalmış qoz ağacının kötüyünə söykəyib özünəməxsus səliqə ilə brezent əlcəklərini də çıxardı. Dəsmalla alnını, yanaqlarını sildi. Sonra həmişəki kimi, əsgəri addımlarla mənə sarı tələsdi. İri, işdən-gücdən qaralmış əlləri kürəyimdə qovuşdu. Yanağını üzümə söykəyib, elə beləcə də pıçıltı ilə bircə-bircə Bakıda yaşayan uşaqlarını, nəvələrini, dostlarımı, iş yoldaşlarımı soruşdu, kef-əhvallarını xəbər aldı. Ötən gəlişimdə kimlərə salam göndərmişdisə, çatıb-çatmadığı ilə maraqlandı.**



Adətim üzrə belə hallarda heç nə danışmır, ürəyini boşaltmağını gözləyirəm həmişə. Bu dəfə də xeyli dinmədim. Köksümə sığınan kişinin bir vaxtlar çoxlarının həsəd apardığı boy-buxununu, enli çiyinlərini, iri, göyümtül gözlərini, güclü əllərini, həmişə par-par parıldayan xrom çəkmələrini olduğu kimi xatırlamağa çalışdım.

Müharibədən qayıtdığı vaxtdan kolxozda birqadir, sonralar Gəncə Kənd Təsərrüfatı İnstitutunu qiyabi yolla bitirib, mühasib işlədiyi illərdə rastlaşdığım mənzərələri də necə var, o cür yada salmaq istədim. Qollarımın arasında isə arıq, yanaqlarının almacıq sümükləri qabarmış, səsi kallaşmış, o qədər də yaxşı eşitməyən qoca əziz adamlarının iş-gücü, sağ-salamatlığı barədə suallara cavab axtarırdı. Bu, bir növ, onun cavanlıqdan gələn vərdişi idi. Ürəyi istədiyi adamlar barədə hal-əhval tutmayımca dincələn deyildi.

Qoz kötüyünə söykədiyi baltanı əlinə götürüb o üz-bu üzə çevirdi:

– Təzə itilətmişəm, – dedi. Ağzı kütləşəndə əllərimi incidir, əlcək də kömək eləmir.

Üz-gözümdəki narazı ifadəni dərhal duydu.

– Vallah, bala, Aqşin də imkan vermir ki, əlimi ağdan-qaraya vurum. Amma yaxşı bilirsiniz ki, məni işləmək, həyət-bacada hərlənmək saxlayır. Düzdür, gəlin də, uşaqlar da qulluğumda yaxşı dururlar. Amma ananızdan sonra heç cür bekar qala bilmirəm. Belə-belə işlərlə başımı qatıram. Samovara çır-çırpı doğrayıram, ağacların dibini yumşaldıram, qurumuş budaqlarını budayıram, mal-heyvanın yemini verirəm. Xahiş edirəm, buna görə məni qınamayın. Hələ ki canımda can var, bu cür də olacağam!

Heç nə deyə bilmədim... Qoluna girib yaxınlıqdakı kətilə tərəf apardım. Oturmadı, dedi ki, az-çox işləmişəm, yuyunmasam otura bilmərəm. Gözümü açandan onu bu cür səliqə-sahmanlı, özünə baxan adam kimi görmüşəm. Geyiminə, üst-başına, danışığına, yerişinə-duruşuna görə çoxlarına nümunə göstərilib. Bu yaşda da eynən cavanlıqdakı kimidir. Heç nə dəyişməyib! Bircə yaşının üstünə yaş gəlib, hiss olunacaq dərəcədə arıqlayıb.

Amma yaddaşı yerindədir, lap cavan oğlanlarda olduğu kimi. Yaxşı yadımdadır ki, orta məktəbdə keçirilən riyaziyyat imtahanlarında çətin sualların cavabını həmişə ondan istəyirdilər. Rayon məhkəməsinin xalq iclasçısı kimi neçə-neçə insanın köməyinə çatırdı. Kənddə elçi kimi getdiyi qapıdan heç vaxt “əliboş” qayıtmazdı.

Gecə yarısınadək söhbətimizə ara vermədik. Dünyada baş verən son hadisələri çözələdik, nəvələrinin təhsili, nəticələrinin ağlağan olub-olmaması ilə bağlı çeşidli suallarını ətraflı cavablandırdım. Deyəsən, razı qalmışdı. İndi də nə isə soruşmaq, xatirələrini dinləmək növbəsi mənə çatmışdı. Danışdırdım. Onsuz da xaraktercə kövrək olan kişi 9 may ərəfəsində daha da yuxalmışdı. Mayın 9-u onun üçün ikiqat əzizdir. Bu tarixi biz həm də onun doğum günü kimi qeyd edirik.

...474-cü piyada alayının sıravi əsgəri kimi Ukraynanın Jitomir vilayətinin Volınsk, Rovno şəhərləri ətrafından ta Fransanın Lion şəhərinədək ölüm dəhlizini sağ-salamat keçib gedə bilib:

– Göydə Allah, yerdə atamın alqışı, anamın duaları saxladı məni. Neçə-neçə həmyerlimi, cəbhə boyu dostlaşdığım igid insanları itirdim. Bəzilərini yaralı-yaralı qucağımda kilometrlərlə irəli aparmışam. Hər dəfə həlak olan səngər yoldaşlarımın gözünü qapayanda özüm də min yol ölüb-dirilmişəm. Düşmən mühasirəsində olduğumuz vaxtlarda ac qaldığımız, ağac qabığı, giləmeyvə ilə keçinən vaxtlarımız da olub. Amma sarsılmamışıq. Ovaxtkı anlayışla desək, vətən uğrunda canımızdan keçməyə and içmişdik.

SSRİ-ni, Avropanın işğal olunmuş nə qədər ölkəsini faşizmdən xilas etdik. Səngərlərin soyuq sifəti, əzablı, qanlı-qadalı yolların yorğunluğu, bəzən bircə patrona güvənməyimiz belə iradəmizi sarsıda bilmədi. Radiodan, cəbhə qəzetlərindən öyrənəndə ki, Həzilərimiz, Gəraylarımız, İsrafillərimiz, Ziyalarımız, Məliklərimiz, Hüseynbalalarımız, Mehdilərimiz necə qəhrəmanlıq nümunəsi göstərirlər, düşmənin başına necə od ələyirlər, ürəyimiz dağa dönürdü. Özümüzü elə o qəhrəmanların yerində hiss edirdik.

Əlbəttə, çox istəyirdik ki, hər birimiz vətənə qızıl ulduzlu, general paqonlu dönək. Bu tale hər kəsə də qismət olmur axı... Amma hər dəfə süngümüz düşmənin bağrını dələndə, atdığımız güllənin hədəfə dəydiyini görəndə sanırdıq ki, bu mənzərəni bizdən qələbə sorağı gözləyənlərin hamısı görür, qiymətləndirir, alqışlayır.

İndi hər il mayın 9-da rayon mərkəzində yığışırıq, bir-birimizdən hal-əhval tuturuq. “Ana” abidəsinin qarşısına gül dəstələri düzürük. Ulu öndər Heydər Əliyevin xatirəsini yad edirik. Allah o kişiyə qəni-qəni rəhmət eləsin. Əsl igid adam, nüfuzlu general idi. Azərbaycanı ağ günə çıxardı. Allah oğlunun, nəvələrinin üzünü həmişə ağ eləsin!

Prezidentimiz bizə xüsusi diqqət yetirir, qayğımıza qalır. Qəhrəman oğullarımızın xatirəsinin əbədiləşdirilməsi üçün Ulu öndərin başladığı işləri Prezidentimiz necə sadiqliklə, diqqətlə həyata keçirir. Halal olsun Ali Baş Komandanımıza! Mən ölkəmizin qocaman sakinlərindən biri, oddan-alovdan çıxmış müharibə veteranı kimi ona da əminəm ki, inşallah, Qarabağ məsələsi də sülh yolu ilə həllini tapar. Ermənilər bu yolla razılaşmasalar, qoy onda özlərindən küssünlər!

Beləcə, söhbətimiz xeyli uzandı. Gündəlik mətbuatı izlədiyi, əvvəlki illərdəki kimi televiziya və radio verlişlərini diqqətlə dinlədiyi aydınca duyulurdu.

– Deyirəm, a bala, yamanca azalırıq ha... Siz sağ olun, cavanlar uzun yaşasın, Allah körpələrə qıymasın. Qafqazdan Berlinədək olan uzun, əzablı yollarda 420 min azərbaycanlı öz canından keçmədimi? Keçdilər, özü də igidliklər, qəhrəmanlıqlar göstərdilər. Davaya Azərbaycandan gedənlərin 142-si Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. General Həzi Aslanov bu adı iki dəfə qazandı. Qəhrəman adı alanların hamısı haqq dünyasındadır. “Şöhrət” ordeninin 3 dərəcəsinə layiq görülmüş Muradəli Heydərov sağdır, hazırda Zərdabda yaşayır. Bir dəfə Bakıda Həzi Aslanovun qəbrini ziyarət edəndə görüşmüşük, çox ləyaqətli insandır.

Ertəsi gün səhər çayı süfrəsi ətrafında da söhbətimiz son dərəcə maraqlı keçdi. Əlini üzbəüzədək dağlara sarı uzadıb, köksünü ötürdü: “O yamaclara el arasında “Qaş” deyirlər. Elə rayonun bir zamanlar daşıdığı Qutqaşın (Qutqaşen) adı da “qaş”, “Qurd qaşı” mənasını verir” – dedi. Sonra ağsaqqal türk totemləri, qədim yer-yurd adları barədə düşüncə və qənaətlərini əsl tarixçilər kimi şövqlə sadaladı:

– Bax, a bala, bu kəndin özündə, həndəvərində nə qədər qədim türk adları, ünvanları var: Qurd dərəsi, Qurdlu bulaq, Borçalı dərəsi, Qazan dərəsi, Çanaqbulaq, Muğanlı, Pirəhmədli, Kotanlı, Kosalar, Palantökən, daha nə bilim nələr, nələ. Hələ sal daşlardan salınan Alban qəbirlərini, üç yüz-dörd yüz yaşı olan xan çinarları demirəm. İndi bizim yaşadığımız kəndin də adı əslində Kürd deyil, deyilənə görə, Qurdlardır. Ruslar sənədləşmədə “Kurt” yazıblar. Amma əsl türk oylağının yer-yurd adları tamam başqa şey deyir axı...

Əslən Ərəş mahalından, Ağdaşdan, anası isə Qarabağdan olan, amma tapındığı bu yerlərə sıx bağlanan ağsaqqalın dəmir məntiqinə inanmamaq olmur. Sonralar bu barədə özümün də çıxardığım nəticələrlə bağlı Akademik Teymur Bünyadovla telefon söhbətimiz oldu. Görkəmli alim bütün bunlar barədə elmi axtarışların zəruriliyini dilə gətirdi. Hər halda, mülahizə və təxminlərə geniş spektrdə işıq salan tapılar və qədim yurd yerlərimizdən birinin əsl adı da özünə qayıdar.

...Həmişəki kimi tez qayıtmağıma görə heç bir etiraz bildirmədi. “İş-güc adamısan, nə vaxt istəyirsən qayıt” dedi. Rəngi-başı xeyli açılmışdı. Şifonerdən yaxası medalla bəzənmiş pencəyini də çıxarıb geyindi. “Arıqlasam da, əynimə yaxşı oturur” dedi:

– Yaxşı yol olsun sənə. Salamlarımı evdə, işdə hamıya çatdır. Dostlarına de ki, Qəbələyə yolları düşəndə mütləq qonağım olsunlar, çayımı içsinlər. Vaxtları çox olsa, hələ onlarla bir nərd də oynayaram. Yaddan çıxarmayın ki, bir vaxtlar – 41-45 arası bizə “birincilər”, qvardiyaçılar deyərdilər. İndi isə yenidən doğulmuşların sonuncularıyıq...

2011-ci ilin martında “sonuncular”ın doğma insanı ilə sağollaşıb, əllərini möhkəm-möhkəm sıxıb mayın 9-da görüşmək arzusu ilə ondan ayrıldım. Yolboyu bircə onu fikirləşirdim ki, ömründə özü haqqında mətbuatda yazı verilməsinə, televiziyada, radioda adının çəkilməsinə imkan verməyən, taleyindən daim razı qalan və heç kimdən giley-güzar etməyən atam bu yazını, görəsən, necə qarşılıyacaq?!

Sonda bildirim ki, İsmayıl Müzəffər oğlu 2012-ci il dekabırın 4-də 89 yaşında haqq dünyasına qovuşdu. Artıq 6 ildir ki, atamın da, haqq dünyasında olan döyüş yoldaşlarının da ruhu Vətənimizin bütövlüyü sarıdan rahatdır. İkinci Dünya müharibəsində və Qarabağ uğrunda canlarından keçən igid oğul və qızlarımızın məkanı cənnət olsun!

***Akif CABBARLI,***
***yazıçı-jurnalist***



**Sovet dövründə “Böyük Vətən müharibəsi” adlanan cahan savaşından başlayandan 1 il 1 ay əvvəl doğulmuşam. 5 yaşıma həyatın acıları və sonda qələbə sevinci ilə çatmışam. Müharibə və ondan sonrakı çətin həyat bizim nəslin uşaqığını əlimizdən alıb. Biz faşizmə nifrət anlayışı ilə böyümüş, onu bəşəri od-alova çevirənləri daim lənətləmişik.**

Çox təəssüf ki, xalqımız 1945-ci ilin 9 May Qələbəsindən 43 il sonra 33 il davam etmiş erməni faşizminin də fəlakətlərini yaşamalı oldu. İndi bizim öz “9 May”ımız – “2020-ci ilin 8 Noyabrı” var. Faşistlərin isə almanına da lənət, ermənisinə də. Alman faşizmi üzərində Qələbənin 81-ci ildönümü günündə bu qəhvəyi bəlanın bir amansız səhifəsi – Xatın faciəsi barədə söz açmaqla insanlığa qarşı amansızlığın bu növünün kökünün birdəfəlik kəsilməsi arzumu ifadə edirəm.

1990-cı il mayın 16-da 50 yaşım tamam olacaqdı. Mayın 12-dən 26-dək “Azərbaycan” turist qatarı ilə, Bakıdan çıxıb, Kiyev,



# Faşizmin Xatından Xocalıya uzanmış qanlı caynağı



Minsk, Xatın, Brest, Vilnüs, Kaunas, Kalininqrad, Svetloqorsk, Riqa, Yurmala, Tallin, Leninqrad və Rostovda səfərdə oldum. 50 yaşını isə Minskdə, Xatında keçirməli oldum. Saat 11-də Minskə çatdıq. Qatarımız şəhərdən bir az aralıda, bizim üçün ayrılmış Jdanoviçi stansiyasında dayandı. Mən ilk dəfə idi ki, Belarus torpağına ayaq basırdım, onun paytaxtı Minskə gəlmişdim.

Saat ll:35-də bizi gözləyən avtobuslara əyləşib, şəhərlə tanışlığa başladıq. Müharibə nəticəsində alman-faşistləri Minskin mənzil fondunun 74 faizini dağıtmışdılar. Onların hamısı müharibədən sonra yenidən bərpa edilmiş, yeni yaşayış rayonları salınmışdı.

Şəhərlə tanışlığı başa çatdırıb, alman faşistlərinin sakinlərilə birlikdə yandırdıqları kəndə – Xatına yollananda 40 turistdən 37-si avtobusdan düşüb alış-verişə üz tutdu. İçəridə sürücü ilə bələdçi xanım, bir də məndən başqa 2 nəfər qaldı. Fikirləşdim ki, Xatını və xatınlıları diri-diri yandıran faşistlərlə avtobusdan düşüb gedənlərin nə fərqi oldu?

3 nəfər turistdən ötəri bu böyüklükdə avtobusu elə uzaq bir yol – Xatına sürməyəcəkdilər ki. Bizi düşürüb başqa avtobusla yola saldılar. Dünya faciəsinin nümunəsi sayılan Xatına yola düşdük. Bu yol birbaşa Vitebsk şəhərinə gedib çıxırdı. 59 kilometr gedəndən sonra sağa – Xatına burulacaqdıq. Bələdçinin verdiyi kədərli məlumatlara qulaq asa-asa, xəyalən 49 il əvvələ qayıtmışdım... Bu da 59-cu kilometr. Beton dirəyin üzərində, beton “hərflərlə” yazılmış Xatın sözünü oxuyub, onun yanından sağa buruluruq.

Xatına çatıb avtobusdan yerə düşdük. Ömrümdə ilk dəfə idi ki, heç bircə sakini olmayan kənd görürdüm. Kəndin yeri, həyətləri, su quyuları qalırdı, sakinləri yox idi. Bəlkə harasa köçmüşdülər, yerlərini dəyişmişdilər. Hara gedib bu kəndin 149 sakini, hanı onların 26 evi. Yox, onlar heç hara köçməyiblər. 1943-cü il martın 22-də faşistlər bu 26 evi də, bu evlərin 149 sakinini də (149-un 75-i uşaq olub) vəhşicəsinə yandırıblar. Bu da onların yandırıldıqları böyük “soba”...

Ömrümdə ilk dəfə idi ki, quduzlaşmış “insanların” dinc insanlartı diri-diri yandırdıqları sobanı görürdüm... Viran qalmış həyətlərdəki beton sütunlarda yandırılanların “siyahısı” həkk olunmuşdu. Elə ev olub ki, onun bir, eləsinin 4-5, bəzən də ondan da çox sakini olub. Uşaqların yaşları da göstərilib. Onlardan biri: Aleksandr Romanoviç Navitski və Aleksandra Navitskayanın özlərinin və 7 övladının: 15 yaşlı Lenyanın, 13 yaşlı Jenyanın, 11 yaşlı Manyanın, 9 yaşlı Anyanın, 5 yaşlı Kostyanın, 4 yaşlı Antosun və 2 yaşlı Mişanın diri-diri sobaya atılaraq yandırılmasıdır. Bu faciə qurbanlarının ən kiçikləri olan Antos məndən bir yaş böyük, Mişa isə bir yaş kiçik olub. İndi dursaydılar, Antosun 51, Mişanın isə 49 yaşı olacaqdı...

1969-cu il iyulun 5-də, alman-faşistlərinin tamamilə məhv etdikləri Belarus kəndləri əhalisinin xatirəsinə yaradılmış “Xatının harayı”, “Kəndlər qəbiristanı”, “Xatının tüstüləri”, “Xatirə meydanı”, “Yenilməz insan” və sair memarlıq-heykəltəraşlıq nümunələrindən ibarət Xatın memarlıq-heykəltəraşlıq xatirə kompleksinin açılışı oldu. O vaxtdan bəri - 21 il ərzində buranı 26 milyondan çox insan ziyarət edib. Deməli, biz də 27 milyonuncu ziyarətçilərin arasında olmuşuq.

Xatından yadigar olaraq, Minskin “Belarus” nəşriyyatı tərəfindən: belarus, rus, ingilis, fransız, alman və ispan dillərində çap olunmuş “Xatın” kitabçasını aldım. Onun əvvəlində yazmışam: “Bu kitabçanı 16 may 1990-cı ildə 50 yaşım tamam olan günü Xatında olarkən almışam”.

Dünyanın altı dillərində verilmiş Xatın faciəsi haqqında məlumatların hər biri iki səhifədə verilməklə, sonu belə bitir: “Xatında hər kəs olmalıdır. Xatını hər kəs görməlidir. Xatını hər kəs yadında saxlamalıdır!”.

Mən də Xatında oldum, onu gördüm, onu nəinki yadımda saxladım, hətta onun faciəsini yazıb, öz kitablarımda verdim.

“Kitab-albom”dakı fotoşəkillərə baxıram: iki səhifə birlikdə ağcaqayın meşəsi, “xatirə kompleksi”nin bir tərəfində açmış çobanyastığı (“romaşka”) talası, sünbülləri “adamboyu” qalxmağına az qalan, biçinçisini gözləyən taxıl zəmisi, beton sütunun “zirvəsində” qoyulmuş, neçə dəqiqədənsə bir ətürpərdici səs çıxaran “Xatın zəngi”, 47 ildir ki, içərisinə vedrə sallanmayan su quyusu, sağ əlində fotoaparat, sol əlində şlyapasını tutmuş, fikrə getmiş, görkəmindən yapona oxşayan gənc xanım, valideynlərilə birlikdə dayanıb qəmə-qüssəyə batmış 7–8 yaşlarında uşaq və sair şəkillər adama nələr demir...




Gördüyüm bu dəhşət doğuran Xatın faciəsinə oxşar faciələr, insanlığa qənim kəsilmək, bir-birinin ardınca, bizdə – Azərbaycanda da baş verdi. Onlardan birincisi - Xatın faciəsindən 47 il keçəndən sonra 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda, bir çoxu isə Qarabağda törədildi.

20 Yanvar faciəsindən 2 il sonra, 1992-ci il fevralın 25-dən 26-na keçən gecədə ermənilər rus qoşunlarının köməyilə Xocalı əhalisini vəhşicəsinə qırıb, yaralayıb və əsir götürdülər... Südəmər körpədən tutmuş ağsaqqala kimi, qız-gəlindən tutmuş ağbirçək anaya kimi...

Xatın faciəsini bəşəriyyətin düşməninə çevrilmiş alman faşistləri, Azərbaycandakı faciələri isə xalqımıza qənim kəsilmiş ermənilər xaç qardaşlarının təhriki və himayəsi ilə başımıza gətirdilər.

Faşizmin hər rənginə, hər növünə, ən kiçik təzahürünə belə lənət olsun!

***Hacı Niftalı ŞIXLAR,***
***coğrafiya elmləri namizədi,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Heydər Əliyev fenomeni: siyasi portretin miqyası və şəxsiyyətin missiyası

**(əvvəli qəzetin 7 və 8 may 2026-cı il tarixli saylarında)**



Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin mübarizəsinin və ideallarının zirvəsi ölkəmizdə dövlət müstəqilliyinin qazanılmasından ibarətdir. Ulu öndər ən müxtəlif münasibətlərdə öz nitqlərində müstəqil dövlətçiliyin qurulmasını Azərbaycan xalqının tarixi nailiyyəti olduğunu qeyd etmiş, dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsini ən vacib məsələ kimi qarşıya qoymuşdur. Lakin çox təəssüf ki, XX əsrin doxsanıncı illərinin başlanğıcında hakimiyyətə gəlmiş Əbülfəz Elçibəy və Ayaz Mütəllibov Azərbaycan Respublikasının ərazi bütövlüyünü, ictimai-siyasi sabitliyi qoruyub saxlaya bilməmişlər. Erməninin təcavüzü nəticəsində Qarabağda və ətraf rayonlarda Azərbaycan torpaqlarının 20 faizi işğal edilmiş, Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmuşlar. Nəticədə, 1 milyona yaxın Azərbaycan əhalisi məcburi köçkün və qaçqın kimi Bakı şəhərinə və Azərbaycanın rayonlarına səpələnməli olmuşlar. Çox təəssüf ki, Birləşmiş Millətlər Təşkilatının Ermənistan hərbi birləşmələrinin Qarabağda Azərbaycan ərazilərindən çıxması haqqındakı qətnamələri yerinə yetirilməmiş şəkildə qalmışdır. Beləliklə, respublikada ciddi hərbi-iqtisadi böhran yaranmış, ictimai-siyasi sabitlik pozulmuşdur. Bir-birini əvəz edən AXCP-Müsavat cütlüyünün "rəhbərləri" və Ayaz Mütəllibov Azərbaycan Respublikasını düşdüyü bu ağır vəziyyətdən çıxarmaq imkanlarına və səriştəsinə malik deyildilər. Belə bir çətin, hərtərəfli böhran şəraitində Azərbaycan xalqının dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən çıxara biləcək yeganə qüvvə görkəmli dövlət xadimi, böyük siyasi təcrübəyə malik olan Heydər Əliyev idi.

Azərbaycanın tanınmış ziyalıları 1991-1992-ci illərdə Bakıdan Naxçıvana gələrək, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevlə görüşmüş, onun xalq və dövlət naminə, müstəqil dövlətçiliyin itirilmək təhlükəsindən xilas edilməsi üçün yenidən siyasi hakimiyyətə qayıtmasını xahiş etmişlər. Yüksək dövlət vəzifəsi tutmaq niyyətində olmadığını bildirən Heydər Əliyev hər dəfə bu təklifləri qəbul etməmişdir. Lakin Qarabağda və ətraf rayonlarda Azərbaycan torpaqlarının itirilməsinin davam etdirilməsi, Azərbaycanın müstəqil dövlətçiliyinin real təhlükə ilə üz-üzə qalması Ulu öndərin Yeni Azərbaycan Partiyasını yaratmağa razılıq verməsinə səbəb olmuşdur. Azərbaycanın 91 nəfər tanınmış ziyalılarının 16 oktyabr 1991-ci il tarixdə "Səs" qəzetində çap etdirdiyi "Azərbaycan sizin sözünüzü gözləyir" adlı müraciətinə Heydər Əliyev "Yeni müstəqil Azərbaycan uğrunda" adlı məqaləsi ilə müsbət cavab vermişdir.

"Azərbaycan Sizin yolunuzu gözləyir" adlı məqalədə ölkənin tanınmış ziyalıları siyasi və elmi cəhətdən əsaslandırılmış şəkildə qazanılmış dövlət müstəqilliyinin itirilməməsi naminə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasının zəruri olduğunu bəyan edirdilər: "Mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir... Dünənə kimi küçə və meydanlarda demokratiyadan danışanlar demokratiyanın nə demək olduğunu dərk etmirlər. Rəhbərliyin siyasi naşılığından, idarəetmə səriştəsizliyindən, hakimiyyət hərisliyindən həm daxildən, həm də xaricdən müəyyən qüvvələr öz mənafeləri üçün istifadə edirlər... Respublikanın olan-qalan iqtisadi potensialı dağılır, təbii sərvətlərimiz talan olunur. Gələcəyə ümidsizlikdən yüzlərlə ziyalı, yüksəkixtisaslı kadrlar ölkəni tərk edirlər. Siyasi partiyalar arasında, sözün əsl mənasında, geniş xalq kütlələrinin dərin inam və etimadını qazanmış, öz ətrafında müxtəlif zümrələrdən adamları birləşdirə biləcək, beynəlxalq və respublika həyatının bütün sahələrindən tam və yetkin məlumatlı olan güclü lider yoxdur. "Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq versəniz, Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Görkəmli dövlət xadimi Heydər Əliyev respublikada yaranmış ağır vəziyyəti, xüsusən dövlət müstəqilliyinin itirilmə təhlükəsinin olduğunu nəzərə alaraq, 6 noyabr 1992-ci il tarixdə "Səs" qəzetində çap edilmiş "Yeni müstəqil Azərbaycan uğrunda" adlı məqaləsində müstəqil dövlətçilik naminə belə bir partiyanın işində iştirak etməyə hazır olduğunu bildirmişdir: "Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı problemlərinə biganə olmağa heç kəsin haqqı yoxdur. Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya, siyasi və plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurtdən doğur.

Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək, yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə bir partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram".

Beləliklə, 21 noyabr 1992-ci ildə Heydər Əliyevin sədrliyi ilə Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirilmişdir. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilmiş təsis qurultayında Yeni Azərbaycan Partiyasının yaradıldığı elan edilmiş, partiyanın Proqramı və Nizamnaməsi qəbul olunmuş və ən başlıcası görkəmli dövlət xadimi Heydər Əliyev açıq səsvermə yolu ilə bu siyasi partiyanın sədri seçilmişdir. Bu hadisə müstəqillik dövründə Azərbaycan cəmiyyətində böyük dəyişikliklərin başlanğıcı olmuşdur. Doğrudan da "Yeni Azərbaycan Partiyasının əbədiyaşar ideoloqu Heydər Əliyevin yaratdığı partiya zamanın bütün keşməkeşlərindən şərəflə çıxaraq özünün xalqa bağlılığını, dününün, bugünün və sabahın partiyası olduğunu təsdiq etmişdir".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə yaratdığı əlaqələrdə Naxçıvanın erməni işğalından xilas edilməsində və sosial iqtisadi inkişafında mühüm rol oynamışdır. Muxtar respublikanın rəhbəri kimi Heydər Əliyev Türkiyə və İrana səfərlər etmiş, danışıqlar aparmış, müvafiq sənədlər imzalamışdır. Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin 28 may 1992-ci il tarixdə Naxçıvana gəlməsi beynəlxalq əhəmiyyətə malik mühüm tarixi hadisə idi. Həmin gün Naxçıvan MR-in Sədərək kəndində Naxçıvanla Türkiyə arasında salınmış "Ümid körpüsü"nün açılışı olmuş və bu münasibətlə körpünün üstündə keçirilmiş izdihamlı mitinqdə Süleyman Dəmirəl və Heydər Əliyev tarixi nitq söyləmişlər.

Ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 16 dekabr 1992-ci il tarixdə imzaladığı "Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis edilməsi haqqında"kı sərəncamı da mühüm siyasi-tarixi əhəmiyyətə malik olan hadisədir. Məhz bu tarixi sərəncamla ölkəmizdə dünya azərbaycanlıları anlayışı təkrar formalaşmış və böyük hərəkata çevrilmişdir.

Fəaliyyətinin bütün dövrlərində Azərbaycan ziyalılığının inkişafına böyük dəstək vermiş Heydər Əliyev həyatının Naxçıvan mərhələsində də elm, təhsil və mədəniyyətin tərəqqisi naminə əhəmiyyətli addımlar atmışdır. Azərbaycan ədəbiyyatının romantik korifeyi Hüseyn Cavidin 110 illik yubileyinin Naxçıvanda təntənə ilə qeyd olunması, yerli yazıçıların dram əsərlərinin Naxçıvan teatrında tamaşaya qoyulması, elm, ədəbiyyat və incəsənət xadimləri ilə keçirdiyi görüşlər, "Şərq qapısı" qəzetinin fəaliyyətinə dəstək verilməsi Ulu öndərin cəmiyyətin inkişafında ziyalı faktorunun inkişaf etdirilməsinə göstərdiyi diqqət və qayğının ifadəsi idi. Görkəmli dövlət xadimi Heydər Əliyevin 1992-ci ildə iki dəfə Naxçıvan Dövlət Universitetində olması, professor-müəllim heyəti və tələbələrlə keçirdiyi görüşlər muxtar respublikada müstəqillik dövründə yeni ziyalı nəsillərinin formalaşdırılması sahəsində atdığı əhəmiyyətli addımlar idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin 11 oktyabr 1992-ci ildə Naxçıvan Dövlət Universitetində "Bazar iqtisadiyyatına keçid şəraitində iqtisadi əlaqələrin və sərhədyanı ticarətin təşkili" mövzusunda keçirilmiş beynəlxalq elmi konfransda iştirakı və dərin məzmunlu nitq söyləməsi regionda bazar iqtisadiyyatının keçid dövrünün siyasi-iqtisadi əsaslarının və strategiyasının bəyanatına çevrilmişdir. Bundan başqa, ulu öndər Heydər Əliyevin 12 noyabr 1992-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin 25 illiyinə həsr edilmiş yubiley mərasimində iştirak etməsi və müstəqillik dövründə ölkəmizin elm və təhsil siyasətinin əsas istiqamətləri və vəzifələri haqqında böyük uzaqgörənliyin ifadəsi olan praqmatik məzmunlu nitqlə çıxış etməsi geniş mənada yeni tarixi mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında bu sahədəki həlli zəruri olan problemlərin cəmiyyətin diqqətinə çatdırılmasına xidmət etmişdir.

Heydər Əliyevin yubiley mərasimində səsləndirdiyi aşağıdakı fikirlər Naxçıvan Dövlət Universitetinin timsalında yeni müstəqillik qazanmış Azərbaycanıda ali təhsil sahəsinin yenidən qurulmasının əsas istiqamətlərini diqqət mərkəzinə çəkməyə çağırışın ifadəsi idi: "İndi Azərbaycan bir müstəqil dövlət kimi dünyanın hər bir ölkəsi ilə müstəqil əlaqə yaratmağa və bu əlaqələrdən öz ölkəsinin, öz dövlətinin gələcək inkişafı üçün istifadə etməyə malik olan bir dövlətdir. Bu baxımdan Naxçıvan Dövlət Universiteti indi sərbəst bir ali məktəbdir. Onun Azərbaycanın bütün ali məktəbləri ilə əlaqələri inkişaf etdirməyə daha da əlverişli şəraiti var və eyni zamanda, dünyanın bütün ölkələri ilə, orada olan ali məktəblərlə, elm mərkəzləri ilə... əlaqə saxlamağa imkanları vardır. Çox yaxşı işhaldır ki, artıq bu barədə müəyyən addımlar atılıb, qonşu İran İslam Respublikası, Türkiyə Cümhuriyyətinin ali təhsil ocaqları ilə, elmi mərkəzləri ilə Naxçıvan Dövlət Universiteti arasında müəyyən əlaqələr yaranıb və bu gün Naxçıvan Dövlət Universitetinin bu yubiley mərasimində İran İslam Respublikasının və Türkiyə Cümhuriyyətinin ali məktəblərinin iştirakı buna sübutdur. Sizi əmin edə bilərəm ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabineti bu sahədə Naxçıvan Dövlət Universitetinin fəaliyyətinə lazımi köməklik edəcək və lazım olan şəraiti yaradacaqdır.

...Bizim tövsiyələrimiz ondan ibarət olacaqdır ki, siz müstəqil Azərbaycanın və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında daha da fəal iştirak edəsiniz və öz işinizi yeni tələblər üzərində qurasınız!"

Bütövlükdə, Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü həm Ulu öndərin tərcümeyi-halında və həm də Azərbaycanın siyasi inkişafında xüsusi yer tutur. Həqiqətən də, "Müdrik siyasi xadimin Naxçıvanda yaşayıb-işlədiyi dövrdə qəbul etdiyi dövlət əhəmiyyətli və cəsarətli qərarlar, həyata keçirdiyi islahatlar Azərbaycanda milli dövlətçiliyin möhkəmləndirilməsi baxımından mühüm siyasi və tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərdiyi dövrdə bütün Azərbaycan xalqı və Vətən üçün taleyüklü məsələlərdə daim qətiyyətlilik nümayiş etdirmişdir".

XX əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycanda iqtidarda olan AXCP-Müsavat hakimiyyəti səriştəsiz və təcrübəsiz insanlardan təşkil olunduğu üçün, ölkəni idarə etmək qabiliyyətində ola bilməmişdir. Ölkədə nüfuzu ilə heç vaxt seçilməmiş Ayaz Mütəllibovun və ümumiyyətlə, dövlətçilik təcrübəsi olmayan Əbülfəz Elçibəyin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1991-1993-cü illərdə ölkəmizdə cəmiyyət həyatının bütün sahələrində dərin böhran vəziyyəti yaranmışdır. Hətta gənc Azərbaycan Respublikası dövlətçiliyi itirilmək təhlükəsi ilə üz-üzə qalmışdır. 1993-cü il may ayının əvvəllərində Surət Hüseynovun himayəsində olan ordu birləşmələri və onun tərəfdarları üsyan qaldıraraq, Gəncə şəhərində və ətraf ərazilərdəki bəzi dövlət orqanlarını ələ keçirmişlər. Ölkə vətəndaş müharibəsi təhlükəsi vəziyyətində idi. Belə bir məsuliyyətli və ağır dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Azərbaycan Respublikasının o zamankı rəhbərləri tərəfindən dövlət vəzifəsi tutmaq üçün Bakı şəhərinə dəvət olunmuşdur. Eyni zamanda, Azərbaycan xalqı, həm Bakı şəhərində, həm də bir çox rayonlarda mitinqlər keçirərək, Heydər Əliyevin paytaxta gəlib, ölkəmizi yaranmış çətin və mürəkkəb vəziyyətdən qurtarmasını təkidlə tələb edirdi. Böyük təcrübəyə malik olan Heydər Əliyev baş vermiş qiyam nəticəsində dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən xilas edilməsi naminə 9 iyun 2013-cü il tarixdə xalqın tələbi ilə Bakıya gəlmişdir. O, yaranmış hərbi-siyasi vəziyyətlə yerində tanış olmaq üçün çətin şəraitdə əvvəlcə qiyamın baş verdiyi Gəncə bölgəsinə getmiş, orada zəruri danışıqlar apardıqdan sonra Azərbaycan Respublikasının Milli Məclisində çıxış edərək əsl həqiqət və çıxış yolları haqqında Azərbaycan xalqına məlumat vermişdir. Mövcud iqtidarın rəhbərləri istefaya getdiklərini elan etmişlər.

Görkəmli dövlət xadimi Heydər Əliyev 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçilmişdir. Heydər Əliyevin həmin gün Azərbaycan Parlamentindəki nitqində ölkəmizin dövlət müstəqilliyinin qoruyub saxlanılması və inkişaf etdirilməsi haqqında aşağıdakı qətiyyətli bəyanatlar səsləndirilmişdir: "Ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, Azərbaycan Respublikası müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətlərin əsarəti altına düşməyəcəkdir".

Cəmi bir neçə gün sonra, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy Bakı şəhərini tərk edərək təyyarə ilə Naxçıvana uçmuş, oradan da doğulduğu Kələki kəndinə getmişdir. Heydər Əliyev 24 iyun 1993-cü il tarixdən etibarən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini də həyata keçirməyə başlamışdır. Azərbaycan Respublikasının Milli Məclisinin "Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında Ümumxalq Səsvermənin (Referendumun) keçirilməsi haqqında"kı 29 iyul 2013-cü il tarixli qərarına əsasən bir ay sonra, 29 avqust 1993-cü ildə keçirilmiş referendumda vəzifəsini tərk etmiş prezidentə etimad göstərilməməsinə səs verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini yerinə yetirən Heydər Əliyevin həyata keçirdiyi qətiyyətli tədbirlər nəticəsində ölkəmizin cənub bölgəsində süni surətdə elan edilmiş "talış-muğan respublikası" tərkisilah edilərək ləğv olunmuşdur. İctimai-siyasi sabitliyin bərpa edilməsi, iqtisadi böhranın aradan qaldırılması üçün dövlət səviyyəsində zəruri tədbirlər həyata keçirilmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin 21 sentyabr 1993-cü il tarixdə Azərbaycan Elmlər Akademiyasında ölkə ziyalıları ilə keçirdiyi görüş, apardığı müzakirə və səsləndirdiyi bəyanatlar respublikada ictimai-siyasi böhranın aradan qaldırılmasına ümid və inam yaratmış, beyin axınının qarşısını almış, akademiyanın gələcək inkişafı ilə əlaqədar narahatlıqları aradan qaldırmışdır. Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, elm xadimlərindən Şəfayət Mehdiyev, Mahmud İsmayılov, Yaqub Mahmudov, Maqsud Cavadzadə, tanınmış incəsənət adamlarından Həsənağa Turabov, Fərhad Xəlilov, Amaliya Pənahova çıxış edərək görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən böyük siyasətə və dövlət idarəetməsinə qayıdışının müstəqil dövlətimizin, xalqımızın taleyi üçün zəruri olduğunu əsaslandırmışlar. Azərbaycan xalqı 3 oktyabr 1993-cü il tarixdə keçirilmiş Prezident seçkisində görkəmli dövlət xadimi Heydər Əliyevə yekdilliklə səs vermişdir. Beləliklə, müstəqil Azərbaycan dövlətinin inkişafında yeni tarixi epoxa başlanmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illər müstəqil dövlətimizin itirilmək təhlükəsindən xilas edilməsi, vətəndaş müharibəsinin qarşısının alınması, ictimai-siyasi sabitliyin bərpa olunması, ölkəmizin hərbi-iqtisadi böhrandan çıxarılması və gələcək inkişafın möhkəm təməllərinin atılması dövrüdür.

Ümummilli lider Heydər Əliyevin prezidentlik dövrünün ən mühüm hadisələri aşağıdakılardan ibarətdir:

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin başçısı kimi 8-11 fevral 1994-cü il tarixlərində ilk rəsmi səfərini Türkiyə Cümhuriyyətinə etmişdir. Bu, Azərbaycan Respublikasının dövlətlərarası münasibətlərdə Türkiyə Cümhuriyyəti və Türk dünyası ilə əlaqələri ön mövqeyə çəkməsinin əyani göstəricisi idi.

**(ardı var)**

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti, akademik***

# Onun yandırdığı ocaq



**İndi hamının yaxşı tanıdığı o məkan vaxtilə düzənlik olub. Həm də çox keçmişlərdə deyil, elə ondoqquzuncu yüzilin sonlarında, lap iyirminci əsrin əvvəllərində də.**

Köhnə fotolar qalır – ora futbol meydanıdır, sonraların məşhur "Neftçi"si oyunlarını orada keçirir. Ayrı bir zaman gəldi, həmin geniş boşluqda 1940-cı illərdə Hökumət evi tikildi, o sarayın qarşısında dövrün rəmzlərindən olan Lenin heykəli ucaldı. Zəmanə o abidəni də yıxdı, onminlərlə insanın hər il bir neçə dəfə hökmən səliqəli sıralarla axın-axın keçdiyi o meydana o heykəllə yapışmış adı da apardı. El özü həmin birzamankı boş əraziyə təzə ad qoydu: Azadlıq meydanı.

İllər boyu yüz minlərlə, milyonlarla azərbaycanlı bu meydandan adlamışdı. Onillər boyu neçə rəhbər o kürsülərdən yüz minlərlə, milyonlarla azərbaycanlıya üz tutaraq "Vətən" demişdi, "Xalq" demişdi, "Azərbaycan" demişdi. O hündür kürsüdən bu millətə – yüz minlərlə, milyonlarla azərbaycanlıya Heydər Əliyev də üz tutaraq "Vətən" dedi, "Xalq" dedi, "Azərbaycan" dedi. Amma heç kəsin dilində "Vətən" sözü, "Xalq" sözü, "Azərbaycan" sözü Heydər Əliyevin dilində olduğu qədər inamla səslənmədi. Azərbaycan xalqı ürəkli xalqdır. Ürəkli, yəni duyğulu, həssas. Ürəkli, yəni cəsur, mərd. Heydər Əliyev xalqı kimi idi. Heydər Əliyev "Azərbaycan" deyəndə, Heydər Əliyev "Xalq" deyəndə, Heydər Əliyev "Vətən" deyəndə o kəlmənin içərisinə ürəyini qoyurdu. Ona görə onun dilindən qopan "Vətən" sözü də, onun dilindən qopan "Xalq" sözü də, onun dilindən qopan "Azərbaycan" sözü də hər bir azərbaycanlının ürəyində əks-səda verirdi. Heydər Əliyev ömrü boyu bu xalqın dilini sevdi. Heydər Əliyev ömrü boyu bu xalqın mədəniyyətini, adətlərini, ənənələrini sevdi. Heydər Əliyev ömrü boyu bu xalqın üzərində yaşadığı torpağı sevdi. Bu torpağın üstündə ömür sürən hər bir vətəndaşı sevdi. Heydər Əliyev çox vəzifələr daşıdı, ömrü boyu çox peşələr öyrəndi. Amma öyrəndiyi bütün peşələr də, daşıdığı bütün vəzifələr də əslində onun həyatının mənası olan ali bir vəzifənin fərqli təzahürləri, başqa çalarları, ayrı görüntüləri idi. Həmin ali vəzifənin adı: Azərbaycançı!

Heydər Əliyev Yol Adamı idi. Ömrü boyu çox yollardan keçdi. Çox yolların da ilk keçəni özü oldu, o yolları özü açdı. Amma ilk dəfə açdığı yollar da, addımladığı onacan keçilmiş yollar da hamısı bütövlükdə onun həyatının mənası olan böyük bir yola qovuşurdu, həmin yolun hissələri idi. Bu böyük yolun adı: Azərbaycançılıq.

Heydər Əliyev varlığıyla, uca şəxsiyyəti ilə dünya boyu səpilmiş azərbaycanlılardan bütöv millət xəritəsini qurmağa qadir bir müstəsna şəxsiyyət idi. Bəstəkar Faiq Sücəddinovla 20 il öncə yazdığımız bir nəğmə elə həmin həqiqətin ifadəsi idi.

***Hara getsən, ana dilim bir quş olub ora uçar.***
***Harda olsan, qəlbindədir ulu Vətən, doğma diyar.***
***Hara getsən, ürəyində bu milləti daşıyırsan,***
***Harda olsan, bir can kimi səninlədir Azərbaycan.***

***Harda varsa bircə soydaş, orda vardır Azərbaycan!***
***Hər qitədən səsin gəlir, hər soydaşın yanındasan.***
***Ayrı düşmüş bu milləti bircə yol var qovuşduran:***
***Körpü sənsən, səndən keçib bütövləşər Azərbaycan.***

***Dünya boyu səpələnmiş əlli milyon bacı-qardaş,***
***Dəniz kimi ləpələnmiş əlli milyon sadiq sirdaş***
***Səni görür mayak kimi, səni sayır əziz ünvan.***
***Sənə baxır dayaq kimi, səni bilir arxa, hayan.***

***Birliyimiz təməlidir ən əbədi istiqlalın,***
***Birliyimiz bünövrəsi xoşbəxt, azad istiqbalın.***
***Sənə qismət – babaların röyasına həyat vermək,***
***Böyük Vətən xəritəsi qüdrətinlə çəkiləcək.***

Millət hafizəsində həmişəlik saxlamaq istədiyi övladlarını əbədiləşdirmək üçün onların adına küçələr verir, yollar verir. Heydər Əliyevin də adına Azərbaycanda da, Azərbaycandan uzaqlarda da küçələr, prospektlər, meydanlar, bağlar, xiyabanlar var. Bu gün var, gələcəkdə yeniləri də olacaq. Amma Heydər Əliyevə bağlı bir yol da var ki, onun adını daşıyan hava limanından başlanır. Hava limanından başlanan yol səmaya uzanır. Səmaya – demək, Sonsuzluğa. Heydər Əliyevin açdığı Azərbaycançılıq yolu da o yola bənzəyir. Sonsuza qədər uzanan bir yol, əbədiyyət üfüqlərinə baş alan yol. Millətimiz zaman-zaman bu şərəf yolundan keçəcək – böyük Heydər Əliyevdən yadigar qalan Azərbaycançılıq yolundan.

XX əsr yenicə bitmiş, XXI əsrin birinci onili təzətəzə yaşa dolurdu. Heydər Əliyevlə əbədi ayrılıqdan hələ cəmi dördcə il keçirdi. Hər biri Azərbaycanın böyük zəka sahibi, müəllim, ustad kimi tanıdığı üç görkəmli şəxsiyyətlə üz-üzə idim, bir axşam Heydər Əliyevi anırdıq, bu söhbətimizi bütün Azərbaycan görürdü və gələcəyin azərbaycanlılarına da həmin görüşdə söylənənlər yadigar qalsın deyə bütün bunlar yazılırdı – Azərbaycan Televiziyasının ekranındaydıq. İndi artıq özləri də xatirəyə dönmüş həmin üç hörmətli qonağımla birgə olduğumuz o anlar da xatirəyə iki saat uzunluqlu bir lentin yaddaşında Azərbaycan Televiziyasının xəzinəsində qalmaqdadır. Doktor Cavad Heyət, akademiklər Fuad Qasımzadə, Ağamusa Axundov. Hər üçü Azərbaycanın fəxri, hər üçü ömrü boyu Azərbaycana xidmət etmiş yurdçu, xalqçı insanlar. Özləri böyük müəllimlər olan bu şəxsiyyətlər ən misilsiz müəllim kimi baxdıqları Heydər Əliyevin Azərbaycançılığından bəhs edirdilər.

Böyük azərbaycanlı Heydər Əliyevdən millətimizə qalan miras zəngindir. Bu irsin içərisində hər zaman ehtiyac duyacağımız, daim bu millətə güc verəcək bir böyük amal da var: Azərbaycançılıq məfkurəsi. Bəlkə də həmin Azərbaycançılıq düşüncəsi və məfkurəsi Heydər Əliyevin bütün fəaliyyətinin, yolunun və ömrünün yekunudur. Bu məfkurənin millətimizə nə verdiyi, nə verəcəyi, dünya boyu səpilmiş xalqımızı qovuşdurmağa qadir hansı nadir güc olması haqda söhbətlərin heç vaxt sonu olmayacaq.

Konstitusiya Komissiyasının üzvü olan Fuad müəllim xatirəsini bölüşürdü: "İyulun 2-si idi, 1995-ci il. Adətən iyulun 1-dən biz universitetdə məzuniyyətə çıxırıq. Mən adətən yayı Kislovodska dincəlməyə gedirəm, ya da bağa köçürəm. Hələ ki nə onu, nə bunu etmişdim – şəhərdəki mənzilimdəydim. Televiziyada axşam saat 5 xəbərini izləyirdim. Gördüm elan etdilər ki, yeni Azərbaycan Konstitusiyasını hazırlamaq üçün komissiya yaradılıb, sədr Heydər Əliyev özüdür. Bir-iki dövlət xadiminin adını çəkəndən sonra keçdilər bir neçə alimin, hüquqşünasın, filosofun adı sadalandı və o sırada da mənim adım. Üç gün sonra bizi Konstitusiya Komissiyasının ilk iclasına topladılar və sonra başladıq tez-tez yığışmağa. Birinci görüşümüzdə əvvəl Heydər Əliyev özü geniş danışdı. Azərbaycanın yeni yaradılacaq Əsas Qanununu 20 dövlətin konstitusiyası ilə müqayisə, ardınca da təhlil elədi. İşin içərisində olan adam kimi təsdiqləyirəm: Yeni müstəqillik dövrü ilk Konstitusiyamızın banisi, əsas müəllifi odur. Başlıca qayəsi də bu idi ki, Əsas Qanunumuzda Azərbaycançılıq ideologiyasına, Azərbaycan məfkurəsinə, Azərbaycan Respublikasının müstəqil inkişafına, Azərbaycan xalqının yüksəlişlərinə kömək edən nə varsa, təməl olaraq əksini tapsın".

1990-cı illərin sonlarında mən Azərbaycanın ilk müstəqil universiteti olan "Xəzər"də departament müdiri işləyirdim. O arada Bakıda yeni fəaliyyətə başlamış, dünyanın 50 ölkəsində tədris aparan Amerika Universiteti məni dəvət etdi. Artıq bütün dünyaya şaxələnmiş həmin şəbəkə üçün də, elə respublikamızın elm-təhsil, ictimai düşüncə həyatından ötrü də tam yenilik olan bir işi mən Bakıdakı Amerika Universitetində ilk dəfə



Dördümüzün birgə olduğumuz axşamda filosof Fuad Qasımzadə Heydər Əliyevin memarı olduğu Azərbaycançılıq məfkurəsinin mahiyyətini açmaqçün onun şəxsiyyətinin təhlilindən başlamışdı. Deyirdi ki, siyasi aləm, siyasi ideologiya Ulu öndərin stixiyası idi. Elə bil ki, Allah ancaq onun üçün yaratmışdı Heydər Əliyevi. Ona görə də bütün siyasi xadimlərdən bir çox üstünlükləri ilə fərqlənirdi. Əli bəy Hüseynzadənin "Siyasət-i fürusət" adlı bir əsəri var. Siyasəti cıdır meydanına, siyasətçinin fəaliyyətini o meydanda at çapan süvariyə bənzədir. Adam var ki, o meydanda heç at minə bilmir, adam var ki, minir, amma birtəhər sürür. Heydər Əliyev sözün əsl mənasında siyasət cıdırında atını dördnala çapan misilsiz bir çapar, mahir siyasət süvarisi idi.

gerçəkləşdirdim. Orada respublikada birinci dəfə olaraq Azərbaycanşünaslıq kafedrası yaratdım və ölkə ziyalılığının ən seçkin simalarının iştirakı ilə hər ay müzakirəli mülahizələri davam edəcək Azərbaycançılıq lektoriyasını təşkil etdim. Ona görə də həmin axşam Fuad Qasımzadənin söhbəti mənə doğma olan bu səmtə yönəltməsi görüşümüzü əvvəldən-sonacan elə bu son dərəcə vacib xətt üzrə aparmağa sövq etdi.

Azərbaycançılıq Heydər Əliyevin görümündə nə idi? Bu məfkurəni müxtəlif yanaşmalardan qavrayanlar olub, yeniləri də olacaq. Azərbaycançılığı milli-mənəvi dəyərlər toplusu kimi şərh edənlər də var, buna millətimizin konsolidasiyasına xidmət edəcək bir qəlib kimi baxanlar da. Heydər Əliyevin miqyaslı baxışında Azərbaycançılıq deyilərkən ilk növbədə ağılda tutulan Azərbaycan dövlətinin özü idi. O, müasir Azərbaycan dövlətini bir mükəmməl müstəqil dövlət olaraq qurdu. Qadir peşəkar olaraq həmin dövlətin möhkəm bünövrəsini, sarsılmaz sütunlarını, dayaqlarını yaratdı, dövlət maşınının xırdadan tutmuş iriyədək bütün ümdə hissəciklərini, quruluşlarını şəkilləndirdi. Amma bununla bərabər, daha mühüm bir işi gördü – millət quruculuğu ilə məşğul oldu.

Millətin təfəkkürünə biçim vermək, milləti dünya millətləri içərisində, çağdaş xalqlar arasında uca məqama yetirmək, onu zəka, zövq, əməlçilik baxımından daha da yüksəltmək, kamilləşdirməkçün çalışdı. Bu səyləri də onun Azərbaycançılıq fəlsəfəsinin mahiyyətinə, özəyinə çevrildi.

O axşam Azərbaycançılıq, Heydər Əliyev ətrafında fikir mübadilələrimiz əsnasında akademik Fuad Qasımzadə sərrast bir müşahidəsini də bölüşərək demişdi ki, Azərbaycan XXI əsrə qədəm qoyanda, Üçüncü minillik başlananda Heydər Əliyev xalqa müraciətində 16 tarixi şəxsiyyətin adını çəkirdi. Onların da çoxu filosoflar, mütəfəkkirlər: Nizami, Tusi, Nəsimi, Füzuli, Mirzə Əli Möcüz, Sabir, Mirzə Cəlil, Cavid və digərləri. Heydər Əliyev onların hər birini sadəcə alim, şair, yazıçı deyil, mütəfəkkir adlandırırdı. Ən əvvəl diqqəti onların millət tarixindəki yerinə və izinə yönəldərək hər birini məhz ümumazərbaycan mahiyyətinə görə dəyərləndirirdi. Onları islahatçı, qurucu, yeni yol açan, məktəb yaradan adlandırırdı. Çünki o özü də o cür idi.

Bayrağımızın üç rəngi bizim qovuşan üç yolumuz, bir dövlət olaraq hər kəsə bəyan etdiyimiz məramımızdır. Heydər Əliyevin Azərbaycançılıq təlimi o üç ana yolun bünövrəsi üstündə yarandı. Söz yox, bu milləti millət edən ilk təməl kərpic ana dilimizdir. Və Heydər Əliyev dilimizi çox sevirdi. Əlbəttə, öz doğma dilinə məhəbbət hər insana əslində qanı ilə qismət olan bir keyfiyyətdir. Ancaq baxın o dildə kim necə danışır, onda həmin şəxsin dilə sayğı və istəyinin həddini də təsəvvür edəcəksiniz.

Azərbaycan dilini Heydər Əliyev qədər candan, şövqlə, dildən, hər sözündən bir ilham alaraq və sözün gücünü artıraraq danışan ikinci adam təsəvvür eləyə bilmirəm. Dilimizin necəliyi haqqında onun bu dəyərləndirməsi də bənzərsizdir. Digərləri kimi sadəcə şirin, gözəl, musiqili və başqa yıpranmış bənzətmələri işlətmirdi, Azərbaycan dili ləzzətli dildir söyləyirdi.

Azərbaycan Televiziyasının "Əbədiyyət" verilişindəki dəyirmi masamızda mən ana dilindən bəhs edincə görkəmli dilçi alimimiz akademik Ağamusa Axundov dərhal söhbətə qoşulmuşdu və Fuad Qasımzadə kimi, Konstitusiya Komissiyasının üzvü olduğunu xatırlatmış, həmin komissiyanın ən gərgin iclaslarından bir neçəsinin məhz dil məsələsinə həsr edildiyini söyləmiş və cibindən bir vərəq çıxarmışdı: "Mən bura gələndə həmin o adını çəkdiyim komissiyada Heydər Əliyevin çıxışından bir hissəni – onun dilə öz münasibətini aydın şəkildə ifadə etdiyi, yəni Heydər Əliyevin dil doktrinası adlandırıla biləcək bir parçanı sizə də necə var, o cür, dəqiqliyi ilə çatdırmaq üçün yazıb götürdüm. Bu çıxış 1995-ci il noyabrın 11-də olmuşdu. Deyirdi ki, "İndi biz dövlət dilimizdə sərbəst danışırıq və hər bir mürəkkəb fikri ifadə etməyə qadirik. Bu, böyük nailiyyətdir. Bu, iqtisadi və başqa nailiyyətlərin hamısından üstün bir nailiyyətdir ki, bizim bir millət kimi özümüzə məxsus dilimiz var və o da o qədər zəngindir ki, dünyanın hər bir hadisəsini biz öz dilimizdə ifadə eləyə bilərik".

Mənim yadıma gəlir, Fuad müəllim də yaxşı xatırlayar. Universitetin 50 illiyi keçirilirdi, 1969-cu ilin oktyabr ayında. O vaxt Heydər Əliyev üçüncü ay idi ki, Azərbaycanda rəhbərliyə gəlmişdi. Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibətilə yaradılmış yubiley komissiyasının sədri də o özü idi. Həmin iclası Azərbaycan dilində açdı və Azərbaycan dilində də çox yüksək, çox parlaq bir nitq söylədi. Və bu, zalda çox böyük həyəcanla, görünməmiş alqışlarla, həm də bir az təəccüblə qarşılandı. Çünki həmin yığıncaq beynəlxalq səviyyəli bir konfrans idi. Müttəfiq respublikalardan da, xarici ölkələrdən də qonaqlar vardı. O dövrdə isə nəinki belə tədbirlərin, ümumən bütün böyük iclasların rus dilində aparılması yazılmamış qayda idi. İndi isə belə geniş əhatəli, xarici qonaqların, dövlət və hökumət xadimlərinin qatıldığı iclası Azərbaycan dilində açmaq, Azərbaycan dilində nitq söyləmək, həm də bunu Mərkəzi Komitənin Birinci katibinin etməsi heyrətləndirici hadisə idi. Sonra neçə gün universitetdə gənclərin tənəffüslərdəki müzakirələri ancaq bu haqda idi. İndinin cavanlarına bütün bunlar qəribə gələr. O çağlarsa hətta iştirakçıların əksəriyyətinin ruscanı yaxşı bilmədiyi kənd təsərrüfatına həsr edilmiş yığıncaqlar belə rus dilində aparılırdı. Heydər Əliyevə xoş münasibəti olan, onu ürəkdən istəyənlər hətta bir az narahatlıq da keçirirdilər ki, görəsən, bunun xatası çıxmayacaq?

Fuad müəllim də bilir, o vaxt Kremlin göstərişi vardı ki, birinci katiblər mütləq rusca danışmalıydılar. Sovet ideologiyasının tüğyan elədiyi bir vaxtda, Mixail Suslovun qılıncının kəshakəs dövründə belə cəsarət eləmək böyük risk idi. Amma Heydər Əliyev qorxu üçün yaranmamışdı, o, qorxunu yox eləmək üçün vardı.

Həyatlarının böyük hissəsi sovet dönəmində ötmüş, həmin çağların bütün sıxıntılarını bilavasitə yaşamış akademiklər Fuad Qasımzadənin, Ağamusa Axundovun xatirələri əslində dövrün dil mənzərəsini aydın göstərən tarixi sənədlərdir. Bəli, 1969-cu ildə ayrı bir dil mühitinin, ayrı bir dil siyasətinin aparıldığı və azərbaycancanın, milli özünüifadənin təxminən yasağabənzər səviyyədə olduğu məqamda respublikada ali partiya vəzifəsinə yenicə başlayan Heydər Əliyev müəyyənləşdirilmiş siyasi ülgülərə rəğmən ana dilində danışırdı. Bununla da yalnız dilə deyil, həm də daha geniş ölçüdə milli təfəkkürün oyanışına xidmət edirdi. Amma dünya dəyişdi, Azərbaycan müstəqilliyini bərpa etdi, daha başımızın üstündəki kimlərdənsə dil asılılığımız qalmadı. Heydər Əliyevin böyüklüyü onda idi ki, bu dönəmdə də dilimizə xidmətdə, dilimizə qayğıda yenə qətiyyətli addımları ilə seçilməyi bacardı, dilimizi daha əngin və yüksək üfüqlərə ucaltdı.

*(ardı var)*

***Rafael HÜSEYNOV,***
***Milli Məclis sədrinin müavini, akademik***

# Qarabağ zəfərimizin təməlini yaratmış lider

### DTK sədri Heydər Əliyev Xankəndidə azərbaycanlılara qarşı sui-qəsdlərin qarşısını aldı

1967-ci ilin əvvəllərindən başlayaraq Dağlıq Qarabağda, xüsusilə də Xankəndi şəhərində erməni millətçilərinin torpaq iddialı məkrli niyyətləri daha qabarıq şəkildə özünü büruzə verirdi. Bölgədə yaşayan ermənilər havadarlarının planlarına uyğun olaraq milli ədavəti qızışdırır, planlarının həyata keçməsi üçün ən çirkin əməllərə əl atırdılar. Yay aylarında baş verən olaylar pik nöqtəsinə çatmışdı, nəzarət itirilmiş, hadisələr öz axarından çıxmışdı.

1967-ci ildə daha çox səs-küyə səbəb olan və Xankəndidə gərginliyi son həddə çatdıran hadisə isə Xocavənd rayonunda baş verir. Rayonun Qaradağlı kəndində azərbaycanlıların və ermənilərin birgə təhsil aldıqları orta məktəbdə bir erməni uşağı yoxa çıxır. Səhərisi gün vəhşicəsinə qətlə yetirilmiş uşağın meyiti yol kənarından tapılır. Bu hadisədən bir neçə gün sonra heç bir əsas olmadan həmin məktəbin direktoru Ərşad Məmmədovu və daha iki azərbaycanlı müəllimi həbs edirlər. Vilayət prokurorluğu işi Ali Məhkəməyə göndərir. Ali Məhkəmə isə işə Xankəndidə baxılması üçün qərar verir. Azərbaycan SSR Ali Məhkəməsinin üzvlərindən birinin sədrliyi ilə məhkəmə prosesi başlanır.

Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri general-mayor Heydər Əliyev də Xankəndiyə gəlir. Bakıdan və Moskvadan gələn dövlət məmurları, İttifaq miqyaslı hüquq-mühafizə orqanlarının ali rütbəli zabitləri Xankəndi şəhərində hər an təhlükə ilə üzləşmək ehtimalını nəzərə alaraq, Şuşada qalırdılar. Heydər Əliyev isə bütün təhlükələrə baxmayaraq, Dağlıq Qarabağa ezam olunduğu günlərdə Xankəndi şəhərində qalaraq xidməti vəzifəsini icra edirdi. Ən başlıcası isə o, bir azərbaycanlı kimi baş vermiş hadisələri araşdırmağı, millətçi ermənilərin cinayət əməllərini ifşa etməyi özünün ümdə borcu sayırdı…

Təcrübəli çekist, DTK kimi çətin bir orqanda tutduğu vəzifələrdən asılı olmayaraq hər zaman millətinin, xalqının tərəqqisinə xidmət edən Heydər Əliyev Xankəndidə baş vermiş cinayət hadisəsi ilə yaradılmış əməliyyat qrupuna rəhbərlik edərkən yaxşı bilirdi ki, söhbət adi bir cinayətin açılmasından deyil, xalqının, azərbaycanlıların şərəfindən gedir. Heydər Əliyev onu da bilirdi ki, Xankəndidə baş verən hadisələr Dağlıq Qarabağı Ermənistana birləşdirmək planının başlanğıc həlqəsi idi.

Həmin ağır günlərdə bütün azərbaycanlılar ədalətin bərqərar olması üçün Heydər Əliyevə ümid bəsləyirdilər. Heydər Əliyev isə bu ümidləri doğruldur. Onun peşəkarlığı, gərgin əməyi nəticəsində qısa müddət ərzində Xankəndi olaylarının səbəbləri açılır, cinayəti törədənlər, təşkil edənlər layiqli cəzalarını alır, 39 nəfər erməni canisi həbs edilir. Sübuta yetirilir ki, milli ədavəti yaratmaq üçün erməni məktəblisini vəhşicəsinə qətlə yetirən də Edik Baqdasaryan olub. Daha sonra o da məlum olur ki, Xankəndi olaylarının arxasında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsi durur.

Beləliklə, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri general Heydər Əliyevin çevikliyi, baş verən hadisələri düzgün qiymətləndirməsi və erməni millətçilərinin planlarını alt-üst etməsi hadisələrin qarşısını aldı. Heydər Əliyev, sözün əsl mənasında, erməni daşnakları üçün keçilməz maneəyə çevrildi.

Həmin ərəfədə hadisələrə rəvac verənlərdən biri də Dağlıq Qarabağ Muxtar vilayətinin birinci katibi Qurgen Melkumyan olub. Təbii ki, Heydər Əliyev Melkumyanın bu cür millətçi mövqeyini unutmayıb. Sonralar, 1973-cü il noyabrın 14-də Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi olduğu dövrdə Xankəndi şəhərinə səfər edəndə öz qətiyyətini nümayiş etdirib və elə həmin il də Melkumyan öz vəzifəsini itirib.

Sonralar Heydər Əliyev müsahibələrində həmin səfəri haqqında fikirlərini belə bildirib: "…Mən Dağlıq Qarabağ Muxtar Vilayətinin əhalisi ilə dəfələrlə görüşmüşəm, vilayətin bütün rayonlarında olmuşam, ermənilərlə də çox söhbət etmişəm. Bir faktı xatırladım. Dağlıq Qarabağ Muxtar Vilayətinin 50 illik yubileyi idi, vilayət "Xalqlar dostluğu" ordeni ilə təltif olunurdu. Oradakı çıxışımdakı bəzi məqamları erməni millətçiləri indi də mənə bağışlaya bilmirlər. Mən bəzi əhval-ruhiyyələri hiss edərək demişdim ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycanın ayrılmaz hissəsidir və ayrılmaz hissəsi olaraq qalacaq…"



**Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı, bacılarımızı, qardaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır.**

***Heydər ƏLİYEV,***
***ümummilli lider***

### Heydər Əliyevin vətənpərvərliyi və qətiyyəti ermənilərin anti-Azərbaycan siyasətinə sipər çəkdi

Heydər Əliyev 1967-ci il iyun ayının 26-da Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundova məktubunda bildirirdi ki, iyun ayının 23-dən 24-nə keçən gecə Xankəndidə bəzi küçələrdə erməni dilində 8x9 sm ölçüdə 300 vərəqə yayılmışdı. Həmin vərəqələrdə ermənilər tərəfindən Dağlıq Qarabağın Ermənistan SSR-yə birləşdirilməsi tələb edilir və xalqımıza qarşı mənfur fikirlər irəli sürülürdü. Məktubda qeyd edilirdi ki, vərəqənin müəlliflərini axtarıb tapmaq, eləcə də digər lazımi tədbirləri görmək üçün Xankəndiyə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışlar. Həmin ildə təkcə Dağlıq Qarabağda 1200-dən artıq belə vərəqə hazırlanıb yayılmışdı. Qısa müddət ərzində belə vərəqələri hazırlayanlardan 13 nəfər, yayanlardan isə 17 nəfər saxlanılmışdı.

Heydər Əliyevin 1967-ci ilin yekunlarına dair SSRİ DTK-ya göndərdiyi hesabatda Ermənistan SSR-də fəaliyyət göstərən millətçi qüvvələrin Dağlıq Qarabağdakı təxribat fəaliyyətinə dair konkret faktlar öz əksini tapıb. DTK-nın arxivindəki bu sənəddə sovet rəhbərliyinə məlumat verilir ki, son beş ildə Qarabağla heç bir əlaqəsi olmayan millətçi ermənilər mütəmadi muxtar vilayətə səfərlər edir, buraya Ermənistan SSR-də hazırlanan və millətçi çağırışlar əks olunan vərəqələr gətirir, şər və təxribat xarakterli fikirlərlə yanaşı, Qarabağın yaxın vaxtlarda Ermənistana birləşdiriləcəyi barədə təbliğat aparır, yerli ermənilərin bu istiqamətdə müraciətləri hazırlanır və imzaları toplanılır, Ermənistanda tarixin saxtalaşdırılması istiqamətində işlər görülür, bu istiqamətdə əsərlərin yazılması və dərsliklərə salınması təşkil olunur.

Heydər Əliyevin respublika DTK-sına rəhbərlik etdiyi dövrdə erməni millətçilərinin Azərbaycan əleyhinə təbliğat, təşviqat, təxribat, pozuculuq fəaliyyətinin məhdudlaşdırıldığı da arxiv sənədlərində öz əksini tapmışdı. Komitənin vilayət şöbəsinin rəisi polkovnik D.Bıstrovun məruzəsində qeyd edilir ki, verilmiş tapşırıqlarla əlaqədar keçirilmiş əməliyyat tədbirləri zamanı 1967-ci ilə nisbətən 1968-ci ildə milliyyətçi vərəqələrin hazırlanması və yayılması, eləcə də ermənilərin azərbaycanlılara qarşı hücumları kəskin azalmışdır. Keçirilən tədbirlər zamanı yenə millətçi qrupların aşkar edilərək ləğv olunduğu, onlardan çoxlu miqdarda vərəqələr və həmin vərəqələri hazırlamaq üçün lazım olan avadanlıqlar aşkar edilərək götürüldüyü bildirilirdi.

Respublika rəhbəri seçildikdən sonra ulu öndər Heydər Əliyev Qarabağda milli mənafelərin qorunması, dövlət təhlükəsizliyinin təmin edilməsi, Ermənistandakı millətçi dairələrin təxribatlarının qarşısının alınması istiqamətində məqsədyönlü və təsirli tədbirlər görürdü. O, Azərbaycanı gözləyən təhlükələri fitri istedadı ilə qabaqcadan görür, siyasi-ideoloji vasitələrdən, mövcud qanunvericiliyin imkanlarından məharətlə istifadə edərək bu təhlükələri vaxtında önləyə bilirdi.

Ermənistan, o cümlədən Azərbaycanla sərhəd olan bəzi əraziləri də ələ keçirmək istəyirdi. Moskvanın təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də Ermənistan SSR ilə sərhəd rayonlarının ərazilərindən 2 min hektardan çox torpağın Ermənistana verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul etdiyi qərarı təsdiq etdi.

Ulu öndər Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan SSR-in rəhbəri seçilən kimi dərhal bu məsələni ön plana çəkdi və sözügedən qərarın icrasını dayandırdı. Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutan Heydər Əliyev, nə qədər təhlükəli olsa da, təzyiqlərə sinə gərərək, prinsipial mövqe göstərdi, erməni millətçilərinin qarşısını qətiyyətlə aldı. Moskvadakı bəzi qüvvələrin və Ermənistan rəhbərlərinin cəhdlərinə baxmayaraq, Heydər Əliyev həmin qərarın həyata keçirilməsinə imkan vermədi.

1973-cü ilin avqustunda Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi "erməni millətçiləri" adlı əməliyyat keçirərək "Daşnaksütyun" təşkilatı ilə bağlı olan bir qrup şəxsi həbs etdi.

1977-ci ildə SSRİ Konstitusiyası və 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən ermənilər yenidən fəallaşaraq, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı iddialar qaldırdılar, Moskvaya, SSRİ mərkəzi orqanlarına kütləvi ərizələrlə müraciət etməyə başladılar. 1977-ci il noyabrın 23-də keçmiş SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin iclasında Ermənistan SSR rəhbərliyinin təkidi ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistan SSR-yə birləşdirilməsi məsələsi müzakirə olunmuş və bununla bağlı təklif irəli sürülmüşdü. Məsələdən xəbər tutan Heydər Əliyev ermənilərin bu cəhdlərinin qarşısını almaq üçün qəti addımlar atmışdı. Bu məqsədlə Heydər Əliyevin tapşırığı ilə elmi arayış hazırlanmış, sonra bu sənəd Azərbaycan KP MK Siyasi Bürosunda müzakirə edilərək Ermənistan SSR rəhbərliyinin iddialarının əsassız olması haqqında qərar qəbul edilmiş və həmin qərar SSRİ rəhbəri L.Brejnevə təqdim olunmuşdu.

Qərarda qeyd edilirdi ki, DQMV-nin yaradılmasından keçən 50 ildə vilayətin çoxsahəli sənayesi yaradılmış, kənd təsərrüfatı inkişaf etdirilmişdir. Sənaye istehsalı artmış, elektroenergetika, mədən sənayesi, ayaqqabı istehsalı və digər yeni sahələr yaradılmışdır. Kolxoz və sovxozların müasir texnika ilə təchizat səviyyəsi yüksəlmiş, əhalinin güzəranının yaxşılaşdırılması istiqamətində müsbət addımlar atılmışdır.

Qərarda həmçinin, sonrakı illərdə də vilayətin sosial-iqtisadi inkişafı ilə bağlı konkret tapşırıqlar müəyyən olunmuşdu.

Bu dövrdə Şuşanın İttifaq miqyaslı kurort mərkəzinə çevrilməsi barədə qərar qəbul olundu. Şuşada Cıdır meydanında böyük Azərbaycan şairi Molla Pənah Vaqifin böyük məqbərəsi ucaldıldı. Heydər Əliyev məqbərənin açılışı münasibətilə keçirilən tarixi tədbirdə çıxış etdi. Yuxarıda adıçəkilən qərar və Mərkəzi Komitənin, Nazirlər Sovetinin müəyyən etdiyi əlavə tədbirlərin reallaşması nəticəsində vilayətin sosial-iqtisadi göstəriciləri yaxşılaşırdı. Qeyd edim ki, vilayətin inkişafının əsas göstəriciləri respublikamız və Ermənistanın müvafiq göstəricilərindən yüksək idi.

O dövrdə Dağlıq Qarabağda olan vəziyyətin yaratdığı narahatlıq doğuran məsələlərdən biri azərbaycanlı əhalinin bölgəni tərk etməsi idi. Bunu nəzərə alan Heydər Əliyevin həyata keçirdiyi tədbirlərlə Dağlıq Qarabağın azərbaycanlılar yaşayan məntəqələrinin siması xeyli dəyişdi. Heydər Əliyevin göstərişi ilə Xankəndidə Pedaqoji İnstitut açıldı və orada Azərbaycan bölməsi yaradıldı. Bu, azərbaycanlı ziyalıların daimi iş yeri ilə təmin olunmasına, Qarabağda yeni elmi-mədəni mühitin formalaşmasına, azərbaycanlı əhalinin ali təhsil almasına və doğma yerlərə daha sıx bağlanmasına əlverişli şərait yaradan olduqca mühüm addım idi.

Ermənilərin əzəli Azərbaycan torpaqlarına çox yaxın tarixdə köçürüldüyünü onların özlərinin əli ilə əbədiləşdirmək ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi nəticəsində mümkün olmuşdu. Belə ki, Dağlıq Qarabağ erməniləri 1978-ci ildə əvvəlki Mardakert - indiki Ağdərə rayonunun Marağa kəndində ucaltdıqları abidə ilə bu torpaqlara 150 il əvvəl gəldiklərini təsdiqləmişlər.

Torpaqlarımızın azad edilməsinə hesablanmış hazırlıq işləri dahi strateq Heydər Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyən etdiyi siyasi kursun uğurlu davamının məntiqi nəticəsi idi.

1991-ci ilin sonlarında SSRİ-nin dağılması ilə keçmiş sovet məkanında yeni geosiyasi şərait yarandı. Buna qədər Ermənistan Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına nail olmaq üçün SSRİ-nin dağılmasından sonra, faktiki olaraq, Azərbaycana qarşı açıq və elan edilməmiş müharibəyə başladı. Əvvəlcə Dağlıq Qarabağın azərbaycanlı yaşayış məskənlərini işğal etdi. 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndləri işğal olundu, dinc və silahsız əhaliyə divan tutuldu, Xocalı və Şuşanın mühasirə məngənəsi daraldı.

Erməni və sovet hərbi birləşmələri fevralın ortalarında Xocavəndin Qaradağlı kəndini ələ keçirdilər və burada Qarabağ müharibəsi dövrünün ilk soyqırımı cinayəti törədildi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə müasir tarixin ən faciəli hadisələrindən biri - Xocalı soyqırımı baş verdi.

1992-ci ilin mayında erməni hərbi birləşmələri Şuşanı işğal etdilər. 1992-ci ilin may ayında Laçını da işğal edən düşmən Ermənistandan Qarabağa gedən strateji yollara nəzarəti ələ keçirdi. Beləliklə, Azərbaycanın digər rayonlarının işğalı üçün münbit şərait formalaşdı.

1993-cü ilin aprelində isə Kəlbəcər işğal olundu. Bununla da ermənilər Dağlıq Qarabağın Ermənistanla tam coğrafi birləşməsinə nail oldular.

1993-cü ilin iyun ayında Azərbaycanda siyasi böhran artıq pik həddə çatmışdı. Xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə gəldiyi vaxt artıq ordu dağılmış, Ermənistanın öz işğalçılıq planlarını daha sürətlə həyata keçirə bilməsi üçün əlverişli zəmin yaranmışdı.

Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də əhalinin təkidli tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi. Ümummilli liderin ilk gündən başlayaraq atdığı addımlar, həyata keçirdiyi tədbirlər Naxçıvanı düşmən əlinə keçmək təhlükəsindən xilas etdi.

1992-ci ilin may ayı Azərbaycanın, eləcə də Naxçıvan MR-in müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü təşkil edirdi. Ermənilər yaranmış şəraitdən istifadə edərək, Naxçıvana qarşı məkrli planlarını da həyata keçirməyə çalışır, sərhəd kəndlərinə təcavüzlər edirdilər. Bu amansız təcavüz bir neçə gün davam etmiş, yalnız ulu öndər Heydər Əliyevin gərgin siyasi, diplomatik səyləri nəticəsində onun qarşısını almaq mümkün olmuşdu. Dahi rəhbərin uzaqgörən və düşünülmüş siyasəti təpədən-dırnağadək silahlanmış erməni yaraqlılarının məkrli planlarını alt-üst etdi. Həmin günlərdə Ali Məclis sədrinin yorulmaq bilmədən gecəli-gündüzlü apardığı siyasət öz bəhrəsini verdi. O, xarici dövlətlərin başçılarına, beynəlxalq qurumlara, dünya ictimaiyyətinə müraciət edərək, Ermənistanın Azərbaycan torpaqlarına, eləcə də Naxçıvana hərbi təcavüzü barədə məlumat vermiş, bu təcavüzü dayandırmaq üçün əməli tədbirlər görülməsini tələb etmişdi. Naxçıvan üçün son dərəcə ağır bir zamanda qardaş Türkiyənin birmənalı mövqeyi Ermənistana öz təcavüzkar niyyətlərini həyata keçirməyə mane oldu. 1992-ci il may ayının 18-də Türkiyənin Baş naziri Süleyman Dəmirəlin sədrliyi ilə Türkiyənin Nazirlər Kabineti iclas keçirərək Ermənistanın Naxçıvana təcavüzü ilə bağlı bəyanat verdi. Məhz o dövrdə dahi siyasətçinin səyləri nəticəsində dünya ictimaiyyətində düzgün, obyektiv təsəvvür yaradıldı və Ermənistanın təcavüzkar mövqeyi ifşa edildi. 57 dövlət Ermənistanın təcavüzkarlığını pisləmiş, NATO isə bu barədə xüsusi bəyanat yaymışdı. Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri də Naxçıvana gələrək döyüş bölgəsinə, Sədərəyə baş çəkmişdi, həlak olmuş naxçıvanlıların cəsədləri onların vasitəçiliyi ilə ermənilərdən geri alınmışdı.

1992-ci il iyulun 25-də Ali Məclisin Rəyasət Heyətinin iclasında Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin yenidən təşkil olunması və onun bazasında Azərbaycan Müdafiə Nazirliyinin tərkibində müvafiq hərbi strukturun yaradılması zəruri hesab edildi. İki gündən sonra, iyulun 22-də 75-ci sovet diviziyasının əmlakının, silah-sursatının Azərbaycan Milli Ordusuna təhvil verilməsi prosesinə başlanıldı və bu proses avqust ayının 15-də başa çatdırıldı. Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin və təhvil alınan 75-ci diviziyanın hərbi hissələrinin bazasında Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvanda 5-ci əlahiddə motoatıcı briqadası yaradıldı. 1992-ci il avqustun 18-də keçmiş Sovet Ordusunun 75-ci diviziyasının şəxsi heyətinin son dəstəsi Naxçıvanı tərk etdi.

1992-ci il iyul ayının 28-də Naxçıvan MR Ali Məclisinin təklifi ilə Azərbaycan Sərhəd Qoşunlarının Naxçıvanda 1-ci sərhəd qoşunları dəstəsi yaradıldı. Həmin il sentyabrın 29-da Naxçıvan şəhərində Naxçıvan MR Ali Məclisi və Nazirlər Kabineti rəhbərliyinin, Rusiya Sərhəd Qoşunları Baş İdarəsinin və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsi nümayəndələrinin iştirakı ilə 41-ci sərhəd dəstəsinin ləğv olunması və onun funksiyalarının, bütün hərbi və təsərrüfat əmlakının yeni yaradılan 1-ci sərhəd dəstəsinə verilməsi haqqında sənədlər imzalandı. Bununla da Azərbaycan ilə qonşu dövlətlər – İran və Türkiyə arasında Naxçıvan ərazisindəki 215 km-lik dövlət sərhədinin mühafizəsi Azərbaycan Sərhəd Qoşunları tərəfindən həyata keçirilməyə başladı. Bütün sərhəd məntəqələrində və sərhəd dəstəsi qərargahının üzərində Azərbaycanın dövlət bayraqları qaldırıldı.

Bir sözlə, Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvanda müdafiə və hərbi quruculuq sahəsində həyata keçirilmiş tədbirlər bölgənin düşmən əlinə keçməsinin qarşısını aldı, sabitlik və əmin-amanlığın möhkəm təməlini qoydu. Tale Naxçıvanı, Dağlıq Qarabağı və Azərbaycanın digər bölgələrini gözləyən acı qismətdən Heydər Əliyevi bu regiona göndərməklə hifz etdi.

***(ardı var)***

***Ziyad SƏMƏDZADƏ,***
***Milli Məclisin deputatı, akademik***

# Zaman, məkan və tarixi şəxsiyyət

**Tarix bəşəriyyətin təkamül prosesində şəxsiyyətin və liderin nə kimi mühüm rol oynadığının şahididir. Həmçinin insan şəxsiyyətinin xalqın düşüncə tərzinə hansı səviyyədə təsir göstərə biləcəyinə dair nümunələr də mövcuddur. Bəzən tarixi şəxsiyyətin ictimai şüura təsirinin böyüklüyü sivilizasiyanın dönüşü ilə də nəticələnib. Tarixi şəxsiyyətlərin və əsl liderlərin təsirinin çox güclü olması belə əsaslandırılır ki, onlar xalqın şüurunda olan rasional düşüncə və qayələri qabardaraq aşkara çıxarır, dövrünün dumanlı şəkildə dərk edilən ideyalarını aydın, səlis ifadə etməklə yaxşı nəticələrə gətirən epoxanın ideyasına çevirir. Uğurlu nəticələr isə ideya müəlliflərinə həmişə haqq qazandırır.**

İmperiyaların süqutundan sonra baş verən proseslər yeni milli liderlərin meydana çıxması ilə də tarixdə xatırlanır. Məsələn, Birinci Dünya müharibəsində Osmanlı imperiyasının hərbi məğlubiyyətinə baxmayaraq, Atatürk militaristlərə qarşı hərb başlatdı və türklər yaşayan ərazidə yeni bir dövlət – Cümhuriyyət yaratdı. Hərblə başlatdığı işi quruculuqla başa çatdıra bilmək şansını da reallaşdırdı. Fransa müqavimət hərəkatının qəhrəmanı Şarl De Qoll və b. bu qəbildəndir.

## Tarixi şəxsiyyət – bu, həmişə imkandır

Tarix heç də həmişə baş verən hadisələr deyil, həm də milli-ictimai şanslar, imkanlar tarixidir. Tarixi şansın və tarixi şəxsiyyətin vəhdətdə varlığı isə ölkənin gələcəyindən nikbin ruhda danışmağa əsas verir. Bu məqamda demək yerinə düşər ki, yüz faizli şkalada xalqımızın həmişə ehtiyatda qüsursuz Aristotel məntiqi ilə 101-ci imkanı olub. Bu imkan xalqı öz arxasınca aparmağı, dövlətçiliyi ümumxalq işinə çevirərək, onu qorumağı bacaran şəxsiyyətin, praktik siyasətçi-diplomatın, ölkənin iqtisadi inkişafını təmin edə bilən qurucu rəhbərin varlığıdır. Belə böyük tarixi şəxsiyyətləri isə ancaq böyük xalqlar yetişdirə bilər. Bəşəriyyətin inkişaf mərhələlərinə nəzər yetirsək, buna layiqli nümunələrin olduğunu yəqin edərik. Eyni zamanda, cəmiyyətlərin müasir inkişaf səviyyəsinə gəlməsində ictimai islahatlar, siyasi-iqtisadi, mədəni-mənəvi inkişaf strategiyasının varlığı, quruculuq işləri xüsusi əhəmiyyətə malikdir.

1991-ci ildə taleyin xalqımıza bəxş etdiyi əlverişli tarixi şərait və imkan qəsdən və ya səriştəsizlik ucbatından itirilmək təhlükəsi ilə üz-üzə qaldığı bir zamanda, bu tarixi şans hələ tam əldən getməmiş, onu reallaşdıra biləcək həqiqi rəhbərə, öndərə, imkansızlıqda da imkan axtaran, sanki mümkün olmayanı mümkün etməyi bacaran tarixi şəxsiyyət Heydər Əliyev dühasına çox böyük ehtiyac var idi.

Ötən əsrin 80-ci illərinin ortalarında keçmiş İttifaq miqyasında durğunluq tendensiyasından xilas olmaq üçün axtarışlar getdiyi bir zamanda Heydər Əliyev fenomeni elə böyük miqyas kəsb etmişdi ki, SSRİ kimi super gücə malik ölkəni ən yaxşı idarə edə biləcək şəxsin məhz Heydər Əliyev olması bir an məsələsi idi. Bu bir tərəfdən İttifaq məkanında türk xalqlarının sosial-iqtisadi, intellektual və mədəni-mənəvi inkişafının yüksək səviyyəyə qalxması, onların nümayəndələrinin Siyasi Büroya üzv seçilməsi idisə, digər tərəfdən ovaxtkı ən məşhur siyasi xadimlərin etirafları idi. Bu barədə əvvəlki məqalələrimizdə ətraflı qeyd etmişik *(Вах: Ан. Громыко, Анд. Громыко, "В лабиринтах Кремля. Воспоминания и размышления сына". Москва, 1997 və Л.И.Абалкин, "Не использованный шанс: Полтора года в правительстве" – Москва, 1991).*

Lakin imperialist şovinizm həmin dövrdə görkəmli dövlət adamı Heydər Əliyevin SSRİ rəhbəri olmasına imkan vermədi. Halbuki, milli dili və mədəniyyəti ilə yanaşı, həmçinin rus və digər xalqların dilini və mədəniyyətini qiymətləndirməyi bacaran, öz ana dilində və rus dilində ən mahir natiqlərdən biri kimi tanınan, rejimin xüsusiyyətlərinə dərindən bələd olan, nəzəri hazırlığı, əməli fəaliyyəti, ekstraordinar qərarları və unikal şəxsi keyfiyyətləri ilə Siyasi Büroda hamıdan fərqlənməklə yüksəkdə dayanan ən nüfuzlu rəhbərlərdən idi. Məhz bu istisnalara görə tarixi şəxsiyyət Heydər Əliyevi təcili SSRİ rəhbərliyindən uzaqlaşdırdılar və qazandığı nüfuzundan da məhrum etmək üçün mərkəzdə planlar işlənib hazırlandı, kampaniya başladıldı. Ölkəmizdə də bu kampaniyaya bilərəkdən qoşulan satqınlar və əqidəsizlər, mahiyyətini anlamadan qoşulanlar isə sadəlövhlər oldular. Bütünlükdə xalqımız, onun ziyalı elitası isə bu siyasi oyunların əsl mahiyyətindən qismən xəbərdar olsa da, görkəmli tarixi şəxsiyyət Heydər Əliyevə olan sevgisi və onunla fəxr etməsi bu böyük dövlət adamının ictimai-siyasi arenadan tam çəkilməsinə imkan vermədi. Çünki görkəmli tarixi şəxsiyyətlərin ictimai-siyasi arenadan çəkilməsi həmişə böyük boşluq yaradır, cəmiyyətin özünə gəlməsi uzun müddət tələb edir. Ölkəmizin başına gələn bəlalar da məhz o dövrdə (1988-1993) oldu.

Məhz belə bir vaxtda xalqın təkidli tələbi ilə öz böyük oğlu, tarixi şəxsiyyət yenidən siyasət meydanına qayıtdı. Kütləyə çevrilən xalq yenidən dirçəldi, özünə gəldi. Çünki xalq kütləsi öz həqiqi lideri, öndəri ilə birləşəndə, istiqamətləndiriləndə xalqa çevrilir.

Şəxsiyyətin tarixdə rolu haqqında çoxlu mübahisələr və fikirlər mövcuddur. Ancaq bəlli olan odur ki, tarixi şəxsiyyətin olmaması ucbatından necə imkanlardan istifadə olunmayıb, nə qədər imkanlar gerçəkləşməyib. 1989-1990-cı illərdə SSRİ Nazirlər Sovetinin sədri N.Rıjkov hökumətində yer alan akademik L.İ.Abalkin öz kitabında real imkanlardan istifadə edə bilməmələrini acı təəssüf hissi ilə qeyd edirdi: "...Keçilən yol haqqında fikirləşərkən daha çox inanırsan ki, həqiqətən belə bir imkan vardı... Bəs nə üçün həmin imkanlardan istifadə olunmadı?.." Müəllif bir sıra səbəblər qeyd edərək mənəvi təskinliklə özünü sakitləşdirməyə çalışaraq yazır: "Özümün doğruluğumu hiss edir, seçilmiş mövqeyin düzgünlüyünə inanıram. Bu, mənəvi təskinlik verir, özümü sakitləşdirirəm ki, xalq nə vaxtsa bizim doğruluğumuzu başa düşəcək və tarix öz hökmünü verəcək..."

Lakin müəllifin özünə ünvanladığı sualın cavabı çox konkretdir: Həmin dövrdə SSRİ rəhbərliyində mövcud imkanlardan istifadə edərək təkcə iqtisadi deyil, siyasi sahədə də yaranmış problemləri həll etməklə cəmiyyəti parçalanmadan, ölkəni isə böhrandan xilas edəcək Heydər Əliyev səviyyəsində tarixi şəxsiyyət yox idi. Əbəs yerə deyilməyib ki, "Tarixi şəxsiyyət – bu, həmişə imkandır". Buna görə də imperiyanın süqutu labüd oldu.



## İllüziyalar sindromu

Keçmiş İttifaqın dağılması ilə bir sıra etnik münaqişələr mərkəz tərəfindən yenidən alovlandırıldı. Əvvəllər gözəl səslənən, bəşəriyyətə və planetar duyğulara xidmət etməli olan "milli birlik", "millət", "milli mədəniyyət", "milli həmrəylik", "xalqlar birliyi" və s. kimi yüksək məfhumlar ekzotik həzzalma, iftixaretmə qrupundan çıxaraq kriminal münasibətlər müstəvisinə daxil olmaqla fəlakətlərə, dağıntılara, irimiqyaslı münaqişələrə, intəhasız işgəncələrə və nəhayətdə, insanların tələfatına səbəb oldu. Bunu doğuran əsas səbəblərdən biri hazırda da davam edən yeni "dünya hərc-mərcliyi"dir. Bu səbəbdən də son dövrlərin siyasət tarixi diplomatiya tarixindən daha çox müharibələr tarixi olmuşdur.

Digər səbəb isə etnik qrupların, azsaylı xalqların "böyük millətçilik" illüziyalarıdır. Qeyd edək ki, son illərdə dünyada baş verən millətlərarası problem heç də nadir hal deyil və ilk təzahürləri ötən əsrin 60-70-ci illərində Qərbin sənaye cəhətdən inkişaf etmiş bölgələrində də – Korsika (Fransa), Kvebek (Kanada), Kataloniya (İspaniya), Flamandriya (Belçika), Şimali İrlandiya (Böyük Britaniya) və s. baş verib. Belə münaqişələrdə ilk vaxtlar regionun sosial-iqtisadi amilləri və iqtisadi geriliyi ilə bağlı tezislər səsləndirilsə də, sonradan bunların hamısının müstəqilliklə əlaqəsi bəlli olurdu.

Ulu öndər Heydər Əliyevin Kremldən ayrılmasından dərhal sonra, 1987-ci ilin sonlarında erməni V.Hambarsumyanın "Humanite" qəzetinə verdiyi müsahibədə də bənzər tezislər əsas yer alırdı. Yaranmış fürsətdən məharətlə istifadə edilərək daşnak ermənilərin "böyük millətçilik" illüziyası sindromu, keçmiş İttifaq rəhbərliyinin ermənipərəst mövqeyi və ovaxtkı Azərbaycan hakimiyyətinin tam acizliyi, səriştəsizliyi sayəsində "Dağlıq Qarabağ" kartı ortaya atıldı. Xalq öz narazılığını ifadə etməklə milli qürur, milli oyanış hissləri ilə nümayişlərə çıxdı, izdihamlar küçələri, meydanları bürüdü. Yaranmış vəziyyətdən bütövlükdə konstruktiv çıxış yolunu görməyən xalq etiraz səsini ucaltdı. Həmin dövrdə mərkəzin rəhbərliyi daxili satqınlarla separat əlaqələr qurdu, Bakının küçələrində müxtəlif dağıdıcı hərəkətlərə rəvac verərək xalqı qorxutmaq mövqeyini seçdi. Və dəhşətli 20 Yanvar qırğınını törətdilər. Bundan sonra Azərbaycanda imperiyaya sədaqətli, xalqa, Vətənə qarşı isə əzazil, zalım və zülmkar olan səriştəsizlərin, satqınların hakimiyyətə gətirilməsinə başlanıldı. Xalqın mənafeyi ilə imperiya siyasəti diametral əks qütblərdə dayandığı üçün xalq etiraz edir, hakimiyyət tez-tez dəyişdirilirdi.

## Xalqın layiqli cavabı

Xalqı və ölkəni xaosdan, dağıntılardan, düşürüldüyü fəlakətdən, iqtisadi və mədəni tənəzzüldən xilas edə biləcək yeganə şəxsiyyətin kim olduğunu yaxşı bilən imperiya rəhbərliyi tarixi şəxsiyyətin öz xalqı ilə birləşməsinə mane olur, onu izolyasiya edirdi. Lakin bunlar hamısı əbəs idi. Öz müdriklərini, ağsaqqallarını tanıyan, onun arxasınca getməyi bacaran xalqımıza güvənən, onun böyüklüyünə inanan ümummilli lider Heydər Əliyev o dövrdə demişdir: "Yaxın və uzaq tarix göstərir ki, bütün bu hücumlara, bütün bu təqiblərə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi". Xalqımız özünün əsl liderini ali hakimiyyətə dəvət etməklə bunu bir daha təsdiqlədi.

Ölkəmizdə onilliklər ərzində dövlətdə, dövlətçilikdə, iqtisadiyyatda, elmdə, təhsildə, həyatımızın bütün sahələrində böyük zəhmətlər hesabına əldə edilmiş nailiyyətlər, mədəni-mənəvi mühit, təsərrüfat sistemi dağılmaqdan xilas edildi. Bir sözlə, həyatımızdakı reqressiya və deqradasiya prosesləri dayandırıldı. Görkəmli dövlət adamı Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bu böyük tarixi sınaqdan da uğurla keçdi. Qurtuluş (1993), sabitləşmə (1993-1996), yeni inkişaf üçün potensial toplanması (1996-2000) mərhələlərini də layiqincə reallaşdıraraq müstəqillik erasına doğru ən qətiyyətli addımlar atmış oldu.

Heydər Əliyev ali hakimiyyətə qayıdanda nəinki hərbi, informasiya cəbhəsində də güc balansı Ermənistanın xeyrinə idi. Əsasən dini təəssübkeşlikdən qaynaqlanan siyasi simpatiyalar yönümündə onlar əlverişli vəziyyətdə idi. Yaranmış beynəlxalq ictimai rəyi dəyişmək, reallıqları dünyaya olduğu kimi çatdırmaq, böyük dövlətlərin mövqeyində haqq-ədalətə doğru dönüş yaratmaq çətin mümkün olanı mümkün etmək qədər uzun və gərgin mübarizə tələb edirdi. Bu mübarizənin önündə isə özünün zəngin siyasi təcrübəsi, dəqiq müəyyənləşdirilmiş ssenarisi ilə xaotik hadisələrin gedişini idarəolunan məcraya yönəltməyə, qeyri-adi intuisiyası ilə optimal istiqamət seçməyə qadir siyasi lider olmalı idi. Görkəmli ictimai-siyasi xadim Oljas Süleymenovun dedikləri bu fikirləri çox gözəl tamamlayır: *"Heydər Əliyevdə zəngin siyasi təcrübə, kəskin məntiq və tarixi prosesləri istiqamətləndirə bilmək istedadı var".*

## İqtisadi maraqlar və kor-koranə təəssübkeşlik

Məhz ulu öndər Heydər Əliyev fenomeninin sadaladığımız və sadalamadığımız keyfiyyət parametrləri sayəsində Azərbaycan haqqında həqiqətlər dünyaya çatdırıldı, regionda iqtisadi maraqların intensivliyi artırıldı, böyük dövlətlərdə formalaşmış dini təəssübkeşlik hissləri iqtisadi maraqlarla kompensasiya edildiyindən onlar kor-koranə ermənipərəstlikdən uzaqlaşdırılaraq iqtisadi mənfəətlər müstəvisinə dəvət edildi. Bununla da Azərbaycan həmin ölkələrin iqtisadi maraq dairəsinə daxil edildi və yerli iqtisadiyyata irihəcmli sərmayələrin qoyulmasına nail olundu. "Əsrin müqaviləsi", "Bakı-Tbilisi-Ceyhan" (BTC) layihəsi, "Böyük İpək Yolu"nun bərpası strategiyası və bu gün də davam edən digər neçə-neçə iri beynəlxalq neft-qaz kontraktları yüksək ideallara xidmət edən, bütün dövrlər üçün Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə və dönməzliyinin təmin olunmasına yönəldilmiş vahid strateji planın müxtəlif məqamlarıdır. Neft müqavilələrinin əhəmiyyətindən danışarkən cənab Prezident İlham Əliyev demişdir: *"Əsrin müqaviləsi" Azərbaycanda nəinki enerji sektorunun inkişafını, həm də regional əməkdaşlığın bütün gedişini müəyyənləşdirmişdir".*

Bəllidir ki, siyasi münasibətlərin öz labirintləri var və bu labirintlərdən məhz böyük siyasətçilərin, tarixi şəxsiyyətlərin köməyi ilə çıxıla bilər. "Əsrin müqaviləsi" və bu qəbildən olan digər kontraktlara irihəcmli layihələr kimi böyük kapital qoyuluşu lazım olduğundan tərəflərdən həm risk, həm də ciddi cəsarət və böyük məsuliyyət tələb edirdi. Çoxlarının risk etmədiyi, gözləmə mövqeyi seçdiyi halda çətinliklərə, təzyiqlərə baxmayaraq, Ulu öndər ciddi səyləri və məqsədyönlü siyasəti ilə müəllifi olduğu neft strategiyasına start verdi. Bu kontrakt təkcə Azərbaycan iqtisadiyyatının deyil, həm də beynəlxalq siyasətinin əsl möhtəşəm təntənəsi idi. Həmin imzalanmadan üç onillikdən artıq vaxt keçib. Yenə də illər ötəcək, bu uğurlu, müdrik addımın, dahiyanəliklə hazırlanmış, regionda sonrakı neft layihələrinin də reallaşmasına rəvac vermiş neft strategiyasının əhəmiyyəti daha çox hiss olunacaq.

Xəzərdə irimiqyaslı neft hasilatını nəzərdə tutan müqavilədən sonra hövzənin zəngin karbohidrogen ehtiyatlarını Avropa istehlakçılarına ən səmərəli istiqamətdə çatdıran əsas ixrac boru kəməri "Bakı-Tbilisi-Ceyhan"dır. Şərq-Qərb, Şimal-Cənub istiqamətlərinin kəsişməsində yerləşən Azərbaycan Avropa-Asiya sistemində iri qovşaq rolunu oynadığından BTC-nin rolu daha da aktuallaşıb. Avropa ilə Asiya arasındakı iqtisadi əlaqələrin perspektivlərindən və ixrac boru kəmərlərindən danışan Prezident İlham Əliyev demişdir: "İndi bütün dünya üçün aydındır və hamı bunu etiraf edir ki, Bakı-Tbilisi-Ceyhanın əsas memarı Azərbaycandır. Daha doğrusu, Heydər Əliyevdir və onun neft strategiyasıdır".

Hazırkı dövrdə dünyada gedən proseslərin mərkəzində iqtisadi məkan yaratmaq uğrunda mübarizə dayandığı, yolları idarə edən ancaq mənfəət prinsipləri olduğu, konkret coğrafi ərazilərlə sərhədlənmiş super gücləri iqtisadi nüfuz dairələri əvəz etdiyindən Ümummilli liderin neft strategiyasının nə qədər uzaqgörənliklə ölkəmizin gələcəyinə hesablandığı bir daha aydın bəlli olur. Çünki XXI əsr yeni meyarlar, yeni mübarizə və müharibə üsulları ilə səciyyələnib, torpaq uğrunda savaşlar iqtisadi maraqlar və nəqliyyat dəhlizləri uğrunda mübarizə ilə əvəzlənib.

## Şifahi nitqlə maarifçilik

Ulu öndərin siyasi uğurlar və dövlət quruculuğu ilə yanaşı, maarifçilik fəaliyyəti də xüsusi əhəmiyyət kəsb edir. Onun öyrənilməsi, şərh edilməsi, gənc nəsillərə çatdırılması daha önəmlidir. Demokratik cəmiyyət quruculuğu, hər şeydən öncə, xalqın ictimai şüurunun, təfəkkürünün, siyasi düşüncə tərzinin inkişafını tələb etdiyindən onun maarifləndirilməsi dövlət quruculuğunda əsas atributlardan biri olur.

Görkəmli şəxsiyyət Heydər Əliyev öz fikirlərini əsasən çıxışlarında şifahi nitq vasitəsilə ifadə etdiyindən onun nitqi dövrün ictimai-siyasi, mədəni-mənəvi həyatını öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir. Qədim və müasir tariximizi, iqtisadiyyatımızın, mədəniyyətimizin tarixini, milli köklərimizi və milli-mənəvi dəyərlərimizi dərindən bildiyindən onun çıxışları Azərbaycan tarixi, elmi, mədəniyyəti, ictimai-siyasi fikirilə bağlı faktlarla, dərin fəlsəfi müddəalarla, müdrik kəlamlarla zəngindir. Böyük marağa səbəb olan "Aforizmlər" kitabı buna bir nümunədir. Nitqinin cəlbedici olması və prosesləri lokal çərçivədə deyil, yerli hadisələri regional konteksdə, regional hadisələri isə beynəlxalq miqyasda ümumi tendensiyalar kontekstində şərh etdiyindən xalqın maarifləndirilməsi baxımından bunlar çox böyük təsir gücünə malik olmaqla əhəmiyyətlidir. "Xalqın tərbiyə olunmasını dövlət xadiminin ən ali vəzifəsi" hesab edən F.Ruzveltin söylədikləri də bu yöndə öz təsdiqini tapmış olur.

## Azərbaycançılıq və səfərbərlik

Yeni dövlət qurulan hər hansı ölkədə əsl liderin, tarixi şəxsiyyətin varlığı, onun beynəlxalq nüfuzu və şöhrəti əlavə müsbət amil olmaqla imkan deməkdir. Heydər Əliyev şəxsiyyətinin bütövlüyünü təmin edən cəhətlərdən biri də liderlik keyfiyyətinin xalqla bağlılığının üzvi vəhdətdə olması, bir-birini tamamlamasıdır. Xalqın içərisindən çıxan Ümummilli lider öndə getməyi, yol göstərməyi bacarmağın zəruriliyini belə ifadə etmişdir: *"Azərbaycan xalqı həmişə güclü olub. Amma bu xalqı qaldırmaq, səfərbər etmək lazım idi".*

Səfərbərlik anlayışı bəsit şəkildə başa düşülməməlidir. Səfərbərlik həyatın bütün sahələrini əhatə edir. İlk növbədə, milli-mənəvi vətənpərvərlik hisslərinin böyük potensialının səfərbərliyi nəzərdə tutulur. Bir sözlə, səfərbərlik millətin, xalqın müxtəlif sahələrə paylanmış gücünün, qüdrətinin, iqtisadi, intellektual, mədəni-mənəvi və hərbi potensialının vahid istiqamətdə, bir amal uğrunda cəmlənməsi deməkdir.

Güclü dövlətin yaradılması, sosial-iqtisadi təminat, mənəvi səfərbərlik ruhu gələcək nailiyyətlərin təməlidir. Müharibələr tarixi də göstərir ki, mənəvi cəhətdən mütəşəkkil qaydada səfərbər olmayan ordu düşmənlə müqayisədə daha yaxşı və müasir silahlarla təchiz edilsə belə, qalib ola bilmir. Əslində, yüksək vətənpərvərlik, humanizm tərbiyəsinin özü militarizmə, işğala, irticaya qarşı mübarizə tərbiyəsi və dolayısı ilə qalibiyyət deməkdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində erməni hücumlarına, qəsbkarlığına qarşı lazımi müqavimət göstərə bilməməyimizin bir səbəbi də orduda mənəvi səfərbərliyin olmaması idi. Çünki mənəvi səfərbərlik elə böyük qüvvədir ki, onu asanlıqla məğlub etmək çox çətin məsələdir. Həmin illərdə respublika rəhbərliyi bu yöndə heç bir iş görmədi. Əksinə, ayrı-seçkilik, qruplaşma, etnikçilik toxumları səpməklə məşğul oldular. Vahid ideologiya ətrafında əhalinin birləşməsi mümkün olmadı. Ulu öndərin olduqca böyük səfərbəredici qüvvəyə malik azərbaycançılıq ideologiyası nəzərə alınmadı. Mənəvi səfərbərlik ruhunun saxlanmasına xidmət edən bu ideyologiyanın mayasında vətəndaş birliyi, vətəndaş həmrəyliyi və ümumi Vətən üçün iftixar hissi dayanır.

Multikultural ölkəmiz üçün bu ideologiya reallıqdır. Dövlətimizin başçısı İlham Əliyevin davam etdirdiyi və məqsədyönlü şəkildə apardığı vətənpərvərlik tərbiyəsi gənclərdə milli ləyaqəti və ruhu daha üstün şəkildə formalaşdırdığından İkinci Qarabağ müharibəsində dinindən, milliyyətindən, inancından asılı olmayaraq hər kəs Vətən üçün, ərazilərimizin bərpası üçün vuruşurdu. Nəticə isə bəllidir: Müzəffər Ali Baş Komandan, Qalib Ordu və Qalib Ölkə. Azərbaycan Silahlı Qüvvələrinin döyüş taktikası, hərbi əməliyyatları hərb tarixinə dair kitablara daxil edilməklə analoji hallarda nümunə göstərilir. Fəxr etdiyimiz Qalibiyyətin bazasında da ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu strategiyalar dayanır.

## Gələcək nəsillər barədə düşünən lider

Cəmiyyət ictimai proseslərdə aparıcı rol oynayan, xalqının tarixində silinməz izlər qoyan, böyük proseslərin ideya müəllifi və hərəkətverici qüvvəsi olan, kütlələri arxasınca apara bilən şəxsiyyətlərin sayəsində inkişaf edir. Bütövlükdə ictimai inkişaf ideyaların kütlələrə yiyələnməsi zamanı baş verir. Həmin ideyaların müəllifi isə əbədiyaşarlıq qazanmaqla tarixi şəxsiyyətə çevrilir. Planetar təfəkkürə, intellektual yaradıcılığa malik, yüksək mədəni-mənəvi potensial sahibi olan tarixi şəxsiyyətlər üçün zaman sonsuz, məkan isə sərhədsiz olur. Yəni onlar müxtəlif zamanlarda, məkanlarda və ictimai-iqtisadi formasiyalarda fəaliyyətləri ilə daim xalqına, Vətəninə və millətinə xidmət etmiş olurlar. Zaman və məkan tarixi şəxsiyyətlərin ali məqsədlərini, potensial düşüncələrini, bir sözlə, bəşəri keyfiyyətlərinin məcmusunu dəyişdirə və fəaliyyət sferasını məhdudlaşdıra bilmir.

U.Çörçillin bu barədə söylədikləri daha korrekdir: "Siyasətçi növbəti seçkilər, əsl lider isə gələcək nəsillər barədə düşünür". Bu prizmadan ötən əsrin 70-ci illərinə diqqət etsək, görərik ki, o illərdə yaradılmış sosial-iqtisadi və mədəni-mənəvi potensial ölkəmizin müstəqilliyi üçün mühüm əsas yaratmışdır. Belə ki, Azərbaycanın böyük elmi formalaşmış, milli mədəniyyəti yüksək səviyyəyə qalxmış, iqtisadiyyatı güclü inkişaf etmişdir.

Ulu öndər keçmiş SSRİ rəhbərliyinin ən üst zirvəsində olduğu zaman da ümdə məqsədi doğma Azərbaycana xidmət göstərmək olub. Keçmiş İttifaqın ideologiyasına təsir imkanları olduğu dövrdə ideologiyanın keçici və nisbiliyini, milli maraqlar üzərində bərqərar olanların isə əbədiliyini aşkar hiss etdiyindən gələcək müstəqilliyimiz naminə ən mühüm layihələrin və planların mərkəzin büdcəsi hesabına Azərbaycana yönəldilməsinə nail olurdu.

Bu baxımdan da keçmiş sovet dövründə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. İmkansızlıqda da imkan axtaran görkəmli tarixi şəxsiyyət, dahi lider Heydər Əliyevin *"Mən o vaxt Azərbaycanın gələcəyi haqqında düşünürdüm"* sözləri fikirlərimizi, qənaətlərimizi mahiyyət və məzmun etibarilə ciddi məntiqlə daha konkret tamamlayır.

***Hümbət MUSAYEV***

# Heydər Əliyev: liderliyin konseptual kodları

**Azərbaycan xalqının tarixində elə şəxsiyyətlər var ki, onların fəaliyyəti bir dövrü deyil, bütöv bir epoxanı əhatə edir. Ümummilli lider Heydər Əliyev məhz belə nadir simalardandır. Onun həyat yolu, siyasi irsi və dövlətçilik fəlsəfəsi bu gün də müstəqil Azərbaycanın inkişafının əsas istiqamətlərini müəyyənləşdirir. Ulu öndərin anadan olmasının 103-cü ildönümü münasibətilə onun çoxşaxəli fəaliyyətinə nəzər salmaq, xalqımız qarşısındakı misilsiz xidmətlərini bir daha xatırlamaq hər bir azərbaycanlının mənəvi borcudur.**

**IV MƏQALƏ**

## Müstəqil dövlət identikliyi

İlk baxışdan müstəqil dövlətin identikliyi əsasən xarici siyasət kontekstində beynəlxalq miqyasda dövlətin digər dövlətlərlə münasibətlərinin formalaşmasına aid məfhum təsiri bağışlayır. Bir çox mənalarda bu, doğrudan da belədir.

Ancaq müstəqil dövlətin identikliyini beynəlxalq aləmdə təqdim edən dövlət başçısı, liderdir. Buna görədir ki, alimlər liderin həm də dövlət identikliyini təmsil etdiyindən yazırlar. Deməli, real olaraq dövlətin identikliyi həm də cəmiyyətin kimliyi ilə sıx bağlıdır.

Toplum-lider-dövlət identikliyi zənciri nəzəri-konseptual və praktiki-faktiki semantik məna kəsb edir. Buradan liderin müstəqil dövlət identikliyini konseptual müəyyən etməsi ilə yanaşı, dünyanı həmin identikliyə gerçəkdən sahib olduğuna inandırması önəmli məsələ kimi qarşıya çıxır.

Bu baxımdan, Heydər Əliyevin fəaliyyətində uğurlu müstəqil dövlət identikliyinin konseptual müəyyən edilməsi ilə yanaşı, onu dünya miqyasında çox ləyaqətli təmsil etməsi bacarığının liderliyin mühüm kodları kimi yer alması xüsusi əhəmiyyət daşıyır. Həmin müstəvidə Azərbaycan liderinin “Əsrin müqaviləsi” kontekstində dövləti necə təmsil etməsi prinsipial məna kəsb edir.

Ulu öndər Heydər Əliyev “Əsrin müqaviləsi” aspektinin hər bir incə məqamında Azərbaycan Respublikasının sülhsevər və sülhyaradıcı, beynəlxalq hüququn norma və standartlarına dəqiq əməl edən, qarşılıqlı faydalı əməkdaşlığı, mehriban qonşuluğu, dünyanın hər bir regionunda ixtilafların danışıqlar yolu ilə həllini təşviq edən dövlət kimliyini ortaya qoymuşdur.

Tarixi faktdır ki, “Əsrin müqaviləsi”nə yaranan hər bir təhlükəli situasiyada aparıcılığı Ümummilli lider öz üzərinə götürmüşdür. Heydər Əliyev Azərbaycanın yeni enerji strategiyasını dövlət identikliyinin bütün parametrlərinə uyğun olaraq davamlı həyata keçirmişdir.

Bununla yanaşı, siyasi varisi kimi Prezident İlham Əliyevin həmin strategiyanı mükəmməl formada inkişaf etdirməsinin bütün lazımi təməllərini hazırlamışdır. Ümumiyyətlə, Heydər Əliyev liderliyində özündən sonrakı mərhələdə uğurlu olacaq siyasi xəttin, diplomatik zəminin və liderlik nümunəsinin hazırlanması çox əhəmiyyətli kodlardan biridir.

Beləliklə, “Əsrin müqaviləsi” və müstəqil dövlət identikliyi funksional kodlar kimi güclü dövlət idealı, milli sərvət və ərazi bütövlüyünün aktual və vacib faktorlar olaraq formalaşmasında ciddi rol oynamışlar. Buna görə də azərbaycançılığın əsas prinsipləri sırasında vurğulanan faktorların aşağıdakı bağlılıqda formulə edilməsi tamamilə elmi əsaslıdır: “Güclü dövlət, demokratik prinsiplər, milli sərvət, iqtisadi inkişaf və hərbi qüdrət Azərbaycan Respublikasının hərtərəfli inkişafının əsasıdır”. Bu parametrlərin üzərində ayrıca dayanmaq lazımdır.

## Güclü dövlət idealı

Heydər Əliyev bu kodu müstəqil Azərbaycan dövlətinin qurulmasının strateji hədəfi olaraq müəyyən etmiş və onun həyata keçməsi üçün fəaliyyət göstərmişdir. Güclü dövlət idealı ümumi formada bütövlükdə hər bir müstəqil dövlətin məqsədidir. Ancaq Azərbaycanın keçən əsrin son onilliyində düşdüyü çox ağır vəziyyət kontekstində güclü dövləti uğurlu qurma kursunu müəyyən etmək olduqca çətin bir vəzifə idi. Heydər Əliyev liderliyinin bu kodunu məharətlə həm müəyyən etdi, həm də eksklüziv olaraq onu reallaşdırmağa başladı. Bu kontekstdə Heydər Əliyevin Çinə səfəri çox rezonans doğurmuşdu. Çünki həmin mərhələdə bütün keçmiş sovet respublikaları öz “xoşbəxt gələcəklərini” Qərb liberalizm modelində axtarırdılar. Bunun fonunda isə Azərbaycanın o dönəmdəki Prezidenti və xalqın ümummilli lideri Heydər Əliyev qəfil Çinə səfər etməyə qərar vermişdi. Səfər Azərbaycan üçün qanlı-qadalı illərdən biri olan 1994-cü ilin martında baş tutdu.

Səfər çərçivəsində Pekində iki ölkə arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinin əsasları haqqında birgə bəyanat imzalandı. Bu, artıq Azərbaycanın müstəqil dövlət kimi strateji istiqamətini müəyyən etməsi demək idi. Çoxları Azərbaycandan liberalizm kodunun açılmasını gözlədiyi bir zamanda, Ulu öndər güclü dövlət qurmaq seçimini ortaya qoydu.

Həmin anlamda 1994-cü ildə Pekində imzalanan bəyanat bu inqilabi yanaşmanın ilk müjdəçisi idi. Bu bağlılıqda martın 9-da Prezident Heydər Əliyevin Pekində Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsindəki çıxışı zamanı ifadə etdiyi aşağıdakı fikirlər tarixi və strateji seçimin qətiyyətlə edildiyi və qarşıya dəqiq məqsədlərin qoyulduğunun ifadəçisi kimi dərk edilə bilər.

Ulu öndər demişdir: “Üçüncü gündür ki, ölkənizdə, onun paytaxtı - gözəl şəhər olan Pekindəyik və bu üç gündə bir çox məsələlər barəsində fikir mübadiləsi etməyə və hətta bir sıra mühüm sənədlər imzalamağa macal tapmışıq. Bu sənədlər Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin, ən əvvəl ticarət sahəsində və iqtisadiyyatın digər sahələrində əlaqələrin daha da inkişaf etdirilməsinə yönəldilmişdir”.

Fikirlərinə davam edərək Azərbaycan lideri Heydər Əliyev böyük səmimiyyətlə xüsusi vurğulamışdır: “Açığını deyirəm, biz özümüzü evimizdəki kimi hiss edirik. Bu, olduqca vacibdir, çünki biz Çin Xalq Respublikası ilə dostluq münasibətləri yaratmağa çalışırıq. Odur ki, bu səfər, Azərbaycan prezidentinin Çinə ilk səfəri məhz belə münasibətlər yaradılmasının və bu münasibətlərin inkişaf etdirilməsinin zəruriliyindən irəli gəlir”.

Səfərin yekunlarını isə Heydər Əliyev belə dəyərləndirmişdi: “...belə hesab edirəm ki, Çin Xalq Respublikasına səfərimiz böyük tarixi hadisədir. Çünki Çin ilə Azərbaycan arasında heç vaxt bu səviyyədə əlaqələr olmamışdır. Doğrudur, tarixən müəyyən əlaqələr, “Böyük İpək yolu» və s. olduğunu xatırlayırıq. İndi isə, təkrar edirəm, dövlətlərarası sıx münasibətlərin yaranması böyük siyasi hadisədir. İlk növbədə Azərbaycan Respublikası üçün böyük hadisədir”.

Buradan aydın görünür ki, Ulu öndər üçün güclü dövlət quruculuğu olduqca əhəmiyyətli idi və onu strateji kontekstdə yüksək qiymətləndirirdi. Açığını deyək ki, həmin dönəmdə Heydər Əliyevin bu xətti seçməsinin real mahiyyətini çox az siyasətçi dərk etdi. Lakin Heydər Əliyevin müəyyən etdiyi kurs sayəsində azərbaycanlıların güclü dövlət idealı tədricən reallığa çevrildi. Son bir neçə yüz ildə Azərbaycan cəmiyyəti güclü dövlət haqqında idealda təsəvvürlərini yaradırdılar.

Şanlı dövlətçilik keçmişinə müəyyən nostalji də vardı. Ancaq bu xalq güclü dövlət quracağına inamını itirmədi. Xalqın Ümummilli lideri isə arzu edilən, idealda formalaşdırılan, “yetişdirilən” güclü Azərbaycan obrazını əyaniləşdirmənin fəlsəfi-siyasi konsepsiyasını hazırladı. Azərbaycanlılar XX əsrin son onilliyində uzun müddətdən sonra güclü Azərbaycan dövlətinin ideal obrazından gerçək müstəqil idarəetmə sisteminin yaradılma dinamikasının iştirakçısı və şahidi oldular!

## Müstəqil dövlət milli sərvət kimi

Heydər Əliyevin liderlik fəlsəfəsi güclü dövlət quruculuğunda bütövlükdə cəmiyyətin fəal iştirakını təmin etdiyindən müasir azərbaycanlılar müstəqil dövlətçiliyi milli sərvət olaraq dərk edirlər. Hər bir müasir qövm üçün bu transformasiya çox ciddi hadisədir. Çünki XXI əsrin çağırışlarının xarakteri göstərir ki, öz müstəqilliyini və milli dövlətçiliyini qoruya biləcək toplumlar həyatda qala biləcəklər. Dövlət artıq bütövlükdə cəmiyyətin, mədəniyyətin, milliliyin və müstəqil yaşamanın birinci atributuna çevrilmişdir. Toplum ideya olaraq bu qavrama malikdirsə, dövlətin mövcudluğunu qoruyub saxlaya biləcək və onu inkişaf etdirəcək. Bu, Azərbaycanda siyasi liderlik tarixində möhtəşəm uğurdur. Liderlik kontekstində həmin məqam üzərində dayanaq.

Öncə “milli sərvət” anlayışına nəzər salaq. Fəlsəfi-elmi ədəbiyyatda milli sərvət unikal maddi və mənəvi dəyərlərin toplusu kimi tərif edilir. Həmin dəyərlər xalqa aid olmalıdırlar. Eyni zamanda, ümummilli əhəmiyyət kəsb etməlidirlər. Əsas funksiyası isə dövlətin dayanıqlı mövcudluğunun və inkişafının əsasını təşkil etməkdən ibarət olmalıdır. Bu bucaq altında baxanda intellekt də müasir cəmiyyətin və dövlətin qiymətli milli sərvəti kimi görünür. Çünki bilik müasir dünyada başlıca milli resursdur. Təbii ki, həmin keyfiyyətdə bilik cəmiyyətin və dövlətin mövcudluğunda birinci dərəcəli rol oynamalıdır.

İndi milli sərvətə liderlik fəaliyyəti kontekstində diqqət edək. Liderlikdə intellekt də daxil olmaqla milli sərvət hesab edilən bütün faktorları aktuallaşdırmaq və reaktuallaşdırmaq (təkrar aktuallaşdırmaq) prinsipial əhəmiyyət kəsb edir. Bunun üçün lider ölkənin maddi və mənəvi-mədəni tarixini dövlətçilik kontekstində dərindən bilməklə yanaşı, yaşadığı dövrün siyasi və geosiyasi ruhuna uyğun həmin faktorlar arasında ziddiyyətsiz məntiqi bağlar qurmalıdır. Onun reallaşması isə maddi və mənəvi-mədəni faktorların intellektual fakt kimi kodlara, memlərə çevrilməsi gərəkdir. Konkret desək, vurğulanan faktor-memlər liderin fəaliyyəti sayəsində kodlara çevrilməlidir. O kodlar sistemi isə dövlətin milli sərvət kimi kollektiv tərəfindən dərk edilməsinin “açarları”dırlar!

## Azərbaycan dili milli sərvətdir

Milli sərvət kontekstində bir mühüm məqamı da vurğulamağımız gərəkdir. Dövlətin milli sərvət kimi dərk edilməsində azərbaycançılığın digər iki vacib prinsipləri əsaslı rol oynayırlar. Həmin prinsipləri Ulu öndər Heydər Əliyevin fikirləri əsasında akademik İsa Həbibbəyli “Azərbaycan dili” və “milli-mənəvi dəyərlər” kimi müəyyən etmişdir. Dil məsələsi bütövlükdə dövlətçilik aspektində hər bir qövm üçün prinsipial əhəmiyyət kəsb edir. Dilin formalaşması, inkişafı, yerinə yetirdiyi çoxşaxəli funksiyaları həmişə fəlsəfə və elmin aktual mövzularından olmuşdur.

Azərbaycançılığın əsas prinsiplərindən biri kimi Azərbaycan dilinin Ulu öndər Heydər Əliyevin “Ana dilimiz – Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir!” kəlamının semantik və funksional özəlliklərinin “çətir”i altında müəyyən edilməsi vurğulanan baxımdan çox əsaslıdır.

Məsələ xüsusilə ana dili və milli dil statusunda dövlət dilinin cəmiyyətin həyatında və ayrıca, onun idarə edilməsində yeri və rolu prizmasında son dərəcə böyük aktuallıq kəsb edir. Azərbaycan Prezidenti İlham Əliyev dilin saflığının təmin edilməsi məsələsini də bütün ziyalılar qarşısında mühüm vəzifə kimi qoyması qətiyyən təsadüfi deyildir.

Bütün bunların fonunda Azərbaycan dilinin azərbaycançılıq prinsipi olaraq aşağıdakı alttezislərin kompleksi kimi dərk edilməsinin elmi anlamı mövcuddur. Həmin alttezislər aşağıdakılardır:

“1. Azərbaycan dili – Azərbaycan Respublikasının dövlət dilidir.

2. Azərbaycan dili türk mənşəli qədim və zəngin dildir.

3. Azərbaycan dili – Azərbaycan xalqının ana dili və ölkədə yaşayan bütün millətlərin, azsaylı xalqların vahid ünsiyyət vasitəsidir”.

Bu üç komponentin birgə prinsip yaratması və onun semantik-funksional anlamı müasir müstəqil dövlətçilik və toplumun mənəvi, əxlaqi, mədəni, ideoloji bütövlüyü fonunda aktualdır. Həmin komponentlərin təhlili göstərir ki, dilin prinsip statusunda özünütəsdiqi üçün üç faktor aparıcı rol oynayır. Onlar Azərbaycan dilinin mənşəyi, bütövlükdə cəmiyyətin vahid ünsiyyət vasitəsi rolunu oynaması və, nəhayət, dövlət dili funksiyasını yerinə yetirməsidir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***




# Müasir Azərbaycanın memarı

Heydər Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində dünyaya göz açmışdır. Sadə ailədə böyüyən bu dahi şəxsiyyət hələ gənc yaşlarından zəhmətsevərliyi, intizamı və yüksək intellekti ilə seçilmişdir. Təhsil aldığı illərdən etibarən dövlət idarəçiliyinə maraq göstərən Heydər Əliyevin həyat yolu sonradan onu böyük siyasətə aparmışdır. Onun fəaliyyətinin ilk mərhələsi təhlükəsizlik orqanlarında çalışdığı dövrü əhatə edir. Bu illərdə qazandığı zəngin təcrübə gələcəkdə dövlət idarəçiliyində mühüm rol oynamasına zəmin yaratdı.

1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ölkəmizin tarixində dönüş nöqtəsi oldu. Həmin dövrdə Azərbaycan iqtisadi və sosial baxımdan geridə qalmış respublikalar sırasında idi. Lakin Ulu öndərin uzaqgörən siyasəti, qətiyyətli qərarları nəticəsində qısa müddətdə respublikada genişmiqyaslı islahatlara start verildi. Sənaye, kənd təsərrüfatı, elm, təhsil və mədəniyyət sahələrində əldə olunan uğurlar Azərbaycanın inkişaf yoluna çıxmasını təmin etdi. Məhz həmin illərdə yaradılmış iqtisadi potensial sonrakı müstəqillik dövründə ölkəmizin dayanıqlı inkişafının əsasını təşkil etdi.

Heydər Əliyevin fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmamış, o, keçmiş SSRİ məkanında da nüfuzlu siyasi xadim kimi tanınmışdır. 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunması onun yüksək idarəçilik qabiliyyətinin göstəricisi idi. Bu vəzifədə çalışarkən o, İttifaqın iqtisadi və sosial həyatının mühüm sahələrinə rəhbərlik etmiş, genişmiqyaslı layihələrin həyata keçirilməsində iştirak etmişdir. Lakin 1987-ci ildə SSRİ rəhbərliyinin yanlış siyasətinə etiraz olaraq vəzifəsindən istefa verməsi onun prinsipial mövqeyinin bariz nümunəsi idi.

1990-cı ilin yanvar hadisələri zamanı Heydər Əliyevin göstərdiyi siyasi cəsarət xüsusi qeyd olunmalıdır. 20 Yanvar faciəsindən dərhal sonra Moskvada Azərbaycanın daimi nümayəndəliyində etdiyi çıxışla o, sovet rəhbərliyinin cinayətkar siyasətini ifşa etdi və günahkarların cəzalandırılmasını tələb etdi. Bu addım onun xalqına olan bağlılığının, milli maraqları hər şeydən üstün tutduğunun açıq təzahürü idi.

1990-cı ildə Azərbaycana qayıdan Heydər Əliyev fəaliyyətini Naxçıvan Muxtar Respublikasında davam etdirdi. Naxçıvanda həyata keçirdiyi mühüm qərarlar – üçrəngli bayrağın dövlət rəmzi kimi qəbul edilməsi, sovet atributlarının ləğvi, demokratik idarəçilik prinsiplərinin tətbiqi – müstəqil dövlətçiliyin ideoloji əsaslarını formalaşdırdı. Bu dövr Ulu öndərin dövlətçilik konsepsiyasının praktik həyata keçdiyi mühüm mərhələ kimi tarixə düşdü.

1993-cü ildə ölkədə yaranmış dərin siyasi böhran, vətəndaş qarşıdurması və dövlət müstəqilliyinin itirilməsi təhlükəsi Azərbaycan xalqını çıxılmaz vəziyyətə salmışdı. Belə bir çətin məqamda xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkənin taleyində həlledici rol oynadı. Onun 15 iyun 1993-cü ildə Azərbaycan Ali Sovetinin sədri seçilməsi tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu hadisə dövlətçiliyimizin xilası, sabitliyin bərpası və inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

1993-cü ilin oktyabrında ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev qısa müddətdə ölkədə sabitliyi təmin etdi. Onun rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində siyasi sabitlik bərpa olundu, iqtisadi tənəzzülün qarşısı alındı, dövlət institutları formalaşdırıldı. Hüquqi dövlət quruculuğu istiqamətində atılan addımlar, yeni Konstitusiyanın qəbul edilməsi, bazar iqtisadiyyatına keçid və beynəlxalq əlaqələrin genişləndirilməsi Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi.

Ulu öndərin həyata keçirdiyi neft strategiyası Azərbaycanın iqtisadi inkişafında mühüm rol oynadı. Xarici investisiyaların cəlb edilməsi, beynəlxalq enerji layihələrinin reallaşdırılması ölkəmizin iqtisadi müstəqilliyini möhkəmləndirdi. Bu siyasət nəticəsində Azərbaycan regionun aparıcı dövlətinə çevrildi və beynəlxalq arenada mövqeyini gücləndirdi.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin əsasını azərbaycançılıq ideologiyası təşkil edir. Bu ideologiya milli birlik, vətənpərvərlik, dövlətə sədaqət kimi dəyərləri özündə ehtiva edir. Onun formalaşdırdığı siyasi kurs bu gün də uğurla davam etdirilir. Bu kursun layiqli davamçısı olan İlham Əliyev Azərbaycanın dinamik inkişafını təmin edir, ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır.

Müasir dövrdə Azərbaycanın əldə etdiyi uğurlar – iqtisadi inkişaf, sosial rifahın yüksəlməsi, ərazi bütövlüyünün bərpası istiqamətində qazanılan nailiyyətlər – məhz Heydər Əliyev siyasi irsinin nəticəsidir. 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər də bu siyasətin məntiqi davamı kimi qiymətləndirilir. Azərbaycan Ordusunun əldə etdiyi bu qələbə dövlətimizin gücünü və xalqımızın birliyini bütün dünyaya nümayiş etdirdi.

Heydər Əliyevin həyat yolu yalnız siyasi fəaliyyətlə məhdudlaşmır. O, həm də böyük şəxsiyyət, müdrik lider, xalqına bağlı dövlət xadimi idi. Onun fəaliyyəti dövlət idarəçiliyi məktəbi kimi bu gün də öyrənilir və gələcək nəsillərə örnək göstərilir. Ulu öndərin zəngin irsi Azərbaycan xalqının ən böyük sərvətlərindən biridir.

Yeni Azərbaycan Partiyasının yaradılması da Heydər Əliyevin siyasi fəaliyyətində mühüm yer tutur. 1992-ci ildə təsis edilən bu partiya qısa müddətdə xalqın etimadını qazanaraq ölkənin aparıcı siyasi qüvvəsinə çevrildi. Bu gün də partiya Ulu öndərin ideyalarına sadiq qalaraq Azərbaycanın inkişafına öz töhfəsini verir.

Heydər Əliyevin mənalı həyat yolu və zəngin irsi tükənməz bir xəzinədir. Onun həyata keçirdiyi siyasət, qəbul etdiyi tarixi qərarlar Azərbaycanın bu gününü və gələcəyini müəyyənləşdirən əsas amillərdir. Ulu öndərin hər bir addımı milli maraqlara xidmət etmiş, dövlətçiliyimizin möhkəmlənməsinə yönəlmişdir.

Bu gün Azərbaycan müstəqil, güclü və inkişaf edən dövlət kimi dünya arenasında öz layiqli yerini tutur. Bu uğurların təməlində Heydər Əliyevin uzaqgörən siyasəti dayanır. Onun müəyyən etdiyi inkişaf strategiyası ölkəmizin gələcək uğurlarının da əsas təminatıdır.

Ulu öndərin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayır. Onun ideyaları, siyasi irsi və dövlətçilik prinsipləri gələcək nəsillər üçün yol göstəricisi olaraq qalacaqdır. Heydər Əliyevin həyat yolu sübut edir ki, xalqa xidmət etmək ən ali dəyərdir və bu yolda atılan hər bir addım tarixdə əbədi iz buraxır.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə onun əziz xatirəsini dərin ehtiramla yad edir, onun ideyalarının daim yaşayacağına inanırıq. Bu böyük şəxsiyyətin irsi Azərbaycan dövlətçiliyinin möhkəm təməli, xalqımızın isə qürur mənbəyidir.

***Azər SÜLEYMANOV,***
***Yeni Azərbaycan Partiyası***
***Nəsimi rayon təşkilatının sədri,***
***tarix üzrə fəlsəfə doktoru***

**“O, öz həyatını xalqa həsr etmişdir və onun ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. O, öz fəaliyyəti ilə dövlət quruculuğu, ordu quruculuğu sahələrində gördüyü işlər nəticəsində dövlətin əsasları yaradıldı və ölkəmiz inkişaf yoluna qədəm qoydu.**

**Əfsuslar olsun ki, atam bu günü görə bilmədi. Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz - onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik”.**

# Milli liderliyin zəfərlər marafonu



Ümummilli lider Heydər Əliyevin ən layiqli davamçısı Prezident İlham Əliyevin bu fikirləri ilə yazıya körpü salmaq istədik. Çünki Azərbaycanı canından artıq sevən, “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” çağırışı ilə harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya Vətəni sevməyi öyrədən, dövlətə, xalqa xidmət nümunəsini göstərən ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Şərqi Zəngəzuru azad görmək idi və dahi rəhbərin bunun gerçəkləşdirilməsi istiqamətində atdığı addımların miqyası ölçüyəgəlməzdir.

Ulu öndər ölkənin ən çətin günlərində, müstəqilliyini itirmək, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsini yaşayanda, torpaqlarımız işğal ediləndə, sabaha ümid itəndə xalqının səsinə səs verdi. Ümummilli lider canından artıq sevdiyi Azərbaycanı xilas etmək üçün xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdanda qarşısında bir sıra həlli vacib məsələlər dayanırdı ki, onlardan biri torpaqlarımızın işğaldan azad edilməsi, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı idi.

Bunun üçün Azərbaycan bütün sahələrdə güclənməli, müstəqil dövlət kimi özünü təsdiqləməli, diplomatik mübarizədə üstünlük qazanmalı, müstəqilliyinin və suverenliyinin qarantı olan ordusunun Qələbəyə hazırlığını təmin etməli, bir sözlə, ulu öndər Heydər Əliyevin təbirincə desək, dünyaya Günəş kimi doğmalı idi. Ümummilli lider düşünülmüş siyasəti ilə Azərbaycanı dünyaya belə təqdim etdi.

## Xilaskarlıq missiyası

Tariximizin bu səhifəsini də unutmamalıyıq ki, 1991-ci ildən 1993-cü ilin iyun ayına qədərki dövr Azərbaycanın dövlətçilik salnaməsində fəlakət illəri kimi xarakterizə edilir. Qısa müddətdə bir neçə dəfə dəyişilən, Azərbaycanı idarə etmək bacarığında, səriştəsində olmayan səbatsız “rəhbərlərin” bağışlanılmaz səhvləri üzündən təhlükə ilə üzləşən ölkəmizi parçalamaq istəyən xarici qüvvələr daxili satqınlardan istifadə etməklə istəklərinə nail olmağa məqam axtarırdılar.

AXC–Müsavat cütlüyünün hakimiyyəti illərində yaranan vəziyyət isə daha acınacaqlı və dözülməz idi. Xaos, anarxiya, özbaşınalıqlar baş alıb gedirdi, Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızın deyil, ayrı-ayrı qrupların maraqlarının müdafiəçisinə çevrilmişdi. Müstəqilliyimizə təhlükə olan Gəncə hadisələri Azərbaycanın hərtərəfli məhvinə yönəldilmiş cinayət, hər an alovlana biləcək bir qığılcım idi. O illərdə dövlətçiliyin əsasları qurulmamışdı. 1991-1993-cü illərdə hadisələri düzgün qiymətləndirə bilməyən o dövrün iqtidarı xalq qarşısında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Belə bir vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı xilasını yalnız Ulu öndərin hakimiyyətə qayıdışında gördü. Dövlətçilik anlayışından bixəbər olan və hərbi birləşmələri əslində, öz məqsədləri üçün istifadə edən ayrı-ayrı şəxslərin hədələrindən qorxub gizlənmiş və bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən AXC–Müsavat iqtidarının özü də xilas üçün sonda ümummilli lider Heydər Əliyevdən imdad dilədi.

1993-cü il iyunun 9-da dünya şöhrətli siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyev xalqın təkidli dəvətini qəbul edib Bakıya gəldi. Xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu öndər Bakıda hakimiyyət davasının getdiyi bir vaxtda həyatını təhlükə altında qoyaraq dərhal Gəncəyə getdi və bölgədə davam edən qiyamın qarşısını aldı.

Ümummilli lider Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ulu öndər Heydər Əliyev müstəqil Azərbayan Respublikasının Prezidenti seçildi. Bu qısa xronologiya bir daha Azərbaycan xalqının Ümummilli liderə sonsuz sevgisinin təsdiqidir. Müstəqil dövlətimizin memarı Heydər Əliyev Azərbaycan xalqının yaddaşında xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaq.

## Heydər Əliyev gəlməsəydi…

Əbəs yerə deyilmir ki, zaman hakim, tarix isə yaddaşdır. Müstəqillik tariximizin hər bir mərhələsini müqayisəli təhlil əsasında indiki və gələcək nəsillərə çatdırmalıyıq. Bugünün gəncləri həmin dövrün reallıqları barədə çox da məlumatlı deyillər. Bu baxımdan Prezident İlham Əliyev böyük Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının VII Qurultayındakı çıxışında dahi şəxsiyyətin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərindən, Azərbaycanın müstəqilliyimizin ilk illərində yaşadığı faciələrdən bəhs edərək demişdir:

“Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın. Bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox. Halbuki 1991-ci ilin 18 oktyabrını biz Müstəqillik Günü kimi qeyd edirik. Ancaq hər kəs bilməlidir ki, o, bizdən asılı olan proseslər deyildi. Azərbaycan hətta gecikmişdi. Artıq bir çox keçmiş müttəfiq respublikalar öz müstəqilliyini elan etmişdilər.

Sovet İttifaqı demək olar ki, dağılırdı. Artıq parçalanma prosesləri gedirdi. Nəyi gözləyirdilər 18 oktyabra qədər? Ondan əvvəl müstəqilliyi elan etmək olmazdımı? Əlbəttə, olardı. Ona görə bizim əsl müstəqillik tariximiz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki ona qədər müstəqillik sözdə var idi, amma faktiki olaraq yox idi. Azərbaycan müstəqil siyasət apara bilirdi? Yox! Öz hüdudlarını qoruya bilirdi? Yox! Beynəlxalq aləmdə öz sözünü deyə bilirdi? Yox! Bəs bu, nə müstəqillikdir?”

Dövlət başçısı həmin çıxışında onu da qeyd etmişdir ki, o dövrü bilməyən, o vaxt yaşamayan gənc nəsil bilməlidir ki, nəyin bahasına biz müstəqilliyi qoruyub saxlaya bilmişik. Kimə biz borcluyuq. Əgər Heydər Əliyev o vaxt hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət kimi, bir yarımmüstəmləkə kimi yaşaya bilərdi.

## Zamanın fövqünə yüksəlmiş dahi

Ulu öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxaran və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşduran qüdrətli şəxsiyyətdir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Onun həyat amalının təntənəsidir. Azərbaycana rəhbərliyinin birinci dövründə özünün yüksək idarəçilik bacarığı və vətənpərvərliyi, polad iradəsi, uzaqgörən, məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur.

Müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu öndər Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etdi. O, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirdi və həyata keçirdi.

Yeni Azərbaycanın qurucusu bildirirdi ki, əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Uğurlu gələcəyə hesablanmış siyasət Azərbaycanı qısa müddətdə sabitlik diyarına çevirdi.

Ulu öndərin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də işğalçı Ermənistanla atəşkəs sazişinin imzalanması ölkəmizdə sabitliyin daha da möhkəmlənməsini, eyni zamanda, digər sahələrdə uğurlu addımların atılmasını təmin etdi. Məhz həmin il sentyabrın 20-də dünyanın aparıcı transmilli şirkətləri ilə tarixə “Əsrin müqaviləsi” kimi daxil olan neft sazişi imzalandı.

Bununla Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu. Bu saziş ölkəmizin iqtisadi imkanlarını artırmaqla yanaşı, beynəlxalq münasibətlər sistemində yerini və rolunu möhkəmləndirdi. Çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələri reallığa çevrildi. Onlarla neft və qaz sazişləri, Anlaşma memorandumları imzalandı. Neft gəlirlərinin idarə olunmasında şəffaflıq prinsipinin yüksək səviyyədə qorunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması da Ulu öndərin uzaqgörən siyasətinin nəticəsi idi.

Ölkəmizin iqtisadi imkanlarının artması əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində biri-birindən əhəmiyyətli addımların atılmasına yol açdı. Ümummilli lider bildirirdi ki, neft Azərbaycanın ən böyük sərvəti olub xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrildi və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edildi.

Azərbaycanın ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Onun Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması mükəmməl quruculuq proqramının tərkib hissələrindən oldu.

## Zəfər zirvəsinin təməli

Xalqımız ümummilli lider Heydər Əliyevin Vətəninə, dövlətinə, xalqına sevgisinin fonunda Azərbaycanın bugününü və gələcəyini aydın görürdü. Xalqından güc alan dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın addım-addım Zəfər zirvəsinə yüksəlməsini təmin edən möhkəm təməlin əsasını qoydu. Onun hər birimiz üçün bir çağırış olan “Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!” fikirləri dövlətimiz, xalqımız üçün gördüyü misilsiz işlərin məcmusudur. Bu çağırış hər kəsdən Onun çoxşaxəli fəaliyyətinin hər bir səhifəsini, hər bir anını dərindən öyrənməyi bir tələb kimi qarşımızda qoyur.

İllər keçdikcə Ulu öndərlə bağlı nə qədər kitablar dərc edilsə də, onun fəaliyyətinin ayrı-ayrı istiqamətləri araşdırılsa da yenə də tədqiqata ehtiyac vardır. Ümummilli lider Heydər Əliyev Azərbaycanı yenidən qurdu, xalqına ən güclü, qüdrətli, hər birimizin qürur duyacağı Azərbaycan kimi təqdim etdi. Hakimiyyətə qayıdışının ilk günlərində Azərbaycanın o çətin günlərinin fonunda xalqına çağırışında belə bir inamı ifadə etdi ki, gün gələcək hər kəs belə güclü, qüdrətli Azərbaycanın vətəndaşı olduğu üçün qürur duyacaq. Qısa zamanda xalqımız o qüruru yaşadı.

Ulu öndərin təşəbbüsü ilə 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi və Azərbaycanın reallıqları bu platformadan dünya azərbaycanlılarına çatdırıldı. Vətənin bir olduğu, hər birimizin bu Vətən üçün çalışmağımız əsas hədəflər sırasında oldu. Ümummilli lider Azərbaycanın bugünkü Zirvəyə, Zəfərlərə gəlib çatması üçün necə təkmil inkişaf strategiyasını müəyyənləşdirdi. Bu, onun liderliyinin, yüksək idarəçilik bacarığının göstəricisi, dövlətinə, xalqına sevgisinin nümayişi idi.

Xalqın sevgisindən, iqtidarla birliyindən bəhs edərkən 1994, 1995-ci illərdə törədilən dövlət çevrilişlərinə cəhdləri yada salmamaq olmur. İnamına, seçiminə sadiq qalan Azərbaycan xalqı həmin o çətin günlərdə xilaskarının ətrafında sıx birləşdi. Azərbaycanı qorumaq, saxlamaq, dövlətçiliyimizi möhkəmləndirmək və inkişaf etdirmək yolları hamar olmasa da, Heydər Əliyev zəkası ilə bütün çətinliklərə qalib gələrək müstəqilliyimizin əbədi müəllifi adını qazandı.

Bu xidmətlərin miqyası o qədər böyükdür ki, onları sadalamaqla bitməz, eyni zamanda, bir yazıda əhatə etmək mümkün olmaz. Buna görə də “Azərbaycan zirvəsində Heydər Əliyev ucalığı, Heydər Əliyev dühasında isə Azərbaycan müqəddəsliyi” sözləri Ulu öndərin həyat fəlsəfəsinin ana xəttini təşkil edirdi. Onun ali dövlət idarəçiliyi təcrübəsi, potensial imkanları kontekstində formalaşan Azərbaycan dünyaya əsl Liderin prinsipiallıq fəlsəfəsini təqdim etdi.

Onun gələcəyə, yeniliyə hesablanmış müdrikliyi cəmiyyətə, dünyaya bitkin fəlsəfi dünyagörüşü aşılayır, problemlərin həllində yeni mərhələlərə yol açırdı. Hakimiyyətə qayıtdığı ilk gündən Azərbaycanın gələcək yolunu demokratik islahatların tətbiqi ilə müəyyənləşdirən Ulu öndər bu niyyətini də gerçəkləşdirdi. Ölkədə söz, mətbuat, vicdan azadlığı, plüralizm üçün sərbəst mühit yaradıldı. Respublikamız sözdə deyil, əməldə xalqların birgə yaşadığı tolerant ölkə olduğunu bütün millətlərə, dinlərə hörməti, ehtiramı ilə bildirdi.

Ulu öndərin alternativsiz dövlət siyasəti təkcə iqtisadi məsələlərin həllində deyil, cəmiyyətin ideoloji hazırlığı baxımından da nümunə idi. Dahi şəxsiyyət təhsilin, səhiyyənin, mədəniyyətin inkişafına göstərdiyi diqqət və qayğı ölkəmizdə bacarıqlı mütəxəssislərin, təcrübəli kadrların hazırlanmasını təmin etdi.

Azərbaycanın müasir siyasi sistemi də məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1992-ci ilin 21 noyabr tarixində Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis edilməsi və Heydər Əliyevin partiyaya Sədr seçilməsi Azərbaycanda müasir siyasi sistemin yaranmasına səbəb oldu. Zamanın tələbi, xalqın istəyi ilə yaradılan Yeni Azərbaycan Partiyasının çox keçmədi ki, iqtidar partiyasına çevrildi. Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Yeni Azərbaycan Partiyasının da həyatında yeni səhifə açdı.

## Bütün vədlər yerinə yetirilib

2003-cü ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən Baş nazir İlham Əliyev andiçmə mərasimində qarşıda duran vəzifələri açıqlayarkən bildirdi ki, bütün bunlara nail olmaq üçün Heydər Əliyev siyasəti davam etdirilməlidir. Prezident İlham Əliyev andiçmə mərasimində, həmçinin Ümummilli liderə bu müraciəti etdi ki, əsəriniz olan müasir müstəqil Azərbaycanı daha da möhkəmləndirəcək, gücləndirəcək, zəfərlərə doğru aparacağıq.

2024-cü ilin fevral ayında Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq bütün ölkə ərazisində keçirilən prezident seçkilərində inamlı qələbə qazanan Prezident İlham Əliyev andiçmə mərasimində “2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi” söyləyərək onu da əlavə etdi ki, 2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi.

Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik.

Prezident İlham Əliyevin 8 noyabr 2020-ci il tarixində Qarabağın tacı Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən söylədiyi “Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir!” açıqlaması Prezident İlham Əliyevin dahi şəxsiyyət Heydər Əliyevin ona olan inamını, etimadını yüksək səviyyədə doğrulmasından keçirdiyi hissləri xalqımıza çatdırdı.

Son 23 ildə Heydər Əliyev siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsinin baş verdiyi dövrə qədər əsas hədəf kimi Azərbaycanı daha da gücləndirməyi, bütün sahələrdə uğurlu inkişafa nail olmasını, informasiya cəbhəsində üstünlüyünü, ordumuzda qələbə əzmini gücləndirməyi qarşıya qoydu.

Böyük Qayıdış Proqramının uğurlu icrası bugünümüzün reallıqlarında özünün aydın ifadəsini tapır. Artıq 9 şəhər, onlarla kənd və qəsəbə sakinlərinə qovuşub. Azad edilmiş ərazilərimizdə görülən işlər Azərbaycanın müasir şəhərsalma təcrübəsini dünyaya təqdim edir.

Bu gün Qarabağ dirçəlir, Şərqi Zəngəzur dirçəlir, doğma torpaqlarımızda qururuq, yaradırıq. Ölkə rəhbəri İlham Əliyevin çağırışlarında bu məqamlar xüsusi qeyd edilir ki, necə ki, ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı – bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik.

Bu gün Qarabağımız və Şərqi Zəngəzurumuz cənnət məkana çevrilir, söydaşlarımız doğma yurd-yuvalarına qayıdırlar. Cənab İlham Əliyevin böyük əminliklə qeyd etdiyi kimi, bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar. Biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik. Dövlətimizin başçısı bu çağırışı da edir ki, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr göstərdi ki, güclü iradə, xalq-iqtidar birliyi, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə bu iradənin qabağında dura bilməz. Nə qədər güclü olsaq, o qədər də səsimiz eşidiləcək. Bizim işimiz haqq işidir.

## Heydər Əliyev irsi quruculuq məktəbidir

Sadalamaqla bitməyən uğurlarımız Heydər Əliyev yolunun Aərbaycana qazandırdıqlarıdır. Bu yol Azərbaycanı hər zaman inkişafa, zəfərlərə aparacaq. Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim açıqlamaq məqsədilə yaradılan Heydər Əliyev Fondunun Azərbaycan dövlətinin, dövlətçiliyinin möhkəmləndirilməsinə töhfələri davamlıdır.

Fond Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ulu öndər Heydər Əliyevin ölməz ideyalarının reallaşması istiqamətində uğurla irəliləyir. Bu xidmətlər Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın 2017-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsini şərtləndirdi. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır. Fondun fəaliyyət coğrafiyası ölkəmizin sərhədlərini aşmış, onun dəstəyi ilə dünyanın bir çox ölkələrində humanitar layihələr reallaşmışdır. Fondun hazırda Böyük Qayıdış Proqramının icrasına töhfələri diqqətdən kənarda qalmır.

Tarixi, mədəni və dini irsimizin bərpası və qorunması istiqamətində unikal layihələri uğurla reallaşdırması hər kəsdə böyük iftixar və sevinc hissi yaradır. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Xarıbülbül” musiqi festivalının, Vaqif Poeziya Günlərinin, həmçinin digər mühüm tədbirlərin keçirilməsi Zəfərimizin reallıqlarının təbliğində əhəmiyyətli rol oynayır. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın birgə səyləri nəticəsində qalib Azərbaycan qarşısında dayanan bütün hədəflərə yüksək səviyyədə nail olacaq.

## Azərbaycanın sülh, təhlükəsizlik modeli

Bu gün dünya Azərbaycanın sülh təcrübəsindən bəhs edir. Artıq 9 aydır sülh şəraitində yaşayırıq. Ötən ilin avqust ayında ABŞ-da Prezident Donald Trampın iştirakı ilə Ermənistanla Azərbaycan arasında tarixi sülh razılaşmasının əldə edilməsi regionda dayanıqlı sülhün və təhlükəsizliyin əsasıdır. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, işğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış, suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş, daha sonra isə o zaman məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə olmağımız beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir: “Mən dəfələrlə demişəm ki, biz Ermənistanla sülhü yalnız kağız üzərində əldə etməmişik, sülh sazişi yeddi ay əvvəl paraflandı və birgə bəyanat qəbul olundu. Lakin biz artıq real həyatda sülhü təmin etmişik. Sərhədimizdə sakit vəziyyət hökm sürür, atəş açılmır, artıq heç bir qurban və itki yoxdur”. Azərbaycanın sülhə, təhlükəsizliyə verdiyi töhfələr beynəlxalq səviyyədə təqdir edilir. Bu sülh razılaşması Avropada bir sülh hekayəsi kimi dəyərləndirilir.

Təbii ki, Heydər Əliyev siyasətinin uğurlarını bir yazıda əhatə etmək mümkün deyil. Qeyd etdiklərimizin fonunda bu qənaəti böyük qürur hissi ilə bildiririk ki, bugünkü Azərbaycan ulu öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır!

***Vüqar RƏHİMZADƏ,***
***Milli Məclisin deputatı***

# Tarixi tərəqqinin Heydər Əliyev təməlləri

**Mingəçevirdə ulu öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibəti ilə Şəhər İcra Hakimiyyətinin, Mingəçevir Dövlət Universitetinin və YAP şəhər təşkilatının birgə təşkilatçılığı ilə “Heydər Əliyev irsi: müasir Azərbaycan dövlətçiliyinin strateji təməlləri və gələcəyə baxış” mövzusunda konfrans keçirilib.**






Məclisdə giriş nitqi ilə çıxış edən Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov Heydər Əliyevin keçdiyi şərəfli həyat yolundan danışaraq qeyd edib ki, xalqımızın Ümummilli lideri öz ölkəsini zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə Ulu öndərin zəkasının işığında qədəm qoymuşdur. Ümummilli liderin ölkəmizə rəhbərliyinin hər iki dövrü tarixə yüksəliş dövrü kimi yazılmışdır. Zəfərlər yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.

Qeyd edilib ki, Heydər Əliyevin müstəqil Azərbaycanın inkişaf etdirilməsi ilə bağlı müəyyən etdiyi təməl prinsiplərinin uğurla gerçəkləşdirilməsi siyasi, iqtisadi, sosial-mədəni sahələrdə və xarici siyasətdə ölkəmizə davamlı uğurlar qazandırıb. Prezident İlham Əliyevin Ulu öndərin yüksəliş yolunu ardıcıl və yaradıcı şəkildə davam etdirməsi Azərbaycanı regionun lider dövlətinə çevirmişdir. Bu uğurun təməlini qoymuş dahi şəxsiyyət Heydər Əliyev hər birimizin qəlbində əbədi yaşayacaq, onun örnək ömür yolu hər zaman öyrəniləcək, xatirəsi əziz tutulacaqdır.

Milli Məclisin deputatı Aydın Mirzəzadə Heydər Əliyevinin regionlara göstərdiyi diqqətdən, Mingəçevirə müstəsna qayğısından bəhs edib.

Konfransda YAP şəhər təşkilatının sədri Bəxtiyar Mustafayevin “Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradıcısıdır”, Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminovun “Azərbaycan təhsilinin inkişafında ulu öndər Heydər Əliyevin tarixi xidmətləri”, YAP veteranı Nurcamal Əsgərovanın “Heydər Əliyev və Azərbaycan səhiyyəsi” mövzularında məruzələri dinlənilib.

Məclis bədii hissə ilə davam edib.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Reyxstaqa adını yazmış qəhrəman

## *Yaxud 3 qat şöhrətin Lerik ünvanı*

**Faşizm üzərində qələbənin əldə edilməsində uca dağlar qoynunda yerləşən Lerikin mərd, cəsur, igid, vətənpərvər övladlarının misilsiz xidmətləri olub. Müharibə illərində Lerikdən 6 min 500 nəfər cəbhəyə yola salınıb. Onlardan 1584 nəfər döyüşlərdə həlak olub, 3 min 314 nəfər müxtəlif dərəcədə yaralanıb. Düşmənlə ölüm-dirim savaşında göstərdiyi hünərə, fədakarlığa, qəhrəmanlığa görə 600 nəfər yüksək təltiflərə layiq görülüb.**



Lerikin çağdaş tarixinin gözəl bilicisi, rayon veteranlar şurasının sədri Hidayət Bəşirov faşizm üzərində tarixi qələbədə Qafqazdan Berlinə kimi döyüş yolu keçmiş, “Lenin” ordenli kapitan Həmzə Şıxəliyevin, “Qırmızı ulduz” ordeni ilə təltif olunmuş Bağı Bəşirov və Feyruz Şıxəliyevin, “Şöhrət” ordenli Əli Hüseynovun, müxtəlif orden və medallara layiq görülmüş Kamran Əliyevin, Ağadədə Novruzovun, Soltan Mirzəyevin, Şahmirzə Əliyevin, Atamalı Şıxəliyevin, Mehdi Məmmədovun və başqalarının adlarını iftixarla çəkərək xatirələrinin ürəklərdə əbədi yaşadıqlarını bildirdi. Hər biri Vətənimiz Azərbaycanın, doğma Lerikin adını şərəfləndirib, şöhrətini uzaq ellərə yayıb,-dedi.

Yuxarıda adını çəkdiyimiz Əli Hüseynov Stalinqraddan Berlinədək şanlı, şərəfli döyüş yolu keçib. Reyxstaqın divarına adını, soyadını, Lerikin və doğma Daster kəndinin adını yazıb.

O, keçmiş İttifaqda “Şöhrət” ordeninin hər 3 dərəcəsinə layiq görülən 2 min 200 nəfərdən, o cümlədən 30 nəfər azərbaycanlıdan biridir. O illərdə sovetlər ittifaqının ən nüfuzlu nəşrlərindən olan “Pravda”, “Krasnaya zvezda”, “Leninskoye znamya”, “Znamya pobedı” qəzetlərində, Azərbaycanda “Kommunist”, “Sovet kəndi” və digər qəzetlərdə cəbhədə göstərdiyi şücaət, qəhrəmanlıqlar barədə yazılar dərc olunub. Görkəmli rus şairi Konstantin Simonovun ssenari müəllifi olduğu və Moskvada çəkilmiş “Əsgər getdi...” sənədli filminin yeganə azərbaycanlı qəhrəmanıdır.

Əli Hüseynov 1918-ci ildə Lerik rayonunun Daster kəndində sadə kəndli ailəsində dünyaya göz açıb. Səkkizinci sinfi bitirdikdən sonra kolxozda mühasib işləyib. 1939-cu ildə ordu sıralarına çağrılıb, artilleriya polkunda xidmət edib. Qvardiya kiçik çavuşu rütbəsində ordudan tərxis edilib.

İkinci Dünya müharibəsinin başlanması xəbərini eşidəndə silaha sarılaraq cəbhəyə yollanıb. Müharibənin ilk günlərindən topçu olub. 63-cü atıcı diviziyasının tərkibində döyüş yoldaşı Pyotr Sitnikovla Stalinqrad uğrunda döyüşlərdə düşmənin 2 tankını yandırıb, 3 pulemyotçunu və avtomatçılar dəstəsini məhv ediblər.

Cəbhədən evə göndərdiyi məktubda yazıb ki, Stalinqradın alınmasında, feldmarşal Paulsun əsir düşməsində bizim topçular igidlik göstərdilər. Uğurlu əməliyyata görə ona “İgidliyə görə” medalı və təşəkkürnamə verilib.

1944-cü il iyulun 18-də Mejilovo yaşayış məntəqəsi uğrunda döyüşlərdə düşmənin güclü artilleriya və minamyot hücumlarına baxmayaraq, Əli Hüseynov öz topunu birbaşa atəş xəttinə çıxararır, düşmənə sarsıdıcı zərbələr endirir. O, yaralansa da döyüş tapşırığını axıradək yerinə yetirir. Kursk ətrafında almanların 2 topunu, həkim məntəqəsini, 59 nəfər canlı qüvvəsini məhv etdyinə görə Əli Hüseynov 3-cü dərəcəli “Şöhrət” ordeni ilə təltif olunur.

1944-cü ilin oktyabrında Ə.Hüseynovun xidmət etdiyi polk Şimali Dvina cəbhə xətti boyunca hücuma keçdi. Düşmənin təyyarələr və zirehli texnikanın müşayiəti ilə apardığı ağır döyüşlərdə xeyli itki versələr də geri çəkilmədilər. Qormaz döyüşçü gah mərmi daşıdı, gah nişançı oldu və döyüş zamanı bir neçə nəfəri əvəz etdi.

Əli Hüseynovun topçuları düşmənin 4 ağır və 3 yüngül pulemyotunu, 75 millimetrlik topunu sıradan çıxardı, düşmənin minaatan batareyasını susdurdu və birbaşa atəşlə bir tağım piyadanı məhv etdi. Göstərdiyi qəhrəmanlığa görə qvardiya çavuşu Əli Hüseynov 5 noyabr 1944-cü ildə 2-ci dərəcəli “Şöhrət” ordeni ilə təltif edildi.

1945-ci il aprel ayının 21-də Əli Hüseynovun xidmət etdiyi 52-ci qvardiya atıcı diviziyası şimaldan Berlinə hücum əmrini aldı. Düşmən inadla müqavimət göstərirdi. Əli Hüseynov və yoldaşları sərrast atəşlə almanların müşahidə məntəqəsini, istehkam divarlarını dağıdaraq piyada qoşun üçün yol açdılar. O, Pyotr Sitnikovla birlikdə 2 tankı sıradan çıxardı, 3 pulemyotu məhv etdi və təxminən 20 faşisti öldürdü.

Döyüş tapşırıqlarını nümunəvi yerinə yetirdiyinə və Berlinin alınmasında göstərdiyi igidliyə görə Əli Hüseynov 1945-ci ilin mayında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə 1-ci dərəcəli “Şöhrət” ordeni ilə təltif olundu. Beləliklə, “Şöhrət” ordeninin hər 3 dərəcəsinə, 1-ci dərəcəli “Vətən Müharibəsi” və “Qırmızı Ulduz” ordenlərinə, çoxlu medallara layiq görüldü.

Müharibədə 3 dəfə ağır yaralansa, kontuziya alsa da, həkimlərin şəfalı əlləri sayəsində sağalaraq yenidən cəbhəyə qayıdıb, düşmənlə axıradək vuruşub. 1945-ci ilin yayında müharibədən qayıdıb. Qonşu Hoveridə kənd sovetinin sədri, sonra doğma kəndində kolxoz sədri işləyib. Çətin, ağır dövrdə təsərrüfatı dirçəldib, əhalini aclıqdan çıxarıb. Lakin bədxahların gözü götürməyib, yuxarılara ondan haqsız şikayətlər ediblər.

Müharibənin od-alovundan qəhrəmanlıqla çıxmış Əli Hüseynov həyatda heç vaxt əyilməyib, haqsızlığın aradan qaldırılacağını, ədalətin zəfər çalacağını ümidlə gözləyib. 1969-cu ilin iyul ayında ulu öndər Heydər Əliyev Azərbaycanın rəhbəri seçiləndən sonra müharibə veteranlarına qayğı və diqqət artırıldı, onların xidmətləri layiqincə qiymətləndirildi.

Ulu öndərin Sovet İttifaqı Qəhrəmanı adına və “Şöhrət” ordeninə layiq görülmüş müharibə veteranları ilə görüşündə Əli Hüseynova da söz verildi. Dahi rəhbər onu diqqətlə dinləyib “belə insanları yaddan çıxarmaq olmaz” – dedi və lerikli seçicilərə onun deputatlığa namizəd irəli sürülməsini məsləhət gördü. Həmyerliləri onu Çayrud seçki dairəsindən Respublika Ali Sovetinə deputat seçdilər, Ali Sovetin birinci sessiyasında isə Rəyasət Heyətinin üzvü seçildi. Respublika partiya təşkilatının qurultayında, digər mötəbər məclislərdə Leriki layiqincə təmsil etdi. Doğma kəndində 9 il kolxoz sədri, 20 ildən çox kənd sovetinin sədri vəzifələrində işlədi.

1987-ci il fevral ayının 12-də 69 yaşında dünyasını dəyişdi.

Daster kənd orta məktəbi Əli Hüseynovun adını daşıyır. Məktəbdə nəsillərə örnək olan cəsur döyüşçünün, sadə, zəhmətkeş, cəfakeş insanın xatirə güşəsi yaradılıb. Əməkdar jurnalist Həmzə Vəliməmmədov onun şərəfli ömür yolu haqqında “Əsgər şöhrəti” kitabını nəşr etdirib. Qəhrəmanın xoş xatirəsi yaddaşlarda yaşayır.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nın bölgə müxbiri***

# Xalqın sevgisində yaşayan lider



**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci PHŞ və Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş mərasim keçirilib. Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə Ulu öndərin zəngin həyat yolundan, dövlətə, dövlətçiliyə sədaqətlə xidmətindən bəhs olunub.**



Kollecin direktoru Xatirə Məlikova qeyd edib ki, müdrik dövlət xadimi, uzaqgörən, qətiyyətli strateq, xalqımızın tarixində əvəzsiz yeri olan dahi şəxsiyyət Heydər Əliyevin sayəsində Azərbaycan müstəqil və suveren dövlət kimi formalaşaraq möhkəm təməllər üzərində inkişaf yoluna qədəm qoymuş, beynəlxalq arenada layiqli yer tutmuşdur.

Natiq vurğulayıb ki, Ümummilli liderin bütün fəaliyyəti dövlət müstəqilliyimizin qorunub saxlanmasına, ölkəmizin inkişafına və xalqımızın firavan yaşamasına həsr olunub. “Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!” deyən Ulu öndərin uzaqgörən siyasətinin nəticəsidir ki, sarsılmaz lider-xalq-ordu birliyi nəticəsində 30 il düşmən tapdağı altında qalmış tarixi ərazilərimiz 2020-ci ildə işğaldan azad olundu. Qarabağ Zəfəri dünya şöhrətli siyasətçi Heydər Əliyev ideologiyasının təcəssümü, Prezident İlham Əliyevin inamla həyata keçirdiyi milli dövlətçilik strategiyasının möhtəşəm təntənəsidir.

Çıxış edənlər belə tədbirlərin gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi, milli dəyərlərin təbliği, tarixi şəxsiyyətlərin irsinin yaşadılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Rəsmi hissədən sonra tədbir bədii proqramla davam edib. Tələbələrin ifasında dahi liderin xatirəsinə həsr olunmuş mahnılar, milli rəqs nümunələri böyük qarşılanıb.

Tədbirdə Şirvan rayonunun dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri, pedaqoji kollektiv və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

***XQ***

# “Yarımçıq qalmış ömürləri yaşadıram”

**Onunla çox görüşmüşəm. Dəfələrlə qonağı olmuşam. Söhbətcil adamdır. Müharibə xatirələrini elə ürəklə danışır ki… Bir də görürsən söhbət etdiyi yerdə kövrəldi, gözlərindən yaş gəldi. Neçə il bundan əvvəl söhbət zamanı dediyi sözlər bu gün də qulaqlarımda səslənir: “Oğul, o ağır, qanlı günlər tez-tez yuxuma girir. Keçdiyim döyüş yolunu xatırlayıram, hey xatırlayıram. Bu yollada bir-birindən igid, qəhrəman dostlarımı itirmişəm. Mən bu gün onların yarımçıq qalmış ömürlərini yaşayıram”. Bu onun – 101 yaşlı balakənli İosif Pavloviç Perekrestovun yaddaşıma hopmuş sözləridir.**



İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqı 600 mindən çox oğul və qızını cəbhəyə yola salıb, onların təxminən yarısı döyüşlərdə həlak olub. Faşizm üzərində tarixi Qələbənin əldə edilməsində Balakənin də qəhrəman oğul və qızlarının böyük əməyi var, qəhrəmanlıq nümayiş etdirib, rəşadət göstəriblər. Qafqazdan Berlinədək şanlı döyüş yolu keçiblər. Ön cəbhələrə yola salınan 6 minə yaxın balakənli döyüşçünün yarıdan çoxu müharibədən geri qayıtmayıb.

İkinci Dünya müharibəsində faşizm üzərində tarixi Qələbənin 81-ci ildönümü münasibətilə Balakən Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin və “Yeni Balakən” qəzetinin rəhbərliyi İosif Perekrestovu evində ziyarət ediblər. Veteran yenə də müharibə illərində şahidi olduqları məhrumiyyət və çətinliklərdən, keçdiyi döyüş yolundan xatirələr danışıb.

Müharibə veteranlarının ailə üzvlərinin də iştirak etdiyi görüşdə bildirilib ki, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra hər il 9 May Azərbaycanda dövlət səviyyəsində qeyd edilir. Hazırda müharibə veteranlarına dövlətimiz tərəfindən yüksək diqqət və qayğı göstərilir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2750 manat məbləğində birdəfəlik maddi yardımın verilməsi bu qayğının bariz nümunəsidir.

Veteran döyüşçü və ailə üzvləri müharibə veteranlarına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

***İ.MUSAOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# 2 cəbhədə keçmiş şərəfli ömrün 100 yaşı

**Keçmiş SSRİ-də 1941-1945-ci illər müharibəsinin iştirakçısı Mirzəxan Hüseynov yaşasaydı, bu il 100 yaşı tamam olacaqdı.**



1926-cı il mayın 20-də Kürdəmir rayonunun Çarlı kəndində anadan olan Mirzəxan Həsən oğlu Hüseynov ilk təhsilini Şamaxı şəhərində almışdır. Müharibə başlayanda əsgəri xidmətə yaşı çatmasa da, rayon hərbi komissarlığına müraciət edərək könüllü cəhbəyə getmişdi. Onun cəbhə yolu Tbilisi şəhərində 6 aylıq tankçılıq kursundan başlamışdı. Hərbçi yoldaşlarından yaşca kiçik olan Mirzəxan kursu başa vurduqdan sonra tankçı kimi Kuban şəhərində gedən döyüşlərə qatılmış, qısa müddətdə peşəkar tankçı kimi tanınmışdı. O, döyüşlərin birində sağ qolundan yaralanmış, Soçi şəhərində hərbi xəstəxanada müalicədən sonra yenidən tankçı kimi çətin və məsuliyyətli döyüş tapşırıqlarını yerinə yetirmişdi.

Müharibənin acılarını və çətinliklərini yaşamış Mirzəxan Hüseynov Vətənə döndükdən sonra cəmiyyətin inkişafı üçün müxtəlif sahələrdə xidmət etmiş, şərəfli ömür sürmüşdü.

Sinəsini I və II dərəcəli Vətən müharibəsi ordeni və 12 döyüş medalı bəzəyən soydaşımız sonrakı illərdə müəllimliyə başlamışdı. Əvvəlcə Şamaxı rayonu Xınıslı kənd ibtidai məktəbinin direktoru olmuşdu. Sonra onu Bakıda yeni açılmış hüquq məktəbinə göndərmişdilər. Burada təhsilini başa vurduqdan sonra Culfa Rayon Məhkəməsinə hakim təyin edilmişdi.

Azərbaycan Pedaqoji İnstitutunun coğrafiya fakültəsini bitirdikdən sonra Mirzəxan müəllim ömrünün qalan hissəsini pedaqoji fəaliyyətə həsr etmişdi. O, respublikanın ictimai-siyasi həyatında da fəal iştirak edərək 1965-ci ildən hər il yerli sovetə deputat seçilmişdi. Ömrünün 56 ilini təhsilə həsr edən Mirzəxan Hüseynov “Qabaqcıl maarif xadimi”, “SSRİ maarif əlaçısı,” “Sosializm yarışının qalibi” döş nişanları, SSRİ Mədəniyyət Nazirliyinin medal və nişanları və digər ali mükafatlarla təltif olunmuşdu.

Mirzəxan Hüseynov kimi şərəfli ömür yaşamış insanların döyüş və əmək cəblərində keçmiş həyatları indiki nəsillər üçün də örnəkdir.

***L.TƏHMƏZ***
***XQ***

# "Metrodan taksiyə" xidmət modeli

**Prezident İlham Əliyevin 2026-cı il mayın 7-də imzaladığı fərmanla "Bakı Metropoliteni" QSC "BakuBus" MMC və "Bakı Taksi Xidməti" MMC-nin ona qoşulması formasında yenidən təşkil edilib. Fərmanda açıq şəkildə qeyd olunur ki, məqsəd ictimai nəqliyyatda idarəetməni təkmilləşdirmək, xidmətləri bir-biri ilə daha sıx inteqrasiya etmək və şəhərdaxili mobilliyi daha keyfiyyətli təşkil etməkdir.**




Bu qərarın ən diqqətçəkən tərəfi ondan ibarətdir ki, "Bakı Metropoliteni" artıq yalnız yeraltı nəqliyyat operatoru kimi deyil, metro, avtobus, tramvay və taksi xidmətlərini bir sistem daxilində əlaqələndirən hüquqi şəxs kimi təsvir edilir. Fərmana əsasən, Cəmiyyət həmin sahələrdə sərnişindaşıma xidmətlərinin göstərilməsini, gediş haqqının ödənilməsi üzrə innovativ və rəqəmsal həllərin tətbiqini, yeni nəqliyyat infrastrukturu obyektlərinin layihələndirilməsi və tikintisini, həmçinin müxtəlif nəqliyyat növləri üzrə xidmətlərin vahid mərkəzdən idarə olunmasını təmin etməlidir.

Əslində, dövlət şəhər nəqliyyatını ayrı-ayrı adlar altında fəaliyyət göstərən qurumların cəmi kimi deyil, bir-birinə bağlı zəncir kimi görməyə başlayır. Metro, avtobus və taksinin bir holdinq məntiqinə yaxınlaşdırılması sərnişinin yolunu da bir xəttə salmaq deməkdir. Bu, nəqliyyat sisteminin "parçalanmış xidmət" modelindən birləşdirilmiş modelinə keçidi kimi oxunur və fərmanın əsas ruhu da məhz budur.

Fərman eyni zamanda hüquqi və təşkilati baxımdan da ciddi mərkəzləşmə yaradır. Sənədə görə, "BakuBus" və "Bakı Taksi Xidməti"nin bütün hüquq və öhdəlikləri, eləcə də əmlakı "Bakı Metropoliteni"nə keçir, yəni yeni qurum həmin şirkətlərin hüquqi varisinə çevrilir. Bundan başqa, Cəmiyyətin fəaliyyəti üçün 5 üzvdən ibarət Müşahidə Şurası və 5 üzvdən ibarət İdarə Heyəti nəzərdə tutulur. Yəni sistem daha çevik, vahid idarəetmə arxitekturasına köçürülür.

### Əlçatanlıq, sərfəlilik

Birinci fayda koordinasiyadır. Bu gün şəhər nəqliyyatında ən böyük problemlərdən biri müxtəlif xidmətlərin bir-birini tamamlamaması, sərnişinin bir nöqtədən digərinə keçidində boşluqlar yaranmasıdır. Metro bir qurumda, avtobus başqa yanaşmada, taksi isə ayrı idarəçilikdə olduqda vahid marşrut, cədvəl, sərnişin axını planlamaq çətinləşir. Fərman həmin səpələnmiş məntiqi bir mərkəzdə toplamağa çalışır.

İkinci fayda rəqəmsallaşmadır. Fərmanda xüsusi olaraq gediş haqqının ödənilməsi üzrə innovativ və rəqəmsal həllərin tətbiqi qeyd olunur. Bu, gələcəkdə tarif mexanizmi və sərnişin üçün daha sadə istifadə təcrübəsi demək ola bilər. Şəhər nəqliyyatında rahatlıq bəzən yeni relslərdən deyil, bir kartın, bir tətbiqin, bir keçidin yaratdığı asanlıqdan başlayır.

Üçüncü fayda infrastruktur planlaşdırmasıdır. Fərman metro, tramvay, avtovağzal, terminal, taksi və avtobuslara texniki xidmət göstərən sahələrin layihələndirilməsi və tikintisini də eyni sistemin tərkib hissəsi kimi göstərir. Bu yanaşma şəhərin nəqliyyat xəritəsini daha uzunmüddətli planlaşdırmağa imkan verə bilər. Yeni qərarlar bugünün artan sərnişin probleminə uyğun seçilə bilər.

### Birgə məsuliyyət

Ən əsas məqam idarəetmədə məsuliyyətin aydınlaşması olacaqdır. Fərmana əsasən yenidən təşkil olunan cəmiyyətin İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON-a) həvalə olunub. Məlum məsələdir ki, ayrı-ayrı şirkətlər arasında səlahiyyət bölgüsü bəzən məsuliyyətin də bölünməsinə gətirir. Bir sistemdə isə nəticə də, cavabdehlik də daha rahat görünür. Qeyd edək ki, AZCON-a yeni nizamnamə və strukturun üç ay müddətində razılaşdırılması tapşırılıb.

Ümumiyyətlə, nəqliyyatı şəhər idarəçiliyinin siniri kimi düşünülməlidir. Bakı kimi sıx, sürətlə böyüyən və gündəlik hərəkət yükü böyük olan bir şəhərdə nəqliyyat sistemi sosial rahatlığın da, iqtisadi səmərəliliyin də əsas dayaqlarından biridir. Bu fərman həmin dayağı yenidən bərkitməyə yönəlmiş strateji addım təsiri yaradır.

Nəticə etibarilə, bu qərar "Bakı Metropoliteni"nin funksional sərhədlərini genişləndirir və şəhər nəqliyyatını vahid idarəetmə mərkəzinə yaxınlaşdırır. Qərarın uğuru isə kağız üzərindəki birləşmədən çox, real həyatda sərnişinin hiss edəcəyi sürət, rahatlıq, dəqiqlik və əlaqəliliklə ölçüləcək. Əgər bu mərkəzləşmə doğru tətbiq olunarsa, Bakı nəqliyyatında yeni bir nəfəs, ritm və koordinasiya mərhələsi başlaya bilər.

***Nurlə ABDALOV***
***XQ***

*Ekspert rəyi*



**Raqif RAUFOĞLU,**
**nəqliyyat eksperti**

Burada əsas məsələ bütün nəqliyyat sisteminin vahid mərkəzdən idarə olunmasıdır. Təbii ki, bu, qısa müddətdə nəticə verəcək proses deyil. Bunun üçün müəyyən infrastruktur və idarəetmə bazası formalaşdırılmalıdır. Ancaq əsas məqsəd avtobus, metro və taksi kimi şəhərin əsas nəqliyyat vasitələrinin koordinasiyalı şəkildə idarə olunmasına nail olmaqdır.

Hazırda yeniliklərin tətbiqi zamanı müəyyən çətinliklər yaranır. Məsələn, avtobus sistemində tətbiq olunan hər hansı yenilik metroda və ya taksidə eyni vaxtda istifadə edilə bilmir. Çünki hər qurum fərqli idarəetmə prinsipi ilə fəaliyyət göstərir və sistemlər arasında inteqrasiya zəifdir.

Vahid idarəetmə modeli isə bütün nəqliyyat növlərində yeniliklərin paralel şəkildə tətbiqinə imkan yaradacaq. Məsələn, vahid kart sisteminin tətbiqi ilə sərnişin digər nəqliyyat vasitələrindən də istifadə edə biləcək. Avropa şəhərlərində geniş yayılmış "şəhər kartı" modeli də məhz bu prinsipə əsaslanır. Həmin kartlar vasitəsilə müxtəlif nəqliyyat növləri vahid sistemdə birləşdirilir.

Azərbaycanda isə indiyədək bunun tətbiqi çətin idi. Səbəb müxtəlif nəqliyyat qurumlarının ayrı-ayrı idarəetmə strukturlarına tabe olması, koordinasiyanın zəif qurulması və məlumat mübadiləsində problemlərin mövcudluğu idi.

Bu baxımdan əsas məqsəd bütün şəhər nəqliyyatının vahid mərkəzdən idarə olunması və tətbiq edilən yeniliklərin bütün nəqliyyat növlərinə eyni şəkildə şamil edilməsidir.

# bp-nin Azərbaycan elminə növbəti töhfəsi

**bp şirkəti ölkəmizdə təhsilə, uzunmüddətli potensialın inkişafına və enerji keçidinə dəstək məqsədilə daha bir sosial sərmayə layihəsini uğurla tamamlayıb. Layihə çərçivəsində şirkət gələcəyə yönəlmiş 3 kitabın Azərbaycan dilində nəşrinə dəstək verib.**



Təşəbbüs Azərbaycan dilində yeni bir kitabın hazırlanmasını və nəşrini, həmçinin beynəlxalq səviyyədə tanınmış 2 kitabın Azərbaycan dilinə tərcüməsini və nəşrini əhatə edib. Layihə Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti İctimai Birliyi tərəfindən icra həyata keçirilib.

"Açıq elmi öyrənmək üçün 12 modul" adlı yeni kitab açıq elmin əsas prinsiplərini və tətbiqini, o cümlədən açıq çıxış və tədqiqat məlumatlarından məsuliyyətli istifadə məsələlərinə həsr olunub. Nəşrin əsas məqsədi açıq elm sahəsində qlobal qabaqcıl təcrübə barədə anlayışı genişləndirmək, təhsil və tədqiqat prosesində açıq məlumatlardan istifadəni təşviq etmək, həmçinin tədqiqatçıların məlumatların açıqlanması və qorunması məsələlərində düzgün istiqamət tapmasına kömək etməkdir.

Kitab Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti İctimai Birliyinin sədri İlqar Orucov, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun Antropologiya Mərkəzinin aparıcı elmi işçisi Ruslan Rəhimli və beynəlxalq əmək bazarı üzrə ekspert və tədqiqatçı Manuela Hargassner-Delpos tərəfindən hazırlanıb.

Helqa Nouotninin müəllifi olduğu "Biz süni intellektə güvənirik: Güc, illüziya və proqnozlaşdırıcı alqoritmlərə nəzarət" adlı kitabın Azərbaycan dilinə tərcümə olunmuş nəşrində proqnozlaşdırıcı alqoritmlərin və süni intellektin gələcək, qeyri-müəyyənlik və nəzarət anlayışlarına təsirini təhlil edir. Kitab süni intellektin sosial, etik və institusional təsirlərini araşdırır, texnosentrik yanaşmaların məhdudiyyətlərini və qeyri-müəyyənliyin qəbul edilməsinin vacibliyini önə çəkir. Nəşrin məqsədi Azərbaycanın elmi və akademik ictimaiyyəti arasında süni intellekt mövzusunda məlumatlı müzakirələri təşviq etməkdir.

Daniel J.Fiorinonun müəllifi olduğu "Təmiz enerjiyə keçid: Aşağı karbonlu dünya üçün siyasətlər və strategiyalar" adlı kitabın Azərbaycan dilinə tərcümə olunmuş nəşri isə təmiz enerji keçidi üçün tələb olunan texnologiyalar, strategiyalar və siyasi çağırışlar barədə ümumi məlumat təqdim edir. Kitabda əsas diqqət enerjidən səmərəli istifadə, bərpaolunan enerji mənbələri, elektrikləşdirmə və digər aşağı karbonlu həllər üzrə dekarbonizasiya yollarına yönəlib. Bu sahədə güclü ictimai və siyasi çərçivələrin vacibliyini vurğulayan nəşr enerji strategiyaları və dayanıqlılıq sahələri ilə maraqlanan tələbələr, tədqiqatçılar və mütəxəssislər üçün nəzərdə tutulub.




Yeni nəşrlərin təqdimatına həsr olunmuş mərasimdə bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Azərbaycanda təhsilin inkişafına və bilik mübadiləsinə dəstək həmişə bp-nin sosial təşəbbüslərinin əsas istiqamətlərindən biri olub. Bu gün təqdim edilən nəşrlər müxtəlif mövzuları əhatə etsə də, vacib olan məqam onların elm, enerji və texnologiya sahələrində davamlı və məsuliyyətli inkişafın təmin edilməsi ilə müasir dünyanın əsas çağırışlarına cavab yollarını əhatə etməsidir.

Bu kitabların nəşrinə dəstək verməkdə məqsədimiz açıq elm, süni intellekt və təmiz enerji sahələrində qlobal düşüncəyə çıxışı genişləndirmək, yerli tədqiqatçıların, tələbələr, eləcə də ictimai və siyasi fikir adamlarının yeni ideyalarla tanış olmasına şərait yaratmaq, elmi potensialı gücləndirmək və gələcəyimizi formalaşdıran texnologiyalar və strategiyalar ətrafında məlumatlı müzakirələri təşviq etməkdir".

Layihənin ümumi dəyəri bir yeni kitabın hazırlanması və nəşri, eləcə də iki beynəlxalq kitabın Azərbaycan dilinə tərcüməsi və nəşri də daxil olmaqla 152 min 938 manat (90 min ABŞ dolları) təşkil edib.

***XQ***

**Dünyanın ən iri neft-qaz ixracı mərkəzlərindən sayılan Səngəçal terminalının əsas qurğuları yaxın illərdən etibarən elektrik enerjisi hesabına fəaliyyət göstərəcək. Bununla bağlı layihə 2025-ci il iyunun ilk günlərində keçirilən Bakı Enerji Həftəsi çərçivəsində həyata vəsiqə alıb. Ümumilikdə isə, ötən il investorlar Səngəçal terminalının elektrikləşdirilməsi layihəsi ilə bağlı 3 əsas müqavilə imzalayıblar.**

# Səngəçal terminalı elektrikləşdirilir



Hazırda həmin müqavilələr üzrə iş həcminə daxil olan fəaliyyətlər, o cümlədən mühəndis-layihələndirmə, təchizat, quraşdırma və tikinti işləri təhlükəsiz şəkildə və qrafikə uyğun olaraq davam edir. "bp-Azərbaycan" şirkətinin məlumatına əsasən, 2026-cı ilin birinci rübü ərzində Səngəçal Terminalının Elektrikləşdirilməsi (STEL) layihəsi çərçivəsində həm obyektin ərazisində, həm də kənarda aparılan tikinti işləri əhəmiyyətli dərəcədə irəliləyib.

Artıq "AzərEnerji" ASC tərəfindən terminalın ərazisindən kənarda yerləşən yeni yarımstansiyasının tikintisi tamamlanıb, hava xətlərinin quraşdırılması yekunlaşıb. Bununla yanaşı, ilin ötən dövründə terminalın ərazisində də tikinti-quraşdırma işləri qrafikə uyğun davam etdirilib. Layihənin 2027-ci ildə işə salınması istiqamətində mühüm mərhələ sinxron kondensatorun təchizatıdır ki, bu avadanlığın ilk modulu artıq sahəyə çatdırılıb.

Hazırda əsas tikinti və quraşdırma mərhələsində olan layihə çərçivəsində istismar sınaqlarının isə 2026-cı ilin üçüncü rübündə həyata keçirilməsi nəzərdə tututlur. Ümumilikdə, layihə üzrə tikinti işlərinin iki mərhələdə – 2027-ci ilin ortalarında və 2028-ci ilin sonunadək başa çatdırılacağı nəzərdə tutulur.

Qeyd edək ki, 230 milyon dollar dəyərində olan bu layihə terminalın "AzərEnerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulmasını təmin edəcək. Bunun üçün həm terminal ərazisində, həm də kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kilovoltluq elektrik yarımstansiyası inşa edilir. STEL layihəsi Səngəçal terminalının operatoru olan bp şirkəti tərəfindən həyata keçiriləcək və idarə ediləcək.

Yeri gəlmişkən, hazırda terminalın elektrik enerjisinə olan tələbatını ödəmək üçün 7 qaz turbinindən istifadə edilir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə demontaj olunacaq ki, bu da istifadə edilməyən yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə imkan yaradacaq. Ümumilkdə isə, Səngəçal terminalının elektrikləşdirilməsi layihəsini Azərbaycanın karbon emissiyalarının azaldılmasına yönəlik təqdirəlayiq addım kimi də dəyərləndirmək olar. Belə ki, enerji sistemdən veriləcək elektrik enerjisi daha az karbon sərfiyyatlı olduğu üçün terminaldakı neft-qaz əməliyyatlarından yaranan istixana qazları elektrikləşdirilmə nəticəsində azalacaq ki, bu da Xəzər regionunda emissiyaların azaldılmasına gətirib çıxaracaq.

STEL layihəsi Cəbrayıl rayonunda 240 meqavatlıq günəş elektrik stansiyasının tikintisini nəzərdə tutan "Şəfəq" günəş layihəsi ilə "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, "Şəfəq" stansiyasında istehsal ediləcək təmiz elektrik enerjisi Cəbrayıl rayonunun ərazisində "AzərEnerji" ASC-yə təhvil veriləcək. "AzərEnerji" isə eyni həcmdə elektrik enerjisini Bakı yaxınlığında yerləşən Səngəçal terminalına ötürəcək. Hazırkı proqnozlara və planlara əsasən, "Şəfəq" və STEL layihələri birlikdə Səngəçal terminalının gələcək istismar dövründə terminal əməliyyatlarından yaranan emissiyaların, təxminən, 50 faiz azaldılmasına imkan yaradacaq.

2025-ci ilin iyun ayında yekun investisiya qərarı qəbul edildikdən sonra "Şəfəq" layihəsi üzrə biri mühəndislik, təchizat və tikinti xidmətləri üzrə bütün iş həcmini, eləcə də obyektin ilk iki il ərzində istismar və texniki xidmət işlərini əhatə edən, digəri isə modul təchizatı üçün olan 2 əsas müqavilə imzalanıb. Həmin müqavilələr çərçivəsində layihə sahəsində hazırlıq tədbirləri tamamlanaraq tikinti işlərinə start verilib. Bununla yanaşı, modul təchizatı üzrə işlərə də başlanılıb və ilk panellər avqust ayında uğurla əraziyə çatdırılıb.

"bp-Azərbaycan" şirkətindən verilən məlumata əsasən, bu ilin ilk rübündə "Şəfəq" günəş layihəsi üzrə tikinti işləri qrafikə uyğun davam etdirilib. Artıq fotovoltaik modullar, payalar və struktur komponentləri daxil olmaqla əsas avadanlıqların təchizatı və çatdırılması uğurla tamamlanıb. Ötən müddətdə payaların və izləyici sistemlərin quraşdırılması üzrə işlərdə də ciddi irəliləyiş əldə olunub. Artıq həmin avadanlıqların, təxminən, 30 faizi quraşdırılıb.

Aprel ayının əvvəlində stansiyanın ərazisində ilk günəş panelinin quraşdırılması ilə layihə növbəti mərhələyə qədəm qoyub. Eyni zamanda, layihə üzrə tikinti işlərində yerli resurslardan daha çox istifadə olunur. Belə ki, hazırda layihəyə, təxminən, 350 nəfər yerli işçi cəlb edilib ki, onların da 123-ü işğaldan azad olunmuş ərazilərdə məskunlaşan sakinlərdir. Tikintinin pik dövründə layihədə 400-ə yaxın iş yerinin yaradılacağı gözlənilir. Artan işçi qüvvəsinin yerləşdirilməsi üçün isə sahədəki mövcud yaşayış blokları genişləndirilir.

"Şəfəq" layihəsi çərçivəsində ətraf mühitin qorunmasına da xüsusi diqqət göstərilir. Tikinti sahəsinin bitki örtüyündən təmizlənməsi işlərinin monitorinqi aparılır və vəhşi heyvanların sahədən təhlükəsiz şəkildə köçürülməsi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əlaqələndirilərək həyata keçirilir. Layihə üzrə tikinti işlərinin 2027-ci ilin ortalarına qədər davam edəcəyi planlaşdırılır.

Yeri gəlmişkən, Bakıdan 45 kilometr cənubda yerləşən Səngəçal terminalı 28 ildən çoxdur ki, Azərbaycanın neft sənayesinə xidmət göstərir. Ümummilli lider Heydər Əliyevin yeni neft strategiyasının təntənəsi olan bu terminal dünyanın böyük neft-qaz ixracı mərkəzlərindən biridir. Müasir sənaye şəhərciyini xatırladan Səngəçal terminalında xam neftin qəbulu üçün nəhəng çənlər, baş nasos stansiyası, separatorlar, emal qurğuları və idarəetmə məntəqəsi fəaliyyət göstərir.

Xəzər dənizində quraşdırılmış nəhəng qurğuların, ən müasir texnologiyaların imkanları və fədakar neftçilərin gərgin əməyi sayəsində hasil edilən karbohidrogenlər sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına nəql olunur. Eyni zamanda, bura fiber-optik rabitə kabelləri, sahildən 187 kilometr məsafədə yerləşən dəniz yataqlarından neft və qaz kəmərləri çəkilib. Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri, Bakı–Supsa, Bakı–Novorossiysk, Cənubi Qafqaz boru kəməri, Cənub Qaz Dəhlizi, eləcə də SOCAR-a məxsus qaz kəməri də öz başlanğıcını məhz buradan–Səngəçal terminalından götürür.

1997-ci il noyabr ayının 12-də ulu öndər Heydər Əliyevin iştirakı ilə istifadəyə verilən Səngəçal terminalı ilk vaxtlar yalnız "Çıraq" neftini ixrac etmək üçün layihələndirilib. "Azəri" və "Dərinsulu Günəşli" yataqlarının istismara verilməsi ilə başlanan böyük neft hasilatı isə terminalın genişləndirilməsinə zərurət yaradıb. Bu məqsədlə 2002-ci il fevralın 20-də Səngəçal terminalının genişləndirilməsi proqramının icrasına başlanılıb. "Azfen-Tekfen" Azərbaycan–Türkiyə alyansının podratçısı olduğu Səngəçal terminalının genişləndirilməsi proqramı isə 2007-ci ildə tamamlanıb.

Hazırda terminalın texniki emal sistemlərinin gündəlik gücü 1,2 milyon barel neft və kondensat, "Şahdəniz" qazı üçün, təqribən, 81 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik, təxminən, 100 milyon standart kubmetrdir. Ötən il terminaldan BTC vasitəsilə 209 milyon barel neft və kondensat nəql edilib. İl ərzində terminaldan, həmçinin gündəlik orta hesabla, təxminən, 74,4 milyon kubmetr "Şahdəniz" qazı ixrac olunub. Qaz buradan Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi sistemi də daxil olmaqla, əsasən, Cənubi Qafqaz Boru Kəməri və terminalın qaz emalı obyektlərini "Azəriqaz"ın qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac edilir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# İkinci Dünya müharibəsi: qlobal faciə, siyasi dönüş və insanlıq dərsləri

**İkinci Dünya müharibəsi XX əsrin ən sarsıdıcı və miqyas baxımından ən geniş münaqişəsi olmaqla yanaşı, beynəlxalq sistemin dərin struktur böhranının nəticəsi kimi meydana çıxmış qlobal faciə idi. 1 sentyabr 1939-cu ildə nasist Almaniyasının Polşaya hücumu ilə başlayan bu müharibə qısa müddətdə regional qarşıdurmadan dünya miqyaslı münaqişəyə çevrildi. Müharibəyə 60-dan çox dövlət cəlb olunmuşdu ki, bu da dünya əhalisinin təxminən 80 faizini əhatə edirdi. Döyüş əməliyyatları Avropa, Asiya və Afrika qitələrində, eləcə də Atlantik, Sakit, Hind və Şimal Buzlu okeanlarında aparılırdı. Ümumilikdə 40-a yaxın dövlətin ərazisi birbaşa müharibə zonasına çevrildi. Müharibə zamanı təxminən 110 milyon nəfər silahlı qüvvələrə səfərbər olundu. Canlı itki sayı dəqiq müəyyənləşdirilməsə də, 60-70 milyon insanın həlak olduğu qəbul edilir və bir çox tədqiqatlar bu rəqəmin daha yüksək olduğunu göstərir.**




## Siyasi və ideoloji səbəblər: Versal sistemindən totalitarizmə

Müharibənin əsas səbəblərindən biri Versal müqaviləsi ilə yaradılmış ədalətsiz beynəlxalq sistem idi. Almaniyanın ağır təzminat öhdəlikləri, ərazi itkiləri və hərbi məhdudiyyətləri cəmiyyətdə dərin narazılıq və alçaldılmışlıq hissi yaratdı. Bu psixoloji və sosial mühit revanşist ideyaların yayılmasına səbəb oldu ki, nəticədə Adolf Hitler rəhbərliyində nasizm gücləndi. Eyni dövrdə İtaliyada faşizm, Yaponiyada isə militarizm ideologiyaları yüksələrək beynəlxalq sistemdə təcavüzkar güc mərkəzlərinin formalaşmasına gətirib çıxardı.

**ARAYIŞ:** *Faşizm Birinci Dünya müharibəsindən sonra Avropada yaranmış radikal millətçi və totalitar siyasi ideologiyadır. Bu cərəyan rəsmi olaraq 1919-cu ildə Benito Mussolini tərəfindən İtaliyada "Döyüş dəstələr" təşkilatının qurulması ilə formalaşmağa başladı. İdeologiyanın adı latınca "fasces" (birliyə və gücə işarə edən, ortasında balta olan çubuq bağlaması) ifadəsindən götürülüb. Faşizmin yüksəlişi üçün əsas zəmin 1929-cu ildə başlayan "Böyük depressiya" oldu. İqtisadi böhran nəticəsində işsizlik İtaliyada kəskin artmış, Almaniyada isə 1932-ci ildə işsizlərin sayı 6 milyona çatmışdı. Bu xaos mühitindən istifadə edən faşist və nasist partiyaları sürətlə gücləndi.*

Faşizmin dövlət idarəçiliyinə çevrilməsi bir neçə mərhələdə baş verdi. 1922-ci ildə İtaliyada Mussolini hakimiyyəti ələ keçirdi. Almaniyada isə bu ideologiyanın ən radikal forması olan nasizm 1933-cü ilin yanvarında Adolf Hitlerin kansler təyin edilməsi ilə dövlət siyasətinə çevrildi. Faşizm fərdi azadlıqları tamamilə rədd prinsipinə əsaslanırdı. Məsələn, Mussolininin hakimiyyəti dövründə İtaliyada 1926-cı ildə bütün müxalif partiyalar qadağan edildi. Almaniyada isə 1934-cü ildə "Uzun bıçaqlar gecəsi" əməliyyatı ilə partiyadaxili müxalifət fiziki olaraq məhv edildi. Bu ideologiya qısa müddətdə bütün Avropaya yayıldı. İspaniyada Fransisko Franko 1936-1939-cu illər vətəndaş müharibəsindən sonra faşist tipli diktatura qurdu.



## Total müharibə və qlobal cəbhələrin formalaşması

Müharibə qısa müddətdə total xarakter aldı. Sənaye və iqtisadiyyat hərbi məqsədlərə yönəldildi, mülki əhali isə birbaşa hədəfə çevrildi. Almaniyanın Avropadakı sürətli işğalları, 1941-ci ildə SSRİ-yə hücumu və eyni ildə Pörl Harbor hücumu nəticəsində ABŞ-ın müharibəyə qoşulması münaqişəni qlobal mərhələyə daşıdı. Asiyada Yaponiyanın genişlənməsi və Sakit okean cəbhəsinin açılması müharibənin coğrafiyasını daha da genişləndirdi.

İkinci Dünya müharibəsi 1945-ci il sentyabrın 2-də rəsmən başa çatsa da, onun yaratdığı acı fəsadlar onilliklər boyu dünyanı öz təsiri altında saxlamağa davam etdi. Müharibənin gətirdiyi fəsadlar insanlıq üçün misli görünməmiş faciə idi. On milyonlarla insanın həyatına son qoyan bu qanlı münaqişədə itkilərin böyük əksəriyyəti, təəssüf ki, müdafiəsiz qalan mülki əhali arasında oldu. İnsan itkilərinin miqyası ölkələr üzrə müxtəlif olsa da, onların hər biri dərin demoqrafik izlər buraxdı. SSRİ 26,6 milyon insan itkisi ilə müharibədə ən ağır zərbəni alan dövlət oldu. Asiya cəbhəsində isə Çində təxminən 5 milyon hərbi itki ilə yanaşı, aclıq, xəstəlik və işğalçıların repressiv siyasəti nəticəsində 18 milyona yaxın mülki şəxs həlak oldu. Avropa məkanında Polşa əhalisinin təxminən 17 faizini, yəni 6 milyon insanını itirərək ən ağır demoqrafik zərbəyə məruz qalan ölkələrdən oldu. Almaniya və müttəfiqləri 8-13 milyon, Yaponiya 2,5-3 milyon, Yuqoslaviya isə 1,7 milyonluq itki ilə müharibədən çıxdı. Qərbi Avropa ölkələri də bu qlobal fəlakətdən kənarda qalmadı. Fransa 567 min (200 min hərbçi, 367 min mülki), Böyük Britaniya isə 450 min (380 min hərbçi, 70 min mülki) vətəndaşını itirdi. ABŞ isə əsasən hərbi itkilər olmaqla 418 min itki verdi.

## Holokost və nüvə dövrünün başlanğıcı

İkinci Dünya müharibəsində konsentrasiya düşərgələri və qaz kameraları insanlıq tarixində görünməmiş qəddarlığın simvoluna çevrildi və bu sistemli məhv siyasəti Holokost çərçivəsində milyonlarla insanın həyatına son qoydu. Holokost bəşəriyyətin ən dəhşətli faciələrindən biri olaraq, nasist Almaniyasının sistemli şəkildə yürütdüyü soyqırımı siyasətinin acı nəticəsidir. Bu qaranlıq dövrdə yaradılan Auşviç-Birkenau, Treblinka, Sobibor və Maydanek kimi ölüm düşərgələri milyonlarla insanın kütləvi şəkildə məhv edildiyi ölüm fabriklərinə çevrilmişdi. 1945-ci ildə bu düşərgələrə daxil olan ilk sovet əsgərləri gözlənilməz və sarsıdıcı mənzərə ilə qarşılaşdılar. Düşərgəyə girən sovet zabitlərindən biri həmin anı belə təsvir edirdi: "Bizim qarşımızda dayanan insanlar artıq canlı deyildilər. Onlar sadəcə quru sümük yığınını xatırladan, gözlərində işıq sönmüş ruh kölgələri idi. Havada yanan insan əti və kimyəvi maddələrin ağır, boğucu qoxusu var idi. Hər tərəf insanların şəxsi əşyaları, saçları və yarımçıq qalmış həyatlarının qalıqları ilə dolu idi. Bu, insanın bəşər övladına vurduğu ən böyük yara idi və biz bunu heç vaxt unuda bilməyəcəyik".

## Atom erası: Xirosima və Naqasaki fəlakəti

Eyni zamanda, Xirosima və Naqasakiyə atom bombalarının atılması müharibənin yeni, daha təhlükəli mərhələsini nümayiş etdirdi. Nüvə silahının istifadəsi yalnız ani dağıntılarla məhdudlaşmadı, həm də uzunmüddətli radiasiya təsirləri ilə milyonlarla insanın həyatına və sağlamlığına təsir göstərdi. 1945-ci ilin avqustunda Xirosima və Naqasakiyə atılan atom bombaları bəşəriyyəti müharibənin yeni, daha dağıdıcı mərhələsi olan nüvə dövrünə daxil etdi. Avqustun 6-da Xirosimaya atılan "Little Boy" (Uran) və avqustun 9-da Naqasakiyə atılan "Fat Man" (Pluton) bombaları təkcə hərbi hədəfləri deyil, bütöv bir şəhər infrastrukturunu və mülki əhalini saniyələr içində məhv etdi. Bu hadisə texnoloji inkişafın nəzarətsiz qaldıqda insanlıq üçün necə dəhşətli ekzistensial təhlükəyə çevrilə biləcəyini göstərən ən ağır sübutdur. Hər iki şəhərdə baş verən dağıntılar yüksək istilik dalğası və zərbə gücü 1.6 kilometr radiusda olan hər şeyi yerlə-yeksan etdi. Bunun ardınca gələn radiasiya fəsadları on minlərlə insanın həyatına uzun illər boyu davam edən ağrılar və genetik qalıcı zərərlər əlavə etdi. Rəsmi rəqəmlər göstərir ki, Xirosimada ani və sonrakı illərdə ümumilikdə 140 minə yaxın, Naqasakidə isə 74 minə yaxın insan həlak olub.

## İqtisadi dağıntılar

İkinci Dünya müharibəsi həm də misilsiz iqtisadi dağıntılarla yadda qaldı. Qlobal iqtisadiyyatın ümumi itkiləri 4 trilyon dollardan çox qiymətləndirilir ki, bu da XX əsrin ilk yarısı üçün görünməmiş miqyas hesab olunur. Müharibə zamanı 10000-dən çox yaşayış məntəqəsi dağıntıya məruz qaldı, yüzlərlə şəhər demək olar ki, tamamilə yerlə-yeksan edildi. Nəqliyyat infrastrukturu geniş şəkildə məhv edildi ki, bu da iqtisadi fəaliyyətin bərpasını daha da çətinləşdirdi.

Müharibədən sonra bir çox ölkə iqtisadi dirçəliş üçün xarici yardıma ehtiyac duydu. Bu kontekstdə ABŞ-ın "Marşal planı" (Marşal tələsi?! – red.) Qərbi Avropanın bərpasında mühüm rol oynadı və regionda iqtisadi sabitliyin yenidən qurulmasına təkan verdi. Eyni zamanda, Almaniya və Yaponiya kimi ölkələr müharibədən sonra sürətli inkişaf mərhələsinə daxil oldular, lakin bu proses uzunmüddətli struktur islahatlar və beynəlxalq dəstək nəticəsində mümkün oldu.

## Müharibədən sonrakı dünya nizamı və Birləşmiş Millətlər Təşkilatı

Müharibənin başa çatması ilə dünya siyasi baxımdan köklü şəkildə dəyişdi. 1945-ci il oktyabrın 24-də Birləşmiş Millətlər Təşkilatı (BMT) yaradıldı və beynəlxalq sülhün qorunması üçün yeni mexanizm formalaşdırıldı. Lakin bu əməkdaşlıq uzunmüddətli olmadı. Qısa müddət sonra ABŞ və SSRİ arasında "Soyuq müharibə" başladı və dünya iki ideoloji blok üzrə bölündü. Bu qarşıdurmanın əsas mahiyyəti kapitalizm və sosializm ideologiyaları arasındakı ziddiyyət idi. ABŞ liberal-demokratik və bazar iqtisadiyyatı modelini müdafiə edir, SSRİ isə mərkəzləşdirilmiş planlı iqtisadiyyat və kommunist sistemini yaymağa çalışırdı. Bu fərq beynəlxalq münasibətləri iki blok üzrə qütbləşdirdi. Avropa Soyuq müharibənin əsas geosiyasi mərkəzinə çevrildi. Qitənin Şərq və Qərb olmaqla bölünməsi, xüsusilə Almaniyanın bölünməsi, bu ideoloji qarşıdurmanın simvolu oldu.

## Cinayətin cəzası: Nürnberq tribunalı

Müharibədən sonra nasist cinayətlərinə hüquqi qiymət vermək məqsədilə Nürnberq prosesi keçirildi. 20 noyabr 1945-ci ildən 1 oktyabr 1946-cı ilədək davam edən bu tribunal beynəlxalq hüquqda ilk dəfə "insanlıq əleyhinə cinayətlər" anlayışını təsbit etdi və dövlət rəhbərlərinin fərdi məsuliyyət prinsipini formalaşdırdı. Prosesin ağırlıq yükünü əks etdirən rəqəmlər onun miqyasından xəbər verir. 24 nasist lideri və 8 cinayətkar təşkilatın mühakimə olunduğu tribunalda 12 nəfər edam, 7 nəfər isə müxtəlif müddətli həbs cəzalarına məhkum edildi, proses çərçivəsində on minlərlə sənəd, foto və video sübutla nasist rejiminin sistematik cinayətləri rəsmi olaraq arxivləşdirildi.

**ARAYIŞ:** *Əgər Adolf Hitler İkinci Dünya müharibəsinin sonunda intihar etməyib sağ ələ keçirilsəydi, onun aqibəti Nürnberq tribunalında formalaşan hüquqi prinsiplərə əsasən, ən ağır cəza – ölüm hökmü olardı. Nürnberq prosesində tətbiq edilən "sülh əleyhinə cinayətlər", "müharibə cinayətləri" və ən əsası "insanlıq əleyhinə cinayətlər" kateqoriyaları üzrə irəli sürülən ittihamlar rejimin birbaşa memarı və rəhbəri olan Hitler üçün şübhəsiz ki, ən yüksək məsuliyyət doğururdu. O dövrün hüquqi müstəvisində, tribunalın əsas təşəbbüskarı olan müttəfiq dövlətlərin (ABŞ, Böyük Britaniya, SSRİ və Fransa) ümumi rəyi, kütləvi qırğınların və müharibənin miqyası nəzərə alınmaqla, onun ömürlük həbs və ya sürgün kimi daha mülayim cəzalarla məhdudlaşdırılmasını qəbulolunmaz sayırdı. Odur ki, hətta beynəlxalq hüququn o dövr üçün yeni olan "fərdi məsuliyyət" prinsipi tətbiq edilsəydi belə, Hitlerin törətdiyi cinayətlərin həcmi və onların sistemli xarakteri məhkəmənin yalnız ən ali cəza olan edam hökmünə gətirib çıxaracağı hüquqi baxımdan qaçılmaz hesab olunurdu.*

## İkinci Dünya müharibəsi və Azərbaycan

II Dünya müharibəsi Azərbaycan getməyə məcbur olduğu ağır, amma həm də şərəfli yol idi. Faşist Almaniyasının "Barbarossa" planına əsasən, 1941-ci il iyunun 22-si səhər obaşdan SSRİ-yə hücumu ilə başlayan bu mərhələ Azərbaycan üçün "Böyük Vətən müharibəsi" deyilən (SSRİ-nin təbliğat maşını sovet xalqının ümumi mənafeyi naminə cahan savaşını belə qələmə verirdi) çevrildi. Hitler hələ 1940-cı ilin iyulunda Bakı neftini ələ keçirməyi müharibənin taleyini həll edəcək əsas hədəf kimi seçmişdi. Bu məqsədlə Rozenberqin Şərq İşləri üzrə Nazirliyi nəzdində Qafqaz Komissarlığı yaradılmış və Bakının işğalı 1941-ci ilin sentyabrının axırına planlaşdırılmışdı.

Bakı nefti müharibənin gedişatında həlledici amil idi. Hitlerin feldmarşal Manşteynə dediyi bu cümlə Bakının almanlar üçün nə qədər önəm kəsb etdiyini başa düşməyə imkan verir: "Biz mütləq Bakını tutmalıyıq. Əgər biz Bakı neftini ələ keçirməsək, müharibəni uduzacağıq". Faşistlər Bakının alınacağına o qədər əmin idilər ki, üzərində Xəzər dənizi və Bakı təsvir edilmiş xüsusi tort hazırlamışdılar. 1942-ci il iyulun 23-də imzalanan 45 nömrəli direktiv ilə təsdiqlənmiş "Edelveys" planı Bakı, Maykop və Qroznı neft rayonlarının işğalını nəzərdə tuturdu. Müharibə illərində Baltik dənizindən Qara dənizə qədər uzanan cəbhənin yanacaq ehtiyacının 80, sürtkü yağlarının isə 90 faizini Azərbaycan təmin edirdi. 1940-1945-ci illərdə SSRİ-də




çıxarılan 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü.

## Qələbənin bədəli Azərbaycan üçün ağır oldu

Müharibənin ilk günlərindən etibarən Azərbaycan SSR ərazisində fövqəladə vəziyyət və ümumi səfərbərlik elan edilməsi xalqın bütün təbəqələrini vahid məqsəd ətrafında birləşdirdi. Cəbhə xəttindən uzaqda yerləşməsinə baxmayaraq, respublikada daxili asayişin qorunması və mümkün təxribatların qarşısının alınması üçün qısa müddət ərzində 87 qırıcı batalyon və 1124 özünümüdafiə dəstəsi təşkil olundu ki, bu da yerli əhalinin müdafiə qabiliyyətini yüksək səviyyəyə qaldırdı. 1941–1945-ci illəri əhatə edən qanlı savaş dövründə Azərbaycanın şəhər və kəndlərindən 600 mindən çox gənc oğlan və qız vətənpərvərlik hissi ilə cəbhəyə yollanmışdı. Onların arasında nəinki peşəkar hərbçilər, həm də könüllü olaraq silaha sarılan müəllimlər, tələbələr və fəhlələr var idi ki, bu da müharibənin Azərbaycan xalqı üçün ümummilli mübarizəyə çevrildiyinin sübutu idi.

Təəssüf ki, göstərilən bu misilsiz şücaət xalqımız üçün çox ağır bədəl hesabına başa gəldi. Cəbhəyə yollananların təxminən 300 min nəfəri, yəni yarısı döyüş meydanlarında qəhrəmancasına həlak oldu və ya itkin düşdü. O dövrdə Azərbaycan övladlarının göstərdiyi rəşadət dövlət tərəfindən yüksək qiymətləndirildi: 128 azərbaycanlı döyüşçü SSRİ-nin ən ali hərbi mükafatı olan "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görüldü. Lakin qazanılan bu şərəf və qələbə sevinci respublikanın yaşadığı faciənin miqyasını ört-basdır edə bilməzdi... Əmək qabiliyyətli və gənc nəslin böyük bir hissəsinin itirilməsi ölkənin həm iqtisadi potensialına, həm də gələcək demoqrafik artım tempinə onilliklər boyu mənfi təsir göstərən sarsıdıcı zərbə oldu.

## Qafqazdan Berlinə qədər uzanan döyüş yolu

Döyüş meydanlarında Azərbaycan milli diviziyalarının göstərdiyi rəşadət əsl əfsanəyə çevrilmişdi. 77-ci milli atıcı diviziyası (Simferopol diviziyası) Krım, Taman və Sevastopolun azad edilməsində fərqlənmiş, serjant Əbdüləziz Qurbanov 1943-cü ildə Sapunqarada qələbə bayrağını sancmışdır. 223-cü diviziya Mozdokdan başlayaraq Belqrad və Vyanaya qədər döyüş yolu keçmiş, general Heybət Heybətovun komandanlığı altında böyük uğurlar qazanmışdı. 402-ci diviziya Şimali Qafqazda, Terek çayı sahilində düşmənə ağır zərbələr endirmişdi. 416-cı Taqanroq diviziyası isə Qafqazdan Berlinə qədər 2500 kilometr məsafəni döyüşlərlə qət edərək, Berlinin süqutunda və Brandenburq darvazası üzərində qələbə bayrağının sancılmasında xüsusi fəallıq göstərib. Marşal Jukov bu diviziyanın Berlindəki fəaliyyətini yüksək qiymətləndirib. Şəxsi qəhrəmanlıqlar sırasında ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun Pustinka kəndi yaxınlığındakı 10 saatlıq qeyri-bərabər döyüşü, təyyarəçi Hüseynbala Əliyevin Leninqrad səmasında 17 yara almasına baxmayaraq, təyyarəsini salamat yerə endirməsi və iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun tank briqadalarının manevrləri tarixin qızıl səhifələridir.

Partizan hərəkatı və Avropadakı müqavimət hərəkatında azərbaycanlılar geniş coğrafiyada fəaliyyət göstərdilər. Novxanılı Mehdi Hüseynzadə ("Mixaylo") Yuqoslaviya və İtaliya ərazisində faşistlərə qan udduran kəşfiyyat-diversiya əməliyyatları ilə dünya tarixinə keçmişdir. Fransanın Rodez şəhəri yaxınlığında şəkili Əhmədiyyə Cəbrayılov, Hüseynrza Məmmədov və digərləri fransız partizanları ilə çiyin-çiyinə vuruşmuşdular. Polkovnik Rişardın "Fransa azərbaycanlıların igidliyini unutmayacaq" sözləri bu dostluğun sübutudur. Arxa cəbhədə isə Azərbaycan qadınları gecə-gündüz çalışaraq cəbhəyə 130-dan çox növ silah və sursat hazırlamışdılar. Xalq könüllü şəkildə cəbhəyə öz şəxsi vəsaitindən – ailə büdcəsindən, qız-gəlinin cehizliyindən müdafiə fonduna 15 kiloqram qızıl, 952 kiloqram gümüş və 320 milyon rubl ianə edib. Döyüşlərdə yaralanmış 440 min nəfər Bakı hospitallarında müalicə olunub. Müharibə nəticəsində Azərbaycan 300 mindən çox övladını itirsə də, öz tarixi missiyasını şərəflə yerinə yetirib.

## Nəticə

İkinci Dünya müharibəsi bəşəriyyəti faşizm taunundan xilas etməklə yanaşı, həm də köhnə müstəmləkə imperiyalarının süqutuna və bu gün nizamı pozulmuş BMT-nin yaranmasına rəvac verən dönüş nöqtəsi oldu. Bakı nefti olmasaydı, müharibənin taleyi tamamilə fərqli istiqamətdə inkişaf edər, nəinki SSRİ-nin superdövlətə çevrilməsi, hətta bugünkü demokratik Avropa modelinin bərpası belə böyük ölçüdə mümkün olmazdı. Beləliklə, qlobal miqyasda qazanılan hərbi zəfər və ondan sonra formalaşan iqtisadi-siyasi sabitlik birbaşa Azərbaycanın enerji resurslarının və elmi potensialının üzərində ucaldı.

Nəticə etibarilə, İkinci Dünya müharibəsi Azərbaycanın həm strateji gücünü, həm də sarsılmaz milli iradəsini beynəlxalq miqyasda təsdiqlədi. Müharibənin gətirdiyi dekolonizasiya ruhu və cəbhədə bərkiyən milli özünüdərk onilliklər sonra müstəqilliyimizin bərpası üçün zəruri olan mənəvi sütunları formalaşdırdı. Bu gün Azərbaycanın beynəlxalq arenadakı çəkisi və nüfuzu 1941–1945-ci illərdə bəşəriyyəti qarşısında yerinə yetirilmiş o böyük xilaskarlıq missiyasının məntiqi davamıdır. Xalqımızın bu fədakarlığı dünya sivilizasiyasının Azərbaycan qarşısındakı silinməz tarixi borcu, gələcək nəsillər üçün isə qürur mənbəyidir.

*XQ-nin Analitik Mərkəzi*

# Şərqdən Qərbə mötəbər marşrut

## Orta Dəhliz qlobal böhranlar fonunda nicat yoluna çevrilir

**Son illər dünyada baş verən geosiyasi qarşıdurmalar və regional münaqişələr beynəlxalq ticarət marşrutlarının təhlükəsizliyini ciddi şəkildə sual altına qoyub. Rusiya–Ukrayna müharibəsi, Qırmızı dənizdə artan təhlükələr və İran ətrafında yaranan gərginlik ənənəvi nəqliyyat xətlərinin fəaliyyətinə ciddi təsir göstərib. Bu isə Asiya ilə Avropa arasında alternativ və etibarlı daşınma marşrutlarına ehtiyacı daha da artırıb. Bu vəziyyətdə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu – Orta Dəhliz strateji əhəmiyyəti ilə ön plana çıxmağa başlayıb.**

Meyerin sözlərinə görə, İranla müharibə Orta Dəhlizin əhəmiyyətini bir daha təsdiqləyib. Bu marşrut boyunca yerləşən ölkələrin hökumətləri sabitdir; infrastruktur investisiyaları modernləşdirilir və sürətləndirilir; siyasi rəhbərlik isə Vaşinqtonun diplomatiyada təklif etdiyi, lakin qanunvericilik və kapital ilə kifayət qədər dəstəkləmədiyi səviyyədə Qərb tərəfdaşları ilə fəal əməkdaşlıq qurmağa çalışır.




Azərbaycan ərazisindən keçən bu marşrut Şərqlə Qərb arasında yükdaşımaların fasiləsiz təmin olunmasında mühüm rol oynayır. Orta Dəhliz yalnız logistika baxımından deyil, enerji təhlükəsizliyi və iqtisadi əməkdaşlıq baxımından da xüsusi əhəmiyyət daşıyır. Son illərdə tranzit yüklərin həcminin artması bu dəhlizə beynəlxalq marağın sürətlə yüksəldiyini göstərir. Mövcud geosiyasi reallıqlar fonunda Orta Dəhliz artıq qlobal ticarətin əsas strateji bağlantılarından biri kimi qiymətləndirilir. 2026-cı ilin əvvəlində ABŞ və İsrailin İrana qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlaması və İranın Hörmüz boğazını bağlamasından sonra Orta Dəhlizin əhəmiyyəti daha da artıb. Xüsusilə, "Şimal–Cənub" dəhlizi ilə Avropadan Mərkəzi Asiyaya daşınan yüklərin bir hissəsi də bu marşruta yönləndirilib. Son dövrlər İran ərazisində risklərin artması səbəbindən Mərkəzi Asiyaya yük daşıyan TIR-lar Ələt Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə Qazaxıstan və Türkmənistana göndərilir.

* * *

Vaşinqtondakı Xəzər Siyasət Mərkəzinin elmi əməkdaşı, enerji təhlükəsizliyi, dövlət idarəçiliyi, geosiyasi risklər və Mərkəzi Asiyanın siyasi iqtisadiyyatı üzrə ixtisaslaşmış analitiki Akbota Karibayeva Meyer ABŞ-ın nüfuzlu "Stars and Stripes" hərbi nəşrində dərc olunan məqaləsində yazır ki, Birləşmiş Ştatlar bu dəhlizin dəstəklənməsi və inkişafı üçün təxirəsalınmaz addımlar atmalıdır.

Amerikalı analitik yazır ki, Rusiyanın ərazisindən keçən quru marşrutu – Şimal dəhlizi – Moskvanın 2022-ci ildə Ukraynaya müdaxiləsindən sonra tətbiq edilən sanksiyalar səbəbindən Qərb yükdaşıyanları üçün bağlı olaraq qalır. Hind okeanına çıxışı təmin edən İranın cənub limanları – Çabahar və Bəndər-Abbas bombardmanlara məruz qalıb. Qırmızı dəniz isə 2023-cü ildən etibarən husilərin hücum təhlükəsi altındadır; 2022–2025-ci illər arasında bu marşrutdan keçən gəmilərin sayı və ümumi tonnajı iki dəfə azalıb. Bu şəraitdə Xəzər dənizi, Cənubi Qafqaz və Türkiyə vasitəsilə Mərkəzi Asiya və Çini Avropa ilə birləşdirən multimodal marşrut – Orta Dəhliz tranzit yük daşımalarını qəbul etməyə davam edir. "Müxtəlif böhranların ard-arda yaşandığı bir dövrdə bu marşrut Şərqlə Qərb arasında ən sabit və təhlükəsiz yol halına gəlib. Vaşinqton dəhlizin əhəmiyyətini anlayıb və regiona real diplomatik sərmayələr yatırıb. İndi isə bu diplomatiyanı qanunvericilik və kapital ilə möhkəmləndirməlidir", – deyə müəllif vurğulayır.

Müəllif qeyd edir ki, Donald Tramp administrasiyası son bir ildə Cənubi Qafqaz və Mərkəzi Asiyaya mühüm diplomatik investisiyalar edib. Tramp Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanması mərasiminə rəhbərlik edib, ötən ilin noyabrında isə Ağ Evdə "C5+1" sammiti çərçivəsində Mərkəzi Asiyanın bütün 5 dövlətinin liderləri ilə görüşüb. Qazaxıstan, Özbəkistan və Azərbaycan Sülh Şurasına daxil olub, Özbəkistan və Qazaxıstan liderləri 2026-cı il dekabrın 14-15-də Mayamidə keçiriləcək G20 sammitinə dəvət olunub, Qazaxıstan isə Avraam sazişlərinə qoşulub. ABŞ-ın Mərkəzi Asiya və Azərbaycanla münasibətləri son onilliklərdə görünməmiş səviyyəyə yüksəlib.

Meyer xatırladır ki, Azərbaycanın eksklavı olan Naxçıvanı Ermənistanın cənubu vasitəsilə ölkənin əsas hissəsi ilə birləşdirəcək "Tramp marşrutu" Orta Dəhlizin qərb qolunun bir hissəsi kimi nəzərdən keçirilir. Lakin ABŞ qanunvericiliyi bu dəhlizin inkişafına mane olur. ABŞ Konqresi hələ də 1992-ci ildə Azərbaycana qarşı qəbul edilmiş 907-ci düzəlişi ləğv etməyib. Bu səbəbdən ABŞ Prezidenti hər il həmin düzəlişin qüvvəsini müvəqqəti dayandırmağa məcbur olur ki, Azərbaycana hərbi yardım göstərə bilsin.

Bundan əlavə, 1974-cü ildə Sovet İttifaqına yəhudilərin mühacirəti ilə bağlı təzyiq göstərmək məqsədilə qəbul edilmiş Cekson–Venik düzəlişi hələ də Qazaxıstan və Özbəkistanı ABŞ-la daimi normal ticarət münasibətləri statusundan məhrum edir. Halbuki hər iki ölkə onilliklərdir miqrasiya standartlarına əməl edirlər. Vaxt keçdikcə müxtəlif ABŞ administrasiyaları 2003-cü ildə Azərbaycan və Qazaxıstanla dəniz təhlükəsizliyi sahəsində əməkdaşlığı gücləndirmək məqsədilə yaradılmış Xəzər Sahil Mühafizəsi Təşəbbüsünə də prioriteti azaldıblar.

Analitikin fikrincə, əgər bu əlverişsiz qanunvericilik aktları ləğv edilməsə, ABŞ-ın regionda əldə etdiyi son diplomatik uğurlar puça çıxa bilər. "İmkan pəncərəsi daralır. Orta Dəhlizlə daşınan yüklərin əsas hissəsini Çindən Avropaya yönələn mallar deyil, Mərkəzi Asiyadan Qərbə daşınan enerji resursları və xammal – neft, faydalı qazıntılar, kənd təsərrüfatı məhsulları təşkil edir. Bu, dünyanın ciddi ehtiyac duyduğu resurslara malik region üçün suveren ixrac kanalıdır. Dəhlizin inkişaf dinamikası realdır, lakin imkan pəncərəsi məhduddur. Əgər Rusiyaya qarşı sanksiyalar aradan qaldırılsa və Moskva yenidən qlobal ticarət marşrutlarına qayıtsa, hazırda yükdaşıyanları Transxəzər marşrutuna yönəldən rəqabət məntiqi dəyişəcək", – deyə müəllif xəbərdarlıq edir.

**Politoloq Ramiyə Məmmədova** mövzu ilə bağlı XQ-yə açıqlamasında bildirdi ki,



mövcud geosiyasi reallıqlar fonunda Orta Dəhliz artıq yalnız alternativ nəqliyyat marşrutu deyil, Avrasiya məkanında strateji güc balansına təsir edən əsas geoiqtisadi platformalardan birinə çevrilib. Onun sözlərinə görə, Rusiya–Ukrayna müharibəsi, Yaxın Şərqdə artan hərbi risklər və İran ətrafında yaranmış qeyri-müəyyənlik göstərdi ki, qlobal ticarət sistemi ənənəvi marşrutlardan həddindən artıq asılı vəziyyətdədir: "Bu baxımdan Azərbaycandan keçən Orta Dəhliz həm Avropa, həm Mərkəzi Asiya, həm də Çin üçün təhlükəsiz və siyasi baxımdan daha dayanıqlı alternativ rolunu oynayır. Vaşinqtonun son dövrdə Cənubi Qafqaz və Mərkəzi Asiyaya marağının artması təsadüfi deyil. ABŞ anlayır ki, enerji təhlükəsizliyi, təchizat zəncirlərinin şaxələndirilməsi və Rusiyanın regional təsir imkanlarının məhdudlaşdırılması baxımından Orta Dəhliz mühüm əhəmiyyət daşıyır. Xüsusilə Azərbaycan bu marşrutun əsas logistik və siyasi mərkəzi kimi çıxış edir. Bakı son illərdə liman, dəmir yolu və tranzit infrastrukturuna böyük investisiyalar yatırmaqla regionun əsas nəqliyyat qovşağına çevrilməyi bacarıb".

Ekspert qeyd etdi ki, 907-ci düzəliş məsələsinin yenidən gündəmə gəlməsi də məhz bu geosiyasi zərurətlə bağlıdır. ABŞ üçün Azərbaycanla münasibətlərin dərinləşdirilməsi artıq yalnız ikitərəfli əməkdaşlıq məsələsi deyil, daha geniş strateji maraqların tərkib hissəsidir. Əgər Vaşinqton regionda uzunmüddətli təsir imkanlarını qorumaq istəyirsə, diplomatik jestlərlə kifayətlənməməli, bunu real iqtisadi və siyasi qərarlarla dəstəkləməlidir. Əks halda, yaranmış imkan pəncərəsi bağlana və Orta Dəhliz uğrunda geoiqtisadi rəqabətdə üstünlük digər güclərin əlinə keçə bilər.

***Səxavət HƏMİD***
***XQ***

# WUF13 öncəsi "Bakı şəhərsalma həftəsi"

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ərəfəsində, mayın 11-17-də paytaxtımızda "Bakı şəhərsalma həftəsi" təşkil olunacaq. Bakı şəhərinin müxtəlif məkanlarında eyni anda silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur.**




Ölkə səviyyəsində keçirilən Azərbaycan Şəhərsalma Kampaniyasının kulminasiya nöqtəsi olan "Bakı şəhərsalma həftəsi" dövlət qurumlarını, şəhərsalma mütəxəssislərini, akademik dairələri, mədəniyyət nümayəndələrini, gənc innovatorları və geniş ictimaiyyəti bir araya gətirəcək.

Həftə çərçivəsində keçiriləcək tədbirlər şəhərin müxtəlif məkanlarını, o cümlədən tarixi abidələri, mədəni irs nümunələrini və müasir şəhərsalma həllərinin tətbiq olunduğu məkanları əhatə edəcək.

Tədbirlər silsiləsi qlobal müzakirələrin Bakının unikal şəhərsalma kontekstinə uyğunlaşdırılmasını, eləcə də şəhər sakinləri və xarici qonaqların bu müzakirələrdə yaxından və fəal iştirak etmələri üçün imkanların yaradılmasını hədəfləyir.

Bakı şəhərsalma həftəsi geniş ictimaiyyət üçün açıq platforma kimi nəzərdə tutulub və dörd əsas istiqamət üzrə təşkil olunacaq.

"Fənlərarası Şəhər Dialoqu" çərçivəsində konfranslar, panel müzakirələri və ekspert görüşləri vasitəsilə yerli və beynəlxalq tərəfdaşlar arasında bilik və təcrübə mübadiləsi aparılacaq.

"Urban İnnovasiya Laboratoriyası" innovativ ideyaların real şəhərsalma həllərinə çevrilməsinə dəstək verəcək.

"Urban Marşrutlar" istiqaməti tematik gəzinti marşrutları vasitəsilə Bakının inkişaf mərhələlərini əks etdirən məkanların kəşfini təmin edəcək.

"Urban Mədəniyyət və İncəsənət" istiqaməti isə şəhərsalma mövzularının incəsənət vasitəsilə ifadəsini təşviq edəcək.

"Bakı Şəhərsalma Həftəsi" müvafiq dövlət qurumları, akademik və tədqiqat institutlarının iştirakı ilə geniş institusional tərəfdaşlıq formatında həyata keçiriləcək.

***XQ***

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

*qeyd olunan kafedralar üzrə professor və dosent vəzifələrinə seçilmək üçün*

**MÜSABİQƏ ELAN EDİR**

Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrası üzrə dosent – 1 ştat.

Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi texnologiyası kafedrası üzrə professor – 1 ştat.

Müasir Azərbaycan dili kafedrası üzrə dosent – 1 ştat.

Ədəbiyyatın tədrisi texnologiyası kafedrası üzrə dosent – 1 ştat.

Məktəbəqədər təhsilin pedaqogikası kafedrası üzrə dosent – 2 ştat, professor – 1 ştat.

Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası üzrə dosent – 1 ştat.

Ümumi pedaqogika kafedrası üzrə dosent – 2 ştat.

İbtidai təhsilin pedaqogikası kafedrası üzrə dosent – 1 ştat.

Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrası üzrə dosent – 1 ştat.

Kompüter elmləri kafedrası üzrə dosent – 1 ştat.

Əməyin texnologiyası kafedrası üzrə dosent – 1 ştat.

Ədəbiyyat və dillər kafedrası (Quba filialı) üzrə dosent – 1 ştat.

Müsabiqədə iştirak etmək istəyənlərin sənədləri Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin tələblərinə uyğun bu elan dərc olunan gündən bir ay müddətində saat 9.00-dan 17.00-a qədər ADPU-nun İnsan resursları və kargüzarlıq şöbəsində qəbul edilir.

**Əlaqə telefonu:** (012) 498-08-16.

**Ünvan:** AZ-1000 Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68.

**E-poçt:** insan.resurslari@adpu.edu.az

www.adpu.edu.az

***REKTORLUQ***

"Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları"ASC səhmdarlarının nəzərinə!

22 iyun 2026-cı il saat 9.00-da Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi 2 nömrəli ünvanda "Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** 2025-ci ildə cəmiyyətin maliyyə fəaliyyəti haqqında idarə heyyətinin hesabatı.

**2.** Müşahidə şurasının hesabatı.

**3.** Cəmiyyətin illik balansının və auditor hesabatının təsdiq edilməsi.

**4.** Cəmiyyətin icraçı direktorunun seçilməsi.

**5.** Müşahidə şurasının üzvlərinin seçilməsi.

**6.** Dividendlər haqqında müzakirə.

**7.** Cari məsələlər.

**Əlaqə telefonları:**
(012) 514-46-20. (055) 213-58-36.

***"BYGEA" ASC-nin idarə heyəti***

"Gilan Qəbələ Aqrotexservis" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11.00-da "Gilan Qəbələ Aqrotexservis" ASC səhmdarlarının Qəbələ rayonu, Hacallı kəndində, "Gilan Qəbələ Aqrotexservis" ASC-nin binasında illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** ASC-nin 2025-ci ilin yekunlarına aid maliyyə hesabatının müzakirəsi və təsdiqi.

**2.** Digər cari məsələlər.

Səhmdarlar illik ümumi yığıncağın gündəliyinin materialları ilə ümumi yığıncaq zamanı tanış ola bilərlər.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən hər bir səhmdar ümumi yığıncaqda iştirak hüququnu özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Sonuncu halda nümayəndənin səlahiyyəti qanunvericiliklə müəyyənləşdirilmiş formada tərtib olunmuş etibarnamə ilə təsdiq edilməlidir.

"Ucar Tikinti Quraşdırma" QSC səhmdarlarının nəzərinə!

27 iyun 2026-cı il saat 11.00-da "Ucar Tikinti Quraşdırma" QSC-nin inzibati binasında "Ucar Tikinti Quraşdırma" QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Səhmdar cəmiyyətin 2025-ci ilin yekunlarına aid maliyyə-təsərrüfat fəaliyyətinin hesabatının müzakirəsi və təsdiqi.

**2.** Yaranmış mövcud iqtisadi vəziyyətdən çıxmaq məqsədilə ərazinin 0.82 hektar hissəsinin satılması barədə.

**3.** QSC-də mövcud olan istifadə müddəti bitmiş, istifadəyə yarasız , bərpası iqtisadi cəhətdən səmərə verməyən əsas vəsaitlərin satılması, silinməsi və balansdan çıxarılması.

**4.** Təşkilati məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Əlaqə telefonu:**
99450-221-23-82.

**Ünvan:** Ucar şəhəri, Dədə Qorqud küçəsi.

***İdarə heyəti***

"Sabirabad Yem Zavodu" ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 10.00-da "Sabirabad Yem Zavodu" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Sabirabad şəhəri, Heydər Əliyev parkında keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1** 2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı.

**Ünvan:** Sabirabad şəhəri, Heydər Əliyev prospekti, Heydər Əliyev parkı.

***İdarə heyətinin sədri***
***A.A.Fərzəliyev***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 81 (31050) 9 may 2026-cı il, şənbə

## İDMAN

## Misli Premyer Liqasında XXXI tur



**Futbol üzrə Azərbaycan Premyer Liqasında XXXI tura start verilib.**

Dünən baş tutan açılış matçında "İmişli" və "Zirə" komandaları qarşılaşıb. Quba Olimpiya İdman Kompleksinin stadionunda keçirilən görüş qolsuz heç-heçə ilə yekunlaşıb – 0:0.

Turnir cədvəlində Bakı klubu 50 xalla 5-ci, İmişlinin eyniadlı təmsilçisi isə 33 xalla 9-cu pillədə qərarlaşıb.

Günün son matçında "Sabah" öz meydanında "Kəpəz"i qəbul edəib. "Bank Respublika Arena"da keçirilən qarşılaşma gəncəlilərin xeyrinə başa çatıb – 1:0.

Çempionluğu vaxtından əvvəl təmin edən "Sabah" 75 xalla turnir cədvəlinə başçılıq edir. 27 xalı olan "Kəpəz" isə 10-cu sırada yer alıb.

Qeyd edək ki, turun digər qarşılaşmaları bu gün və sabah təşkil olunacaq.

## Stolüstü tennisin qalibləri



**Stolüstü tennis üzrə ölkə birinciliyi başa çatıb. "Şüa İdman Kompleksi"ndə keçirilən yarışda U-19 və U-15 yaş qruplarındakı idmançılar bacarıqlarını göstəriblər. Azərbaycan Stolüstü Tennis Federasiyasından verilən məlumata görə, 4 gün davam edən birincilikdə paytaxt Bakı ilə yanaşı, müxtəlif şəhər və rayonlardan 120-dən artıq stolüstü tennisçi qələbə uğrunda mübarizə aparıb.**

Nəticələrə əsasən, U-19 yaş qrupunda şəxsi yarışlar Adil Əhmədzadə ilə Aylin Əsgərovanın qələbəsi ilə nəticələnib. U-15 yaş qrupunda isə Onur Quluzadə ilə Xədicə Babazadə bütün rəqiblərinə qalib gəlib.

Qoşa yarışlarda Adil Əhmədzadə - Rüstəm Hacılı, Mərziyyə Nurmətova – Aylin Əsgərova tandemi U-19, Onur Quluzadə - Əliəkbər Mirzəliyev, Yağmur Məmmədli – Sofiya Trofimenko cütü isə U-15 yaş qrupunda birinci yeri tutub.

Qarışıq qoşa növündə isə Rüstəm Hacılı – Aylin Əsgərova, Onur Quluzadə Yağmur Məmmədli tandemi müvafiq yaş qruplarında baş mükafata layiq görülüb.

Qızların komanda mübarizəsində hər iki yaş qrupunda Sumqayıt-1, oğlanların yarışında isə Bakı-1 kollektivi qalib gəlib.

Ölkə birinciliyində fəxri kürsüyə qalxan idmançılara Azərbaycan Gənclər və İdman Nazirliyinin diplom və medalları, həmçinin, Azərbaycan Stolüstü Tennis Federasiyasının hədiyyələri təqdim olunub.

## "Böyük dəbilqə"də ilk gün



**Azərbaycan cüdoçuları Qazaxıstanın paytaxtı Astanada keçirilən "Böyük dəbilqə" turnirində ilk günü medalsız başa vurublar.**

Son olaraq Şəfəq Həmidova (48 kq) və Gültac Məmmədəliyeva (52 kq) üçüncü yer uğrunda görüşdə məğlub olublar. Ş.Həmidova Kristina Dudinaya (Rusiya), G.Məmmədəliyeva isə Nandin-Erdene Myaqmarsurenə (Monqolustan) uduzub.

Xatırladaq ki, "Böyük dəbilqə" turniri sabah başa çatacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Tofiq Rüstəmov – 90*

# Tərcümə sənətinin ustad tərcümanı



Azərbaycan mətbuatının tanınmış simalarından biri, dərin analitik təfəkkürə malik publisist, nüfuzlu ziyalı, tərcüməçi, Əməkdar jurnalist, professor Tofiq Rüstəmovun bu il 90-cı ildönümüdür. Sözə məsuliyyətlə yanaşan, publisistikanı düşüncə və mövqeyin platforması kimi dəyərləndirən, zəngin yaradıcılığı ilə milli mətbuat tariximizdə özünəməxsus iz qoyan Tofiq Rüstəmov "Xalq qəzeti"nin baş redaktoru olduğu illərdə ölkəmizdə gedən ictimai-siyasi proseslərin operativ şəkildə işıqlandırılmasına, mətbuatın cəmiyyət həyatındakı rolunun möhkəmlənməsinə böyük önəm vermişdir. Onun bədii-publisistik irsində xüsusi yer tutan "Molla Nur" əsərinin tərcüməsi isə müəllifin həyat müşahidələrinin, ictimai proseslərə həssas münasibətinin və insan xarakterlərinə dərindən nüfuz etmək bacarığının bariz nümunəsidir.

Bu il "Molla Nur"un 190, onun tərcüməçisi, professor Tofiq Rüstəmovun isə 90 yaşı tamam olur. Yubiley ərəfəsində povestin ikinci nəşri oxuculara dəyərli hədiyyədir.

## Molla Nur

*(əvvəli qəzetin 2 may tarixli sayında)*

Erkən başlanan isti qızmar nəfəsi ilə tacirin və əkinçinin ümidlərini külə döndərirkən Dərbənddəki məyusluğu təsəvvürünüzə gətirə bilərsiniz, Dərbənd sakinlərinin də, demək olar ki, hamısı ya əkinçi, ya tacirdir və torpağının yarısında buğda, yarısında boyaqotu əkir. Düzünə qalsa, onların qorxuya düşməsi üçün bu dəfə bir çox qanuni səbəblər vardı. Qonşuluqda yaşayan dağıstanlılar Qazı mollanın dövründən, qaldırdıqları qiyamın əvəzində layiqli cəza almış, aclığa düçar olmuşdular. Səpin vaxtı onlar güllə səpirdilər; biçin dövrü gələndə intiqam biçdilər; at dırnaqları və od-alov zəmilərini xaraba qoydu, payız yelləri biçilməmiş taxılı havaya sovurdu, çünki dağlılar bütün yayı və payızı o qəddarın bayrağı altında at çapmışdılar, rusların qorxusundan mağaralara çəkilmişdilər. O vaxt zəmilərdə yalnız ölüm dəryazı hökm sürürdü. Bu işlərin nə ilə qurtaracağını anlamaq çətin deyildi. O biri yayda payızlıq məhsulun yetişməsini belə gözləmədilər, buğdanı sütül-sütül yeyib qurtardılar. Davadan salamat qalan hər şey: mis qab-qacaq, qiymətli silahlar, yaxşı xalılar bahalaşmış buğda unu almaq üçün şəhər bazarlarında dəyər-dəyməzinə satılırdı. Belə şeylərə gümanı gəlməyənlərə dost-düşmən əlindən qurtulmuş sürülərini kəsib yeyirdilər. Nəhayət, dilənçi kökünə düşənlər dəstə-dəstə dağlardan enib şəhərlərə doluşdular və sədəqə diləməyə başladılar. Qayğıkeş hökumət adamları aclığın qabağını almaq, alverçilərin inhisarına son qoymaq üçün tədbir gördülər. Həştərxandan gəmilərlə un gətirildi; dövlətlilər artıq taxıllarını kasıblara payladılar, bir müddət camaat sakit oldu. Təzə məhsul hər şeyi yoluna qoya bilərdi. Şəhərdə Əli təriqətinə mənsub birinci şəhid imam Hüseynin müqəddəratından bəhs edən dini-teatr xatiratı – qətl mərasimi təzəcə qurtarmışdı. Dərbəndlilər ilboyu camaatın yeganə əyləncəsi olan bu mərasimin ən xırda qayğılarına və ayinlərinə uşaq sadədilliyi ilə uyaraq gecələrin sərinliyində biçin və istini büsbütün unutmuşdular. Nəinki unutmuşdular! Hətta sevinirdilər ki, yağış mənasız əyləncələrinə mane olmur.

Lakin mərasim günlərinin səs-küyü azaldı, onlar keçmişdən bu günə qayıtdılar, yaxşıca yuxularını alıb şəhər qapısından oyana baxanda, qarsalanmış tarlaları görəndə elə bil başlarına qaynar su töküldü. Aclıq qorxusu, tamahkar üçün aclıqdan daha pis olan ziyana düşmək qorxusu əlində gülabzan, qaval və nəğmə sədaları altında, barmaqlarının ucunda yeriyə-yeriyə astaca onlara yaxınlaşdı, dişlərini qıcadıb qarşılarında necə gözlənilmədən ayaq saxladısa onun solğun çöhrəsi hamıya bir o qədər dəhşətli göründü. Bütün qara və qırmızı saqqalların tərpənməsinə, ağacdan və kəhrəbadan yonulmuş bütün Dərbənd təsbehlərinin şaqqıltısına siz onda baxaydınız. Hamının sifəti sual işarəsinə dönmüşdü; hamının ağzında nida işarələri dolaşırdı. Bazarlarda, karvansaralarda, küçələrin tinində – yan qoymağa bir-iki tir və ya daş tapılan hər guşədə, yəqin ki, bir dəstə tatar sallağı oturub havadan bəhs açırdı, Avropa şəhərləri əhalisinin daim təkrarladığı və heç kəsin fikir verməyi belə söhbətlər isə ucu qurğuşunlu qamçı kimi dərbəndlilərin ürəyinin başına dəyirdi. Doğrudan da, quraqlıq üzündən yeganə dolanacaq mənbəyi olan boyaqotusuz qalmaq, buğda üçün gümüş vəznində xərcə düşmək zarafatdır məgər? Yoxsullar yaşamaq hayında, varlılar pul kisəsinin hayında idilər. Birincilər aclıq, ikincilər məcburi xeyriyyəçilik təhlükəsi qarşısında qalmışdılar. Bahalıq söhbəti düşər-düşməz mədələrin və ciblərin ağzı büzülürdü; hamı ah-ufla gününü keçirirdi, "azar qorxusu çəkən isə, – Montan demişkən, – artıq qorxu azarına düçar olmuşdur". Burada arzu həqiqətə çevrilir və sağlam gerçəklik vaxtından qabaq gələcəkdəkilərin əzabını çəkməyə başlayır, gələcəkdəkilər isə bəlkə də heç olmayacaq, yaxud tamam başqa qiyafədə olacaq.

Yaxın keçmişdəki vəba müsibətlərini yadımıza salaq; bu Hindistan yırtıcısının, bu əcaib yoluxmanın qəfil gəlişi barədə xəbərlərin Rusiyaya necə dağıdıcı vahimə ilə yayıldığını xatırlayaq; zəncirlər onu buxovlaya bilmədi, gənclik və sağlamlıq onun qarşısında aciz qaldı; o, ağına-bozuna baxmadan ehtiyatlıları da, ehtiyatsızları da, qorxmazları da, qorxaqları da qırıb-çatdı. Əvvəlcə vəba adı nəinki sevinc duyğusunu, havanın özünü belə zəhərlədi, lakin insan yavaş-yavaş ətrafında və irəlidə gördüyü dağıntıya alışdı. O zamanlar ağlaşma da uzun çəkmirdi; bəzən ağlayanların lap yaxınlığında gülüş qopurdu, əgər axır-axırda adamlar oxuyub oynamırdılarsa, deməli, ölüm qorxusu onları ikiüzlülükdən çəkindirməmişdi.

Hər halda, qıtlıq qorxusu dərbəndliləri üzüb əldən salırdı. Müsəlmanlar məscidlərdə ibadətə başladılar: yağış yağmadı! Sonra ibadəti çölün düzünə keçirdilər, ümid edirdilər ki, Allah onların yalvarışlarını daş tağların altındakına nisbətən açıq səmadan daha tez eşidər: damcı da görünmədi! Bir qədər intizarla dayandılar, ətrafa göz gəzdirdilər, – səma elə bil tuncdan tökülmüşdü, qətrə-qətrə əriyib axırdı, közərmiş torpaq ayaq altında yanıq dəmir kimi ovulur və ibadətçilərin üzündən axan tər damlalarını acgözlüklə canına çəkirdi. Nə etməli?..

Çarəsizlikdən bütpərəstlik xürafatına əl atdılar. Oğlan uşaqları tinlərin başında dəsmal sərib yol keçənlərdən mum və gülab almağa pul yığdılar; sonra mələk kimi gözəl bir oğlanı budaqlarla sarıdılar, çiçək və bafta ilə bəzəyib-düzədilər və çox güman ki, bir zaman şeh və yağış Allahı Güdülün şərəfinə qoşulmuş nəğmənin ahəngində oxuya-oxuya küçələrə düşdülər. Mən "çox güman ki" deyirəm, çünki Güdül haqqında dolğun məlumat toplaya bilməmişəm. Yağış diləyi adətən bu nəqarətlə tamamlanırdı:

***Güdül, Güdül, xoş gəldi!***
***Ardından, yağış gəldi!***
***Gəlin, ayağa dursana,***
***Çömçəni doldursana!***

Cavanlar əl çala-çala, sadədillikdən doğan inamla rəqs edir, oxuyur, yallı gedirdilər, elə bu vaxt – bir ora baxın! – doğrudan da dolmuş buludlar günəşin qabağını kəsdi... Göyün üzü pulu əlindən çıxan xəsisin sifəti kimi tutuldu, kölgə özgə küçüyü təki quyruğunu qısıb gözdən itdi; ətrafa qaranlıq çökdü; amma hamının gözləri parıldadı, sevinc yaşları ilə doldu, baxışlar dirilik suyuna yönəldi... Yağış damcılamağa başladı. "Allah, Allah!" nidası havaya ucaldı, şadyanalıq sədaları fişəng kimi fışıldayaraq Dərbənd üzərində bir-birinə qovuşdu. Amma faydasız, vaxtsız sədalar idi bunlar! İran tərəfdən tülkü dərisi kimi isti külək əsib yüngül buludu dağıtdı. Birdən-birə günəş bayaqkından daha gur işıq saçdı, camaat bayaqkından daha artıq qüssələndi. Bir gün də keçdi. Daha bir gün qızmar səhrada addımlayan yorğun səyyah kimi ağır-ağır nəfəs alaraq dağların dalına çökürdü. Hamı ibadətdə, hər şey yağışın intizarındadır...

**Yağış isə yağmır ki, yağmır!**
**Xalq Barbad**
**Tatar lüğəti**

İşdir, Dərbənddən keçib getməli olsanız, hökmən vaxt tapıb Came məscidinə tamaşa eləyin, yoxsa Xvalınsk dənizinin sahilində qərar tutan, Allah amanında olan bu şəhərdən danışmağa yaxud onu xatırlamağa söz tapmazsınız. Bu məscid, – deyə şəhadət barmağınızla tütün qabını taqqıldada-taqqıldada, yaxud elə həmin barmağınızla çubuğunuzdakı tütünü sıxa-sıxa danışmağa başlayacaqsınız, – bu məscid, çox güman ki, keçmişdə xristian kilsəsi olub (duruxmayın: günahı mənim boynuma), çünki üzü şərqə baxır, müsəlman məscidlərinin giriş qapısı isə həmişə şimal-şərqə tərəf olmalıdır ki, dindarlar Məkkə və Mədinəyə, yəni cənub-qərbə üz tutub ibadət edə bilsinlər. İkincisi, burada uçurulmuş mehrabın izləri aydın görünür, tatarlar həmin məscidin guya hicri tarixlə birinci əsrdə (təxminən min iki yüz il bundan qabaq) tikildiyini iddia etsələr də, biz Dərbənd kilsəsinin mövcudluğunu tamamilə düzgün göstərən yunan yeparxiyalarının hesablamasına əsaslanıb qətiyyətlə deyə bilərik ki, bu məbəd daha qədim dövrlərə aiddir. Sal daşlar döşənmiş, uca çinarların kölgəsinə sığınmış, ortasında hovuz düzəldilmiş geniş, dördkünc həyət məscidin qarşısında sərilən qonaqpərvərlik xalısını xatırladır. Həmişə açıq olan üç qapı dindarları dünyanın dərdlərini unudub bu sakitlikdə Allahı düşünməyə çağırır. Şərq tərəfdə hücrələr yan-yana düzülüb, şimal tərəfdə ibadətçiləri yayın bürküsündən qoruyan eyvan yerləşir. Qərb tərəfdə həyət boyu uzanan, mamır örtüyündən yaşıla çalan məscid divarı ucalır; köklü-köməcli dayaqlar çiynini qabağa verib onu dik saxlayır. Binanın tən ortasındakı sivri günbəz dua sədaları kimi səmaya yol alır, onun qurtaracağındakı ulduz isə hər yana şölə saçır. Baş qapının üstündə Quran ayəsi bərq vurur. İçəri keçirsiniz, gözlənilmədən rütubətli alaqaranlıq sizi qoynuna alır, qeyri-ixtiyari ehtiram sükutu qəlbinizi fəth edir (lap Şatobrianı xatırladır!). Çəkmələrinizi bir qırağa atın, qarmaqarışıq fikirləri beyninizdən çıxarın! Küçələrinizin palçığını, içinizin paxırını Allahın evinə gətirməyin. Dizləriniz yerdə, ürəyiniz göylərdə olsun... Təsbeh çevirə-çevirə qazancınızı yox, günahlarınızı hesablayın. La ilahə illəllah və Məhəmmədün rəsulullah! Allahdan başqa heç bir tanrı yoxdur və Məhəmməd Allahın elçisidir! Dindarların duası həzin-həzin səslənir; onlar dizüstə oturub, yaxud alınlarını xalçaya yapışdırıb sidqi-ürəkdən ibadətlə məşğuldurlar; nə bir səs, nə bir nəzər onların diqqətini yayındıra bilir; gözlərinin ucu ilə də olsa dönüb ətrafa baxmırlar. Sağda və soldakı çatma qübbəli iki cərgə tağ öz sütunlarının kölgəsini səkinin üstündə qovuşdurub alaqaranlıqda görünməz olur. Dəstə-dəstə ibadətlə məşğul olanlar yuxarıdakı xırda pəncərələrdən zülmət qaranlığa süzülən zəif işıqda ara-sıra görünüb gözdən itir. Qaranquşlar günbəzin altında süzür və oxunan duanın sözləri kimi açıq səmaya uçur; hər şeydə bu günün yoxluğu duyulur (bütün bunlar heç olmasa tarixi romana yarayaydı), hər şey yorğun ürəyə sərinlik və xoş duyğular bəxş edir. İnsan yaddaşı çoxdan olub keçənləri bir-bir çözələyir və dilə gəlir – indi görən hardasınız, ey bu məbədi ucaldan xristianlar? Hanı sizə verilən ehsanlar? Sizi Dərbəndin əfsanələrlə dolu tarixində, "Dərbəndnamə"də də yada salan olmayıb; bir zamanlar müqəddəs kilsə nəğmələrinin gurladığı bu yerdə indi Quran ayələri səslənir!

*(ardı var)*

*Tərcümə Əməkdar jurnalist*
*Tofiq RÜSTƏMOVUNDUR*

HAVA

# Aranda əsasən yağmursuz, dağlıq ərazilərdə qar...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Cənub-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 12-15, gündüz 20-25 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunu, nisbi rütubət isə gecə 60-70, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 10-15, gündüz 22-27, dağlarda gecə 4-8, gündüz 13-18 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*


## "Təmir-Tikinti N.H." ASC-nin səhmdarlarının nəzərinə!

Bildiririk ki, "Təmir-Tikinti N.H." ASC-nin səhmdarlarının illik ümumi yığıncağı 30 iyun 2026-cı il tarixdə saat 15:00-da Ö.F.Nemanzadə 48 ünvanında keçiriləcəkdir.

**İclasın gündəliyindəki məsələlər:**

**1.** Cəmiyyətin illik hesabatı.
**2.** İllik hesabatın təsdiq edilməsi.
**3.** Mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiq edilməsi.
**4.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan:** Bakı şəh. Səbail ray. 20-ci sahə, Ö.F.Nemanzadə 48.

**Əlaqə telefonu:** (050) 335-91-15

*"Təmir-Tikinti N.H." ASC-nin*
*İdarə Heyətinin Sədri*

***✓ Xaçmaz rayon sakini Pirverdiyev Yusuf Səddar oğlunun adın averilmiş "MTZ-80" markalı traktorun 27 K-102 dövlət qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.***

***✓ 2019-cu il avqustun 27-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "Yeni Yol GROUP"MMC-yə verilmiş İML-287\2019 nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır.***

***✓ 2016-cı ildə Ucar şəhər 1 nömrəli məktəb - lisey tərəfindən Rəsulzadə Murad Qurban oğlunun adına verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.***



**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3160**
**SİFARİŞ 571**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**İmran BƏDİRXANLI**
**Çapa imzalanmışdır 00:00**